# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*26 may 2017-ci il №19(8735)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


## Bu sayımızda


**Azərbaycan-Rumıniya Universitetlərarası Forumu keçirildi** ⇨səh.4

**Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırıldı** ⇨səh.5

**Valideynin uşaq kaprizi...** ⇨səh.7

**Bülent Aybar: “Azərbaycanda dünya səviyyəli kadrlar yetişdirmək mümkündür”** ⇨səh.9


# Müsahibəsiz və müsabiqəsiz




### Müəllimlərin yerdəyişməsində onların sosial statusları ilə yanaşı, diaqnostik qiymətləndirmədəki nəticələri də nəzərə alınacaq

Xəbər verdiyimiz kimi, 2017-2018-ci tədris ilinə ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi üzrə müsabiqənin təşkili və keçirilməsinin yeni qaydaları təsdiqlənib. “Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları” adlanan həmin sənəddə bir sıra yeniliklər var. Daha çox yenilik isə müəllimlərin yerdəyişməsi ilə bağlıdır.

Qaydalarda göstərilib ki, Təhsil Nazirliyi ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsini proqram təminatı tətbiq olunmaqla, ilk peşə, orta ixtisas və ali təhsil müəssisələrindən, digər dövlət qurumlarının tabeliyindəki və özəl təhsil müəssisələrindən müəllimlərin iş yerinin Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə dəyişdirilməsini mərkəzləşdirilmiş müsabiqə yoluyla həyata keçirir.

⇨Ardı səh.11

## “Bakı-2017”nin döyünən ürəyi atletlər, oyunların geniş qəlbi könüllülər...

Ölkəmiz özünün daha bir mötəbər tədbirini uğurla başa çatdırdı. Mayın 12-dən 22-dək paytaxtımızda hər bir kəsə əsl bayram ab-havası yaşadan IV İslam Həmrəyliyi Oyunları möhtəşəmliyi ilə ölkəmizin tarixində növbəti yaddaqalan hadisəyə çevrildi. İslam dünyasının idman nəbzi 10 gün ərzində Bakıda döyündü. Paytaxtın bütün beynəlxalq standartlara cavab verən 16 idman arenası ötən on gün ərzində heç bir çətinlik yaratmadan fəaliyyət göstərdi. Burada yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Qeyd edək ki, idmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə apardılar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz bütövlükdə 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olaraq xalqımızı parlaq qələbələri ilə sevindirdilər. Azərbaycan 54 İslamiada ölkəsinin birincisi oldu.

IV İslam Həmrəyliyi Oyunlarını stadionlarda birbaşa izləyənlər Azərbaycan idmançılarının qələbələrinin sevincini onlarla birlikdə yaşamaqla bərabər, yarışların necə mütəşəkkil və yüksək səviyyədə keçirilməsinin bir daha şahidi oldular. Oyunların keçirildiyi müddət ərzində, sözün yaxşı mənasında, diqqəti özünə çəkməyi bacaranlar isə yenə də tələbə-könüllülərimiz oldu. İslamiadanın iştirakçıları olan istər idmançılar, istərsə də yerli və əcnəbi tamaşaçılar, qonaqlar könüllülərimizin xoş münasibətindən, səmimi ünsiyyətindən, hazırlıq səviyyəsindən, peşəkar işindən olduqca məmnun qaldılar.

Elə mayın 23-də Təhsil Nazirliyində IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən könüllülərlə bağlı keçirilən brifinqdə də Azərbaycanın tələbə-könüllülərinin uğurlu fəaliyyəti xüsusi qeyd olundu.

“IV İslam Həmrəyliyi Oyunları şanlı tariximizə ən yaddaqalan tarixi qələbə kimi yazıldı. Dünyaya sülhsevərliyini nümayiş etdirən ölkəmiz yenə öz gücünü, qüdrətini və yüksək təşkilatçılıq qabiliyyətini göstərdi”, - deyən təhsil nazirinin müavini Firudin Qurbanov könüllülərin də iştirak etdiyi brifinqdə media nümayəndələri ilə təəssüratlarını bölüşdü. Qeyd etdi ki, IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi hər birimizdə böyük qürur hissi doğurdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük diqqət və qayğısı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığı nəticəsində tələb olunan infrastrukturun yaradılması, digər hazırlıq işlərinin görülməsi Oyunların yüksək səviyyədə keçirilməsinə zəmin yaradıb.

⇨Ardı səh.2

## Zəif nəticə göstərən müəllimlər getsinmi, qalsınmı?

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın təsdiq edilməsi haqqında” 13 nömrəli Sərəncamından sonra bu istiqamətdə həyata keçirilən islahatların miqyası genişləndirilib. Ölkədə təhsilin keyfiyyətinin artırılması və sürətli yüksəlişinə nail olmaqdan ötrü Dövlət Strategiyasında nəzərdə tutulan istiqamətlər üzrə ciddi islahatlara başlanılıb. Təhsil üzrə müəyyən edilən 5 başlıca strateji istiqamətdən biri - təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması və müasir təlim metodlarından istifadə edən yeni təhsilverənlərin formalaşdırılması prosesini ləngidən səbəblərin aradan qaldırılmasına yönələn ciddi addımlar atılıb.

⇨Ardı səh.11

## Məktəb icmaları “Səsli kitablar” hazırlayıb

community.az portalı Təhsil Nazirliyi və “AccessBank”ın dəstəyi ilə görmə məhdudiyyəti olan uşaqlar üçün “Məktəb icmaları” layihəsi çərçivəsində “Səsli kitablar” hazırlayıb. Uşaqların beynəlxalq müdafiəsi günündə görmə məhdudiyyəti olan uşaqlar üçün unudulmaz etməyə çalışan layihə təşkilatçıları bir valideynin ideyasını reallaşdırmaqla yüzlərlə insanın həyatına maraq qatıb. Nağıl, roman, pyes, bir sözlə, dünya və Azərbaycan ədəbiyyatına aid nümunələr uşaqların səsləndirməsində bir audio diskdə toplanıb.

Sosial məsuliyyətli bu layihə ilə bağlı “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında “Məktəb icmaları” layihəsinin direktor müavini Nigar Əliyeva bildirib ki, səsli kitablar məktəb icmalarının 2017-ci ilin sonunadək həyata keçirməyi planlaşdırdığı 10 ideyadan birincisidir: “Bu layihə “İdeya-2017” müsabiqəsinin nəticəsində yaranıb.

⇨Ardı səh.11

## Tələbələrimiz erməni təxribatının qarşısını alıb

Azərbaycandan kənarda təhsil alan tələbələrimiz mükəmməl biliyə yiyələnməklə yanaşı, həm də yaşadıqları ölkələrdə Vətənimizi layiqincə təmsil edir, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə obyektiv rəyin formalaşdırılması, zəngin tarixi-mədəni irsimizin təbliğ olunmasında fəallıq göstərirlər. Erməni məkrinin ayaq açdığı ölkələrdə bu vəzifənin öhdəsindən gəlmək heç də asan iş deyil. Lakin Azərbaycan gəncliyi əsl vətənpərvərlik nümunəsi göstərməklə, düşmənin fitnə-fəsadının qarşısını almaqla üzərinə düşən missiyanı şərəflə yerinə yetirir. Elə bu günlərdə Çində təhsil alan fəal tələbələrimiz tərəfindən ermənilərin növbəti təxribatının qarşısının alınması diqqətimizdən yayınmadı. Fəal tələbələrimizdən biri də hazırda Çinin Mərkəzi Pedaqoji Universitetində dövlət xətti ilə təhsil alan Aqil Mübarizdir. Onunla əlaqə yaradaraq Çində baş verənlərlə bağlı ətraflı məlumat verməsini xahiş etdik. Əvvəlcə tələbəmizlə yaxından tanış olaq.

*Aqil Mübariz:* 1989 -cu il oktyabrın 2-də Bakı şəhərində anadan olub. 2006-cı ildə Xətai rayonundakı 88 nömrəli tam orta məktəbi bitirib. 2007-2009-cu illərdə ordu sıralarında hərbi xidmət keçib. 2010-2014-cü illərdə Gəncə Dövlət Universitetində ali təhsil alıb. Təhsil illərində ali məktəbin fəal tələbələrindən olub. Gəncə Dövlət Universitetində keçirilən psixologiya fənni üzrə olimpiadada III yeri tutaraq diploma təltif olunub. Elə həmin ildə Yeni Azərbaycan Partiyası Gəncə şəhər Təşkilatı Gənclər Birliyinin təşkil etdiyi “Peşə etikası və psixologiyası” seminarında fəal iştirakına görə sertifikatla təltif edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Gəncə “ASAN xidmət” mərkəzində könüllü olaraq fəaliyyət göstərib. Maksimum 100 balı toplayaraq I dərəcəli sertifikatla təltif olunub. İlk dəfə Gəncə “ASAN xidmət” mərkəzinin könüllüləri arasında keçirilən “Xəmsə” Milli intellektual oyununun qalibi olub. Daha sonra Xəzər Universitetində keçirilən II Beynəlxalq psixologiya konfransında iştirak edib. 2014-cü ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə operator vəzifəsinə işə qəbul olunub. 2015-ci ildə isə mütəxəssis vəzifəsinə keçirilib. 2016-cı ildə Çin Xalq Respublikasında magistr təhsili almağa göndərilib və hazırda təhsilini davam etdirir.

⇨Ardı səh.12



## Məktəblər hazırkı formada həyata davamlı deyillər

### Ekspert Ken Robinson dünyanı sənaye inqilabının təhsil sistemindən imtina etməyə səsləyir

⇨Ardı səh.6

## Yeni layihə



## RƏSMİ XRONİKA



- Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev mayın 25-də “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 mart tarixli 1838 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.
- Mayın 24-də ölkə başçısı İlham Əliyev Gürcüstanın Prezidenti Giorgi Marqvelaşviliyə bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərib.
- Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşdə iştirak ediblər. Dövlət başçısı İlham Əliyev görüşdə nitq söyləyib.
- Ölkə başçısı İlham Əliyev mayın 23-də İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynə bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərib.
- Mayın 23-də Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyə Mançester şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimində iştirak edib.
- Mayın 22-də Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah bin Zayed Al Nahyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin yeni sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Ölkə başçısı İlham Əliyev mayın 22-də İbrahim Said oğlu Quliyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 22-də dövlət başçısı İlham Əliyev Firəngiz Əliağa qızı Əlizadənin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev mayın 22-də Fatma Hüseyn qızı Səttarovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 21-də dövlət başçısı İlham Əliyev Abu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə görüşüb.
- Dövlət başçısı İlham Əliyev mayın 21-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının yenidən sədri seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20-21 may tarixlərində Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub.
- Mayın 20-də Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə Prezident vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.

## Eksternat imtahanlarının nəticələri açıqlanıb

Bakı şəhəri üzrə keçirilən eksternat imtahanlarının nəticələri açıqlanıb.

Əvvəlki illərdə tam orta təhsilini başa vura bilməyən şəxslər üçün 11-13 may 2017-ci il tarixlərində təşkil edilən eksternat imtahanında 374 nəfəri Azərbaycan, 38 nəfəri rus bölməsi olmaqla, 412 nəfər iştirak edib. Onlardan 256 nəfəri imtahanın nəticələrinə görə müvəffəq olub.

Eksternlər hərəsində 10 sual olmaqla, 3 gün ərzində 13 fənn (ana dili, ədəbiyyat, xarici dil, insan və cəmiyyət, Azərbaycan tarixi, ümumi tarix, iqtisadiyyatın əsasları, riyaziyyat, biologiya, astronomiya, kimya, fizika, coğrafiya) üzrə imtahan veriblər. Rus bölməsi üzrə təhsil almış şəxslər isə əlavə olaraq daha 1 fəndən də (Azərbaycan dili) sınaqdan keçiblər.

Eksternat imtahanlarından uğur qazanan şəxslərin attestat almaq üçün Dövlət İmtahan Mərkəzi tərəfindən tam orta təhsil səviyyəsi üzrə keçirilən buraxılış imtahanlarında iştirakı zəruridir.

Eksternlər buraxılış imtahanları barədə Dövlət İmtahan Mərkəzinin saytına (www.dim.gov.az) daxil olaraq məlumat əldə edə bilərlər.

# “Bakı-2017”nin döyünən ürəyi atletlər, oyunların geniş qəlbi könüllülər...

### IV İslam Həmrəyliyi Oyunlarında tələbə-könüllülər hazırlıq səviyyələri və peşəkarlıqları ilə xüsusi rol oynayıblar

⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

### Təhsil Nazirliyinin idman müəssisələrinin 18 yetirməsinin 8 medalı

Nazir müavini bildirdi ki, oyunlarda iştirak edən idmançılar arasında Təhsil Nazirliyinin uşaq-gənclər idman məktəblərinin 18 idmançısı da var. Onlar 8 idman növü üzrə milli yığma komandaların tərkibində iştirak ediblər. Həmin idmançıların 6 nəfəri bu oyunların mükafatçısı olub və 4 qızıl, 4 bürünc olmaqla, ümumilikdə 8 medal qazanıb.

IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğatı da diqqətdə saxlanılıb. Belə ki, Təhsil Nazirliyi tərəfindən cari ilin mart-aprel aylarında IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri keçirilib. Nazir müavini bununla bağlı görülən işlər barədə də ətraflı məlumat verdi. Diqqətə çatdırıldı ki, kütləvi idman tədbirlərinin keçirilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan idman növlərinin məktəblilər arasında təbliği, onların idmana marağının artırılması, məktəblilərin sağlam həyat tərzinə cəlb edilməsidir.

Ötən müddət ərzində ölkənin 76 şəhər və rayonu əhatə olunmaqla sərbəst güləş, yunan-Roma güləşi, cüdo, taekvando, karate, boks, atletika, stolüstü tennis, basketbol, akrobatika gimnastikası, bədii gimnastika idman növləri üzrə 50 zona yarışları təşkil edilib. Həmin yarışlara 70 minə yaxın məktəbli qatılıb, 600-dən çox fiziki tərbiyə müəllimi cəlb olunub, oyunları 100-ə yaxın hakim idarə edib.

Bundan başqa, Dənizkənarı Milli Park ərazisində IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş məktəblilərin iştirakı ilə yürüş, fləşmob və konsert keçirilib. 1500 nəfərə yaxın məktəblinin qoşulduğu yürüşün ardınca 350 məktəblinin iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarının loqotipi qurulub. Eyni zamanda yürüş zamanı oyunlarda iştirak edəcək islam dövlətlərinin bayraqları nümayiş olunub. Bundan başqa, IV İslam Həmrəyliyi Oyunlarının təbliği məqsədilə respublika təsviri sənət müsabiqəsi də keçirilib.

### “Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz”

“Bakı - 2017” IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin həm də böyük insan resursları hesabına başa gəldiyini söyləyən nazir müavini bu işdə tələbə-könüllülərin xüsusi rolu olduğunu vurğuladı. Bu könüllülər Azərbaycanın müxtəlif regionlarında təhsil alan yaşı 16-dan yuxarı olan məktəblilər, ali və orta ixtisas müəssisələrinin tələbələridir. Bakı, Sumqayıt, Gəncə, Şəki, Lənkəran, Mingəçevirdə təhsil alan könüllülər İslam Oyunlarının keçirilməsinə öz töhfəsini veriblər. Tələbə-könüllülər oyunların keçirildiyi müddətdə idmançılara və rəsmi şəxslərə kömək edib, tamaşaçılara, ictimaiyyətə, əcnəbi qonaqlara, turistlərə və media nümayəndələrinə xidmət göstəriblər.

Onu da qeyd edək ki, Təhsil Nazirliyinin təşəbbüsü ilə yaradılmış “BİR” Tələbə-Könüllü Proqramı könüllülərin məlumatlandırılmasında və toplanmasında çox mühüm rol oynayıb. İslam Oyunlarının keçirilməsi və bu tədbirdə könüllülük fəaliyyəti ilə bağlı Azərbaycanın 6 şəhərinin ali və orta ixtisas təhsili müəssisəsində 20 mindən çox tələbənin iştirakı ilə 100-dən artıq görüş keçirilib.

Ümumiyyətlə, könüllülər indiyədək ölkəmizdə keçirilmiş mötəbər tədbirlərdə hər zaman fəal iştirak ediblər. Belə ki, “Bakı-2015” Birinci Avropa Oyunlarına 12 min, “Bakı Marafonu-2017”-yə 350, “Formula 1” Avropa Qran-Prisinin təşkilinə 3000-dən artıq, IV İslam Həmrəyliyi Oyunlarına isə 11 mindən çox tələbə-könüllü cəlb olunub, onlardan 3600-ü açılış və bağlanış mərasimlərində iştirak edib. 23-25 iyun tarixlərində keçiriləcək “Formula 1” Azərbaycan Qran-Prisinə isə 3500-ə yaxın tələbə-könüllü qoşulacaq.

Könüllülər uğurlu fəaliyyətləri, nümayiş etdirdikləri peşəkarlıqları ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın növbəti dəfə rəğbətini qazandı. Mayın 22-də Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimindəki çıxışında Mehriban Əliyeva bildirib: “Əziz könüllülər, çox sağ olun: qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu Oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər “Bakı-2017”nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram”. Bütün varlığı ilə Vətəninə bağlı olan, doğma Azərbaycanın dünyada layiqincə tanınmasında xidmətləri olan, səmimiyyəti və üzügülərliyi ilə insanların qəlbində xoş izlər buraxan gənclər üçün bu gözəl sözlər bir stimuldur.

*Mehriban ƏLİYEVA:*

“Əgər atletlər “Bakı-2017”nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram”.





### Tələbə-könüllülərə güzəştlər olunacaq

IV İslam Həmrəyliyi Oyunlarında daha çox Bakının ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri cəlb edilib. Yarışlarda Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universitetinin tələbə-könüllüləri üstünlük təşkil edib. Nazir müavini könüllülərin belə mötəbər tədbirlərdə iştirakını onlar üçün bir məktəb olduğunu , tələbələrin burada əldə etdiyi təcrübənin, müəyyən bilik və bacarıqlarının gələcək iş həyatlarına əhəmiyyətli təsir göstərəcəyinə əmindir.

Firudin Qurbanov İslamiadanın məşq proseslərində iştirak edən könüllülərin bəzi dərslərdə, tədris prosesində iştirak edə bilməməsi məsələsinə də toxunub. Nazir müavininin sözlərinə görə, bununla bağlı nazirliyin bütün təhsil ocaqlarına tapşırıq və tövsiyələri olub ki, könüllülərin dərslərdə iştirak etməmələri üzrlü hesab edilsin: “Kurs işi, diplom işinin müdafiəsində iştirak edə bilməyən könüllü-tələbələr üçün əlavə vaxt ayrılacaq. Bu çətinlik əsasən IV kursda olub, çünki İslamiadanın məşqləri onların imtahan sessiyası dövrünə düşüb. Bu proses tənzimlənəcək. Ali məktəb rəhbərlikləri bu barədə məlumatlıdırlar və lazımi işlər görüləcək. Ölkəmiz üçün siyasi, iqtisadi, mədəni əhəmiyyət daşıyan mötəbər yarışda iştirak edən tələbə-könüllülərə bütün zəruri güzəştlər göstəriləcək”.

### Könüllülük sözlə ifadə olunmayan bir hissdir...

Tələbə-könüllülər bu fikirdədirlər. Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakültəsinin II kurs tələbəsi Səfər Məmmədov ölkəmizə gələn əcnəbilərin Azərbaycana valeh olduğunu deyir. Könüllü olmasından və ölkəsi üçün çalışmasından qürur duyduğunu söyləyən S.Məmmədov burada yeni dostlar da qazandığını bildirdi.

Xədicə Xanlayeva Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin II kurs tələbəsidir. Bu yarışmalara qatılmaqla böyük təcrübə keçdiyini , hər gün yeni-yeni, tam fərqli insanlara yardımçı, tamaşaçılarla ünsiyyətdə olmaqdan xüsusi zövq aldığını qeyd etdi.

7 dil bilən Bakı Slavyan Universitetinin tərcümə fakültəsinin III kurs tələbəsi Məmmədəli Həsənov IV İslam Həmrəyliyi Oyunlarında könüllülük mədəniyyətinin artdığını, könüllülərin ictimaiyyət tərəfindən daha arzuolunan şəxslər kimi qəbul edildiyini, fərqli dilə, mədəniyyətlərə malik insanlarla tanışlığından məmnun olduğunu söylədi.

Həmsöhbətimiz olan digər tələbə-könüllülər də idman yarışları boyunca könüllülük fəaliyyətlərinin maraqlı keçdiyini, həyata pozitiv münasibətli insanlarla bir arada olmaqdan razı qaldıqlarını bildirdilər. “Könüllülük sözlə ifadə olunmayan bir hissdir” - deyən tələbələr bu hissi yaşadıqları üçün məhz onları seçən, rahat işləmələri üçün şərait yaradan hər bir kəsə könüllülər adından təşəkkür etməyi də unutmadılar.

# “Yarışda qalib gəlmək üçün çoxlu oxuyurdum”

**Niyazi RƏHİMOV**

### İnteraktiv “Bilik yarışı” şagirdlərarası test çalışmasında rəqabəti artırır

Bakının 283 və 83 nömrəli məktəblərində www.e-test.edu.az portalının “Bilik yarışı”nın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə çıxış edən Təhsil Nazirliyinin nümayəndəsi Tofiq Sadıqov deyib: “Təhsil Nazirliyinin rəsmi portalı tərəfindən keçirilən bilik yarışı şagirdlərin istedadının, intellektual səviyyəsinin, nitq, təqdimat qabiliyyətinin və İKT-dən istifadə bacarıqlarının üzə çıxarılması məqsədilə təşkil edilib”. Bilik yarışının qaydaları haqqında da ətraflı məlumat verən T.Sadıqov deyib ki, portal vasitəsilə elektron qeydiyyatdan keçən şagirdlər 8 fənn üzrə 30 000-dən artıq test çalışmasını həll edərək bilik yarışının iştirakçısı olurlar: “Çalışmaları həll etdikcə hər bir şagird müvafiq ballar qazanır. Toplanan ballar artdıqca şagirdlərə virtual simvolik həvəsləndirici medallar verilir. Cavabların düz və ya səhv olması barədə məlumat isə interaktiv şəkildə dərhal ekranda görünür”. Yarışın nəticələri haqqında da danışan T.Sadıqov onu da qeyd edib ki, iştirakçılardan 35 məktəbli bilik yarışında yüksək bal toplayaraq qalib adını qazanıb. Qaliblərin seçimi zamanı yüksək bal toplayanlar arasında elektron dərsliklərdən daha çox istifadə edən şagirdlərə üstünlük verilib. Sevindirici haldır ki, qaliblər sırasında Bakı ilə yanaşı Şəki, Zərdab, Şabran, Quba, Ağdam və Zaqatala məktəbliləri də var.

“Bilik yarışı”nın qalibi 283 nömrəli tam orta məktəbin X sinif şagirdi İbrahim Məmmədsadıqov da öz fikirlərini bizimlə bölüşüb: “Belə bir yarışın keçiriləcəyini eşidəndə özümü sınamaq qərarına gəldim. Bilik yarışı uzun müddət davam etməsinə baxmayaraq, həvəslə bu yarışda iştirak etdim və nəticədə zəhmətimin bəhrəsini gördüm”. Müsabiqə zamanı coğrafiya fənnindən bir çox biliklər əldə etdiyini və bu yarışın onun üçün çox əhəmiyyət daşıdığını deyən İbrahim qalib olduğu üçün qürur hissi keçirdiyini də bildirib.

Digər qalib 83 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Ayxan Eminzadə isə yarışın çox yüksək səviyyədə təşkil olunduğunu deyib: “Yarış çox əyləncəli və həyəcanlı keçirdi. Yarışda qalib gəlmək üçün çoxlu oxuyurdum. Dərslikdən başqa digər kitablardan da məlumat toplayırdım”. Qalib olduğu üçün müəllimlərinə xüsusi təşəkkürünü bildirən Ayxan yarışda qazandığı hədiyyənin onun üçün önəmli olduğunu diqqətə çatdırıb.



# Oksford İslam Araşdırmaları Mərkəzinin yeni tədris binası açılıb

## Təhsil naziri Mikayıl Cabbarov mərasimdə iştirak edib



Təhsil naziri Mikayıl Cabbarov 15-17 may 2017-ci il tarixlərində ölkə başçısının göstərişinə uyğun olaraq Oksford İslam Araşdırmaları Mərkəzinin (OİAM) yeni tədris binasının təntənəli açılış mərasimində iştirak etmək məqsədilə Böyük Britaniyada işgüzar səfərdə olub.

Mayın 16-da keçirilən tədbirdə Birləşmiş Krallığın vəliəhdi Uels Şahzadəsi Çarlz, Səudiyyə Ərəbistanının Kral ailəsindən Şahzadə Türki əl-Feysal və Mərkəzin direktoru Fərhan Nizami açılış nitqi ilə çıxış edib. Mərasimdə eyni zamanda Malayziyadan Sultan V Məhəmməd, Bəhreyn Krallığının vəliəhdi Şahzadə Salman bin Həməd, Küveytin keçmiş baş naziri və xarici işlər naziri Məhəmməd Sabah əl-Salem, İordaniya Kralının nümayəndəsi Şahzadə Qazi bin Məhəmməd və digər rəsmilər iştirak edib. Çıxışlarda Mərkəzin dinlərarası dialoqun inkişafında oynadığı əhəmiyyətli roldan söz açılıb, islam araşdırmaları sahəsində görülmüş işlər və Mərkəzin yaranmış yeni imkanlar hesabına gələcəkdə daha da inkişaf edəcəyinə dair fikirlər səslənib.

Tədbir çərçivəsində keçirilən rəsmi qəbul zamanı Mikayıl Cabbarov Mərkəzin rəhbərliyinə Azərbaycan Respublikasının Prezidentinin təbrik və salamlarını çatdırıb.

Səfər çərçivəsində Mikayıl Cabbarov eyni zamanda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın həqiqi üzvü, professor Nərgiz Paşayevanın təşəbbüsü əsasında 2013-cü ildə Oksford Universiteti nəzdində yaradılmış Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin akademik heyəti ilə görüş keçirib. Oksford Universitetinin qədim Bodleian Kitabxanasında professor Nərgiz Paşayevanın iştirakı ilə baş tutan görüş zamanı iştirakçılar burada Azərbaycan dili, tarixi və mədəniyyəti sahəsində aparılan araşdırmalar və eləcə də orta əsrlərdə Azərbaycana səfər edən səyyahların nadir əsərləri ilə tanış olublar.

Səfər zamanı təhsil naziri Mikayıl Cabbarov Böyük Britaniyanın Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbinin rektoru Dr. Xalid Azzam ilə görüşüb. Görüşdə 2012-ci ildən etibarən bu məktəblə əməkdaşlıq çərçivəsində Bakıda fəaliyyət göstərən İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin ölkəmizin zəngin mədəni irsinin qorunması sahəsində həyata keçirdiyi layihələrin spektrinin genişləndirilməsi, eləcə də mərkəz tərəfindən Azərbaycan universitetləri ilə birgə proqramların reallaşdırılması imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Səfərin yekununda isə təhsil naziri ölkəmizin Böyük Britaniyadakı səfirliyində xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində təhsil alan azərbaycanlı tələbələrlə görüşüb. Təhsil naziri görüşdə iştirak edən tələbələrin hər biri ilə ayrı-ayrılıqda tanış olub, onların problemləri ilə maraqlanıb və suallarını cavablandırıb.

Oksford İslam Araşdırmaları Mərkəzi (OİAM) 1985-ci ildə islam dünyasında elmi tədqiqatların və dinlərarası dialoqun inkişaf etdirilməsi məqsədi ilə yaranmış müstəqil mərkəzdir. Birləşmiş Krallığın vəliəhdi Uels Şahzadəsi Çarlz Mərkəzin himayədarıdır. OİAM Böyük Britaniyada rəmzi məna daşıyan "Kral Nizamnaməsi" əldə etmiş yeganə İslam Araşdırmaları Mərkəzidir. Mərkəzin yeni binası Oksford Universitetinin ənənəvi və islam memarlığının vəhdəti üslubunda inşa olunub.

# Ali məktəb müəllimlərinin I Forumu

Mayın 19-da "SABAHın müəllimi" adlı ali məktəb müəllimlərinin I Forumu keçirilib.

Forumun keçirilməsinin əsas məqsədi ali təhsil müəssisələri müəllimlərinin bilik, bacarıq və metodika ilə bağlı fikir mübadiləsi aparması və ali təhsilin müasir trendlərinin müzakirə olunmasıdır.

Forum Təhsil Nazirliyinin SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universiteti və "Microsoft" şirkətinin birgə təşkilatçılığı ilə keçirilib.

Forumda təhsil nazirinin müavini Ceyhun Bayramov, ali təhsil müəssisələrinin rektor və prorektorları, eləcə də İsrailin Təhsil Nazirliyinin, "Microsoft", "British Council", Alman Akademik Mübadilə Xidməti (DAAD) təşkilatlarının rəsmiləri iştirak edib.

Tədbirdə əvvəlcə SABAH müəllimlərinin fəaliyyəti haqqında film nümayiş olunub.

SABAH İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə tədbiri açaraq SABAH qrupları barədə məlumat verib və forumun işinə uğurlar arzulayıb.

Təhsil nazirinin müavini Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, müasir dünyanın yeni çağırışlarına və yüksək biliyə malik cəmiyyətin qurulması məqsədilə ali təhsil müəssisələrində yaradılmış SABAH qruplarının gənclər üçün yeni imkanlar açdığını bildirib. Nazir müavini forumun "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ni rəhbər tutmaqla, müəllimləri qlobal meyillərə uyğun şəkildə yeni texnologiyaların inkişafına töhfə verməyə təşviq etmək, müəllimlərə dəstək olmaq məqsədi ilə keçirildiyini nəzərə çatdırıb.

SABAH qruplarında təhsilin inkişafı üçün görülən tədbirlərin əhəmiyyətindən, müəllimlərin davamlı elmi inkişafının aktuallığından danışan Ceyhun Bayramov bildirib ki, son üç il ərzində SABAH qruplarında tədris aparmaq üçün müraciət etmiş namizədlərin sayı 4 dəfə artıb. 2014-2015-ci tədris ilində tədris aparmaq üçün müraciət etmiş müəllimlərin sayı 450 olduğu halda, 2016-2017-ci tədris ili üçün bu rəqəm 1790 olub.

Daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, "Microsoft" Korporasiyasının MDB ölkələri üzrə baş direktoru Ronald Binkofski, İsrailin Təhsil Nazirliyinin rəsmisi İris Zur çıxış ediblər.

Forum işini "Təhsildə beynəlxalq trendlər və imkanlar" paneli üzrə davam etdirib. Panel sessiyada "Microsoft Azərbaycan" şirkətinin təhsil proqramları üzrə meneceri Emin Axundov, "British Council" təşkilatının Azərbaycan üzrə rəhbəri Elizabet Uayt, "ADA" Universitetinin təhsil fakültəsinin dekanı Vəfa Kazdal, DAAD-ın təhsil üzrə müşaviri Hikmət Kamallı və "Thomson Reuters" agentliyinin Azərbaycanda elmi informasiya resursları üzrə eksperti Aygün Babazadə çıxış ediblər.

Daha sonra isə "Müasir trend və çağırışlar" adlı növbəti panel sessiya üzrə müzakirələr aparılıb.

SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilində 7 ali təhsil müəssisəsində yaradılıb. SABAH layihəsinin əsas məqsədi ali təhsildə keyfiyyətin yüksəldilməsi, yeni və fərqli mühitin yaradılması, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsidir.

Hazırda SABAH qrupları 11 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 45 ixtisas və 2300-dən artıq tələbəni və 600-dən artıq professor-müəllim heyətini əhatə edir. Bu tədris ilində 740-dan artıq SABAH tələbəsi məzun olacaq.

# "eTwinning Plus" layihəsi üzrə müsabiqənin qalibləri mükafatlandırılıb



Mayın 23-də Təhsil Nazirliyində "eTwinning Plus" layihəsi çərçivəsində təltifetmə mərasimi keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramov, nazirliyin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nümayəndələri, məktəb direktorları və müəllimlər iştirak edib.

Tədbiri giriş sözü ilə açan Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin Monitorinq və treninq şöbəsinin müdiri Vüsal Xanlarov 2005-ci ildə yaradılan layihənin Avropa İttifaqının Təhsil Proqramının tərkib hissəsi olduğunu qeyd edib və bildirib ki, Azərbaycan 2013-cü ildə qonşuluq siyasəti əsasında bu layihəyə qoşulub. "eTwinning Plus" layihəsi çərçivəsində indiyədək 113 məktəbdən 282 müəllimin iştirakı ilə 315 layihə həyata keçirilib.

Təhsil nazirinin müavini Ceyhun Bayramov bildirib ki, son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılıb, təhsilin normativ-hüquqi bazası təkmilləşdirilib, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilib.

Nazir müavini "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq beynəlxalq təcrübədən istifadə etməklə təhsil prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqi ilə əlaqədar "eTwinning Plus" layihəsinin həyata keçirildiyini vurğulayıb. Layihə çərçivəsində Azərbaycan şagirdləri Avropadan olan həmyaşıdları ilə təcrübə və fikir mübadiləsi aparmaq və onların adət-ənənələri, həyat tərzləri, mədəniyyətləri ilə tanış olmaq fürsəti qazanıblar. "eTwinning Plus" layihəsi çərçivəsində müəllim və şagirdlər XXI əsr bacarıqlarının artırılması istiqamətində beynəlxalq səviyyəli təlim və kurslarda iştirak edirlər.

Daha sonra müsabiqə qaliblərinə diplomlar təqdim olunub.

Qeyd edək ki, "eTwinning Plus" layihəsi üzrə keçirilmiş müsabiqələrin nəticələrinə əsasən 2016-cı ilin 6 ayı üzrə layihədə iştirak edən 18 müəllim mükafat əldə edib.

# "İslam Həmrəyliyi İli"nə həsr olunmuş intellektual oyun üzrə 2017-ci ildə regional məktəb çempionatının keçirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2015-ci il tarixli 998 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı məktəblilərin intellektual və yaradıcı inkişafına təkan verilməsi, şagirdlərin intellektual fəaliyyətə daha geniş miqyasda cəlb edilməsinin və asudə vaxtlarının səmərəli təşkilinin təmin olunması məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "İslam Həmrəyliyi İli"nə həsr olunmuş intellektual oyun üzrə 2017-ci ilin regional məktəb çempionatı keçirilsin.
**2.** Çempionatın Təşkilat Komitəsi (əlavə 1) və keçirilmə qaydaları (əlavə 2) təsdiq edilsin.
**3.** Yerli təhsili idarəetmə orqanlarının rəhbərləri, Nazirliyin bilavasitə tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin direktorları çempionatın keçirilmə qaydalarına ciddi əməl etməklə yarışın yüksək səviyyədə təşkili və keçirilməsini təmin etsinlər.
**4.** Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi (V.Məmmədov) çempionatın keçirilməsi üçün lazımi təşkilati işləri həyata keçirsin və bununla bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.
**5.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.
**6.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) çempionatın keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.
**7.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini, əmr və əlavələrin çoxaldılaraq yerlərə göndərilməsini təmin etsin.
**8.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*19 may 2017-ci il*

# Respublika fənn olimpiadalarının nəticələri barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

2016-2017-ci tədris ili üzrə keçirilmiş məktəblilərin fənn olimpiadalarının başa çatdığını nəzərə alaraq nəticələrin elan edilməsi və qaliblərin mükafatlandırılması məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2016-2017-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (əlavə olunur).
**2.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin çoxaldılıb yerlərə çatdırılmasını, "Azərbaycan müəllimi" qəzetində və Nazirliyin rəsmi internet səhifəsində dərc edilməsini təmin etsin.
**3.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*24 may 2017-ci il*

# Nazir Rumıniyanın nümayəndə heyətini qəbul edib

Mayın 25-də təhsil naziri Mikayıl Cabbarov Rumıniyanın milli təhsil və tədqiqatlar nazirinin müavini Gigel Paraskivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Rumıniyanın milli təhsil və tədqiqatlar nazirinin müavini Gigel Paraskiv Azərbaycan-Rumıniya Universitetlərarası Forumunun keçirilməsinə görə təhsil nazirinə təşəkkürünü bildirib.

Görüş zamanı ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Təhsil naziri Göyçay şəhərində vətəndaşları qəbul edəcək

**Ucar, Zərdab, Göyçay və Ağcabədi rayon sakinlərinin nəzərinə!**

Təhsil naziri Mikayıl Cabbarov 5 iyun 2017-ci il tarixində saat 11:00-da Göyçay şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ucar, Zərdab, Göyçay və Ağcabədi rayon sakinlərini qəbul edəcək. Qəbulda Ucar, Zərdab, Göyçay və Ağcabədi rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 25, 26, 30, 31 may və 1 iyun 2017-ci il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) və ya http://edu.gov.az/az/contacts/request elektron poçt ünvanına müraciət edərək qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# Azərbaycan-Rumıniya Universitetlərarası Forumu keçirildi

## İki ölkə arasında tələbə mübadiləsində yeni imkan yaranacaq



**Oruc MUSTAFAYEV**

Mayın 24-də “ADA” Universitetində Azərbaycan-Rumıniya Universitetlərarası Forumu öz işinə başlayıb. Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumun açılış mərasimində təhsil nazirinin müavini Firudin Qurbanov, Rumıniya təhsil nazirinin müavini Gigel Paraskivin rəhbərlik etdiyi nümayəndə heyəti, “ADA” Universitetinin prorektoru Fariz İsmayılzadə, hər iki ölkənin ali məktəb rektorları və digər qonaqlar iştirak edib. Fariz İsmayılzadə forumun açılışını edərək tədbirin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, forumun təşkilində əsas məqsəd azərbaycanlı tələbələri Rumıniyada təhsil imkanları ilə tanış etməkdir. F.İsmayılzadə ümid etdiyini bildirib ki, forum Azərbaycan və Rumıniyanın təhsil sahəsində əlaqələrinin inkişafına xidmət edəcək.

Təhsil nazirinin müavini Firudin Qurbanov forumun əhəmiyyətindən danışaraq son illər Azərbaycan-Rumıniya təhsil əlaqələrinin daha da gücləndiyini bildirib. Nazir müavini qeyd edib ki, Azərbaycan və Rumıniya ali məktəbləri arasında yüksək səviyyəli görüşün keçirilməsi ölkələrimiz arasında əlaqələrin yüksələn xətlə inkişaf etməsinin bariz nümunəsidir. “İki ölkə arasında əlaqələr Azərbaycan müstəqillik qazandıqdan sonra daha sürətlə inkişaf edib. Xüsusilə qeyd etmək istərdim ki, Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkədir. Və bu çox önəmlidir və bunun ölkələrimiz arasında əlaqələrin yüksək inkişafına çox böyük dəstəyi olub”. Azərbaycan və Rumıniya arasında istər iqtisadi, istər mədəni, istərsə də humanitar sahələrdə sıx əməkdaşlığın tarixən mövcud olduğunu deyən F.Qurbanov bu əlaqələrin bu gün də dinamik inkişaf etdiyini bildirib. Hazırda ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi və işgüzar səfərləri ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasına bariz nümunədir. Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun Rumıniyada filialı fəaliyyət göstərir. Bu isə iki ölkə arasında mədəni əlaqələrə öz yüksək töhfələrini verməkdədir.

### Əməkdaşlığın davam etdirilməsi üçün yaxşı zəmin

Nazir müavini qeyd edib ki, Azərbaycanla Rumıniya arasında təhsil əlaqələri davamlı olaraq inkişaf etməkdədir. Prezident İlham Əliyevin 2013-cü ilin oktyabrında imzaladığı “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və onun icra mexanizmlərini nəzərdə tutan Fəaliyyət Planında qabaqcıl beynəlxalq təcrübənin milli təhsil sistemimizdə tətbiqi nəzərdə tutulur. “Bu baxımdan Rumıniyanın təhsil sahəsində aparılan islahatlar bizim təhsil sistemi üçün də maraq kəsb edir. Eyni zamanda, məlumat vermək istərdim ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanın milli təhsil sistemi formalaşıb və təhsilin bütün səviyyələri üzrə islahatlar aparılmaqdadır. Bu islahatlar bu gün yüksək səviyyədə həyata keçirilir. İslahatlar həm təhsilin məzmunu, həm onun infrastrukturu, həm də müvafiq tədris vəsaitlərinin yeni formatda hazırlanması ilə bağlıdır”. Son 10 ildə Azərbaycanda 3 mindən çox məktəb tikilib istifadəyə verilib, əsaslı təmir olunub, onlar ən müasir texniki avadanlıqlarla, kompüterlərlə təchiz olunub. Bununla da təhsil sisteminin inkişafına xüsusi önəm verilir.

Nazir müavini qeyd edib ki, iki ölkə arasında təhsil sahəsində əlaqələri gücləndirmək məqsədilə 2004-cü ildə Buxarestdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq sazişi imzalanıb. Bu isə iki ölkə arasında təhsil sahəsində uğurlu əməkdaşlığın davam etdirilməsi üçün yaxşı zəmin yaradıb. Ali təhsil sahəsində əməkdaşlıq hazırda yüksək səviyyədə davam edir. Ali məktəblərdə Azərbaycan və rumın dillərinin tədrisinə önəm verilir. Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin dəstəyi ilə 60-a yaxın kitab Azərbaycan və rumın dillərinə tərcümə edilib. 2000-ci ildən başlayaraq Azərbaycan və Rumıniyanın bir sıra ali məktəbləri arasında əməkdaşlıq sazişləri imzalanıb. Bakı Slavyan Universiteti 2012-2016-cı illərdə ERASMUS layihəsinin iştirakçısı olub. Bu dövr ərzində BSU-nun 3 tələbəsi və bir müəllimi Rumıniyada təcrübə keçib. “Bu layihə çərçivəsində Azərbaycan vətəndaşları Rumıniyada, Rumıniya vətəndaşları isə Azərbaycanda təhsil almaq hüququ qazanıblar. Hazırda universitetlərimizdə təhsil alan rumıniyalı tələbələrin sayı çox deyil. ADU-da doktorantura səviyyəsində bir rumın tələbə təhsil alır. Ümid edirik ki, ali məktəblərimizdə onların sayı çoxalacaq”.

### Qarşılıqlı tələbə mübadiləsi

F.Qurbanov ümid etdiyini bildirib ki, forum çərçivəsində 2 ölkə ali məktəbləri arasında əlaqələr daha da güclənəcək və gələcəkdə Azərbaycan və Rumıniya tələbələrinin qarşılıqlı mübadiləsinə yeni imkan yaranacaq. Buna qədər isə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində gənclərimiz Rumıniyada təhsil alıblar. Son illərdə 7 tələbəmiz Dövlət Proqramının təqaüdçüsü kimi Rumıniyada təhsil alıb, onlardan bəziləri forumda iştirak edir.

Nazir müavini qeyd edib ki, forum çərçivəsində Azərbaycan və Rumıniyanın bir sıra ali məktəbləri arasında müqavilələr imzalanacaq ki, bu da iki ölkə arasında təhsilin inkişafına öz töhfələrini verəcək. “Ümid edirik ki, forum iki ölkə arasında əlaqələrin genişlənməsi üçün mükəmməl platforma olacaq”, - deyə F.Qurbanov bildirib.

Rumıniya təhsil nazirinin müavini Gigel Paraskivin sözlərinə görə, forum ölkələrimizdə təhsil sahəsində aparılan islahatlara dair təcrübə mübadiləsi üçün bir fürsətdir. Azərbaycanın ali təhsil sistemində həyata keçirilən elmi layihələri yüksək qiymətləndirən Q.Paraskivə görə, bu tədbir ali məktəblər arasında dialoqa, birgə əməkdaşlığa yeni imkanlar yaradacaq. O qeyd edib ki, forum ikitərəfli əlaqələrin inkişafına mühüm təkan verəcək.

Çıxışlardan sonra iki ölkənin universitetləri arasında sənədlər imzalanıb.

Forum çərçivəsində F.Qurbanov və G.Paraskiv arasında görüş keçirilib. Görüşdə iki ölkənin ali təhsil müəssisələri arasında ikili proqramlar, tələbə-müəllim mübadiləsi və digər məsələlər müzakirə edilib.

Qeyd edək ki, forumda Azərbaycanın 16 ali təhsil müəssisəsinin rəhbərləri və nümayəndələri, eləcə də Rumıniya ali təhsil müəssisələrinin məzunları olan azərbaycanlı gənclər də iştirak edib.

# UNEC-də növbəti beynəlxalq konfrans

## Klassik universitet anlayışı əvəzlənir

**Rəşad ZİYADOV**



Mayın 19-da UNEC-də ictimai elmlər sahəsində dünyanın nüfuzlu ənənəvi elmi platforması olan “XIII Beynəlxalq Bilik, İqtisadiyyat və Menecment Konfransı” keçirilib.

“İslam Həmrəyliyi İli” çərçivəsində keçirilən konfransın təşkilatçıları UNEC-lə yanaşı, Türk Dünyası İqtisadçılar Birliyi, Türkiyənin İstanbul Sabahattin Zaim Universiteti, Bandırma On Yedi Eylül Universiteti, “Bilik, İqtisadiyyat və Menecment” jurnalıdır.

Tədbiri giriş sözü ilə açan UNEC-in rektoru, professor Ədalət Muradov nüfuzlu konfransa Azərbaycan Dövlət İqtisad Universiteti olaraq ev sahibliyi etməkdən böyük məmnunluq duyduğunu bildirib. O, həyatın bütün sahələrində biliyin ön plana çıxdığını vurğulayaraq, müasir dövrdə əksər dövlətlərin cəmiyyətlərini “bilik cəmiyyəti” konsepsiyasının, iqtisadiyyatlarını isə “bilik iqtisadiyyatı” konsepsiyasının tələbləri istiqamətində qurmağa çalışdıqlarını diqqətə çatdırıb. Rektor bildirib ki, universitetlər təkcə iqtisadçı kadr hazırlayan qurumlar deyil, eyni zamanda yeni bilikləri meydana çıxaran fundamental araşdırmaların aparıldığı və cəmiyyətin, xüsusilə də sənaye sektorunun inkişafına xidmət edən texnologiyaların, innovasiyaların həllinin formalaşdırıldığı təhsil-tədqiqat-innovasiya mərkəzləridir. Məhz buna görədir ki, artıq klassik universitet anlayışı ədəbiyyatlarda sahibkar universitet, multiversitet anlayışları ilə əvəz olunmağa başlayıb. Müasir dövrdə universitetlər bilik iqtisadiyyatının formalaşmasında mühüm rol oynamaqla, iqtisadi inkişaf üzərində ciddi pozitiv təsirlər yaradır. Onlar bu funksiyanı əsasən ixtisaslı mütəxəssislərin hazırlanması, yeni biliklərin yaradılması, tətbiqi və ötürülməsi yolu ilə reallaşdırır.

İstanbul Sabahattin Zaim Universitetinin professoru, konfransın baş koordinatoru İbrahim Güran Yumuşak 2002-ci ildən keçirilən Bilik, İqtisadiyyat və Menecment Konfransının türk dünyasının aparıcı universitetləri arasında səmərəli və dayanıqlı elmi əməkdaşlıq və araşdırma platforması olduğunu bildirib. Türkiyənin və digər ölkələrin nüfuzlu universitetlərində təşkil edilən konfransın bu dəfə Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olan UNEC-də keçirilməsinin ənənənin davamı olduğunu diqqətə çatdırıb.

Türkiyə Katılım Bankları Birliyinin baş katibi Osman Akyüz “İslam iqtisadiyyatı, islam bankçılığı”, AMEA-nın müxbir üzvü, akademik Qorxmaz İmanov “Milli, sosial və insan kapitalının qiymətləndirilməsi modelləri”, UNEC-in professoru Əlican Babayev “Sənaye cəmiyyəti konsepsiyasının təkamülü kontekstində iqtisadi nəzəriyyə və siyasi iqtisad”, İstanbul Universitetinin professoru Veysəl Bozkurt “Kapitalizmin dəyişən mədəniyyəti” mövzularında məruzə ediblər.

Sonra “XIII Beynəlxalq Bilik, İqtisadiyyat və Menecment Konfransı”nın təşkilatçılarına göstərdikləri dəstəyə görə sertifikatlar təqdim olunub. Azərbaycanla yanaşı, Türkiyə, İran, ABŞ, Avstraliya, Özbəkistan, Pakistan və digər ölkələrin elm adamlarının qatıldığı konfrans öz işini bölmələrdə davam etdirib.

# ADNSU ilə Çin universitetləri arasında əməkdaşlıq genişlənir

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı mayın 21-23-də Çin Xalq Respublikasında “Yol və qurşaq təşəbbüsü” adı altında universitet rəhbərlərinin II Beynəlxalq Forumunda iştirak edib. M.Babanlı Şanxay Universitetində keçirilən forumda məruzə ilə çıxış edib. Ali məktəblərdə innovativ istedadların inkişafına həsr olunmuş bu yığıncaqda Rusiya, Çin, İran, Belarus, Misir, Çexiya, Pakistan, Türkiyə, Qazaxıstan, Özbəkistan və başqa ölkələrin aparıcı universitet rəhbərləri təmsil olunub. Səfər çərçivəsində ADNSU-nun rektoru Şanxayda fəaliyyət göstərən bir neçə ali məktəblə tanış olub, əməkdaşlıq haqqında müqavilə imzalayıb.

Qeyd edək ki, 1922-ci ildə əsası qoyulan Şanxay Universiteti Çinin ən nüfuzlu ali məktəblərindən biri hesab olunur. Universitetə hər il 2000 əcnəbi vətəndaş qəbul olunur, ali məktəbin 11 fakültəsində 37800 tələbə təhsil alır. Ali məktəbin nəzdində 72 elmi-tədqiqat institutu və Yüksək Texnologiyalar Mərkəzi fəaliyyət göstərir.

24-26 may tarixlərində ADNSU-nun nümayəndə heyəti Çin Xalq Respublikasının Qansu əyalətində yerləşən Lançjou Universitetinə səfər edib. 1909-cu ildə təsis olunan bu ali məktəbin 30000-dən artıq tələbəsi var. Çinin 1500 universiteti arasında ilk 30-luqda yer alan Lançjou Universitetinin prezidenti Wang Chengdir. Rektor M.Babanlının Lançjou Universitetinin prezidenti ilə görüşündə Lançjou şəhərində ADNSU-nun filialının açılması məsələsi də müzakirə olunub.

# SDU-nun 3 tələbəsi beynəlxalq konfransda mükafatlandırılıb

Mayın 24-də Sumqayıt Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş III Tələbə elmi konfransı keçirilib.

Konfransı universitetin elm və innovasiyalar üzrə prorektoru, professor Ramazan Məmmədov açaraq tələbələrin elmi yaradıcılıq və tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinə, gənclərin elmi potensialının üzə çıxarılmasına xidmət edən belə konfransların əhəmiyyətindən, ulu öndər Heydər Əliyevin təhsilin, elmin inkişafına göstərdiyi qayğıdan bəhs edib. Bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Gənclərin yüksək səviyyədə formalaşdırılması cəmiyyətimizin intellektual potensialının gücləndirilməsində xüsusi rol oynayır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elm və təhsil ənənələri hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prorektor tələbələrin elmi potensialının üzə çıxarılması, onların ilkin tədqiqat işləri ilə məşğul olmaları, elmə olan marağının artırılması istiqamətində Tələbə Elmi Cəmiyyətinin önəmli rolunu qeyd edib. Diqqətə çatdırıb ki, TEC-in üzvləri respublika və beynəlxalq səviyyəli konfranslarda fəal iştirak edir, sertifikatlarla təltif olunurlar. Belə ki, aprelin 2-dən 9-dək TEC-in elmi rəhbəri, dosent İslam Paşayevin rəhbərliyi ilə üç tələbə Pskov Dövlət Universitetində keçirilən Beynəlxalq gənclər elmi-praktik konfransda iştirak edərək xüsusi mükafata və sertifikata layiq görülüb. Professor Ramazan Məmmədov TEC-in fəaliyyətini müsbət qiymətləndirərək tələbələrin əksəriyyətinin elmi fəaliyyətə TEC-in xətti ilə qədəm qoyduğunu diqqətə çatdırıb, onlara elmi-tədqiqat işlərində uğurlar arzulayıb.

Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri dosent İslam Paşayev TEC-in əsas fəaliyyət istiqamətləri və bu istiqamətlər üzrə görülən işlər barədə ətraflı məlumat verib.

Sonra tələbələrin mükafatlandırılması mərasimi keçirilib.

Qeyd edək ki, fakültələrin bölmə iclaslarında elmi işindəki aktuallığı, yeniliyi və mövzunun məzmununu auditoriyaya çatdırmaq bacarığı ilə fərqlənən məruzəçi tələbələr universitetin rəhbərliyi tərəfindən diploma layiq görülüblər. Konfransın materialları toplu şəklində çap olunaraq paylanılıb.

Tədbirdə həmçinin Pskov Dövlət Universitetinin təbiət elmləri, psixologiya və tibbi təhsil fakültəsinin dekanı, professor Vladimir Prokofyev həmin universitetdə keçirilən Beynəlxalq konfransda iştirak edən üç tələbəyə sertifikat təqdim edib, bu cür konfransların tələbələri elmi fəaliyyətə cəlb etdiyini və stimullaşdırıcı amilə çevrildiyini vurğulayıb.

## Sinqapurlu mütəxəssis müəllimlər üçün təlim kursu keçir

Təhsil İnstitutunun təşəbbüsü və YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə Sinqapurun Milli Təhsil İnstitutu tərəfindən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda "İbtidai sinif müəllimi" adlı təlim kursu keçirilir.

Təlim kursunun əsas məqsədi ibtidai sinif müəllimlərinə qabaqcıl təhsil sistemi və effektiv sinif idarəetməsi haqqında məlumat vermək, yeni qiymətləndirmə metodları ilə müəllimləri tanış etmək və onların liderlik potensialını inkişaf etdirməkdir.

Təlim kursu Sinqapurun Milli Təhsil İnstitutunun nümayəndəsi, xüsusi dəvət olunmuş Çan Vi Bun tərəfindən keçirilir. Kurs çərçivəsində şagirdlər ilə ünsiyyət bacarıqlarının inkişafı, dərslərin təşkili və digər mövzularda interaktiv sessiyalar da təşkil olunur.

Təlim kursunda iştirak etmək məqsədilə 28 nəfər ibtidai sinif müəllimi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və bu təhsil müəssisəsinin nəzdində Pedaqoji Kollecin əməkdaşları seçilib.

Qeyd edək ki, Sinqapurun Milli Təhsil İnstitutu məktəb rəhbərlərinin və müəllimlərin hazırlığı, ixtisasartırma fəaliyyətinin inkişafı ilə məşğul olan təhsil qurumudur. Təhsildə geniş tədqiqat fəaliyyəti həyata keçirən bu qurum Sinqapurun regional təhsil mərkəzinə çevrilməsində əhəmiyyətli rol oynayıb. Milli Təhsil İnstitutunun fəaliyyətinin əsas nailiyyətlərindən biri Sinqapurun 2015-ci ildə keçirilmiş PİSA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) tədqiqatında dünya üzrə ilk pillədə qərarlaşmasıdır.

## "Business English" fənni çərçivəsində tədbir

Mayın 23-də Azərbaycan Dillər Universitetində (ADU) ali təhsil ocağının filologiya və jurnalistika fakültəsinin dekanı Vüsalə Ağabəylinin təşkilatçılığı ilə İşgüzar İngilis dili (Business English) fənni çərçivəsində tədbir keçirilib.

Öncə tədbir haqqında məlumat verən V.Ağabəyli tədris etdiyi İşgüzar İngilis dili fənninin sillabusunda təqdim olunan mövzularla bağlı İngilis dili və ədəbiyyatı ixtisasında təhsil alan tələbələrin əyləncəli formada səhnəciklərlə çıxış edəcəyini bildirib.

Sonra tələbələrin ifasında telefon danışıqları zamanı tələffüzlə bağlı yaranan anlaşılmazlıqların ortaya çıxardığı məqamları əks etdirən, çoxmədəniyyətliliyi özündə birləşdirən dərs, eyni zamanda səyahət edən zaman pasport yoxlanışında İngilis dilində danışmağa çətinlik çəkən insanlarla bağlı səhnəciklər nümayiş olunub.

Tədbirdə mövzuyla bağlı videoçarx da izlənilib.

Sonda ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev tədbirin keçirilməsini yüksək qiymətləndirib, səhnəciklərdə yer alan mövzuların real həyatdan götürüldüyünü və günümüzlə səsləşdiyini diqqətə çatdırıb. Professor belə tədbirlərin epizodik xarakter daşımayacağına və davamlı olacağına inamını ifadə edib.

## Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırıldı

Mayın 25-də Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə təhsil naziri Mikayıl Cabbarov, millət vəkilləri, bir sıra dövlət və özəl qurumların, qeyri-hökumət təşkilatlarının və təhsil müəssisələrinin rəhbərləri, tanınmış ziyalılar, münsiflər heyətinin sədrləri və üzvləri, olimpiada qalibləri, təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.




Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Təhsil İnstitutunun direktoru Emin Əmrullayev Respublika fənn olimpiadaları qaliblərinin ali məktəblərə qəbul göstəriciləri ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra olimpiada qalibi Eldar Əfəndiyev bu bilik yarışına hazırlaşmasından danışıb.

Mərasimdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov Respublika fənn olimpiadalarının keçirilməsinin istedadlı uşaqların vaxtında müəyyən olunması, onlarla işin düzgün qurulması, ölkənin dayanıqlı inkişafına və işıqlı gələcəyinə xidmət etdiyini vurğulayıb.

Şagirdlərin beynəlxalq olimpiadalardakı uğurlarından söz açan təhsil naziri son 4 il ərzində məktəblilərin 1 qızıl, 11 gümüş, 54 bürünc olmaqla 66 medal qazandıqlarını nəzərə çatdırıb. Nazir istedadlı uşaqların gələcək inkişafına verdiyi töhfələrə və Respublika fənn olimpiadalarının keçirilməsində göstərdiyi dəstəyə görə "Kapital Bank"ın rəhbərliyinə təşəkkür edib.

Tədbirdə Respublika fənn olimpiadalarının keçirilməsi, olimpiada qalibləri haqqında videoçarx nümayiş olunub.

Respublika fənn olimpiadalarının birinci-rayon (şəhər) mərhələsində 30000 nəfərə yaxın şagird iştirak edib. Bu il Naxçıvan Muxtar Respublikasından şagirdlər də daxil olmaqla IX-XI və xüsusi istedada malik aşağı sinif şagirdlərinin iştirak etdiyi olimpiadada 8 fənn üzrə 263 qalib müəyyən edilib. 48 nəfər şagird qızıl, 85 nəfər gümüş, 130 nəfər isə bürünc medala layiq görülüb.

Qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

## "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri"nə həsr edilmiş XII beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim, əməkdaş və tələbə heyəti ilə yanaşı Türkiyə, Özbəkistandan gələn tədqiqatçılar da iştirak edib.

Konfransda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, əməkdar incəsənət xadimi, professor Fərəh Əliyeva çıxış edərək rəhbərlik etdiyi universitetdə davamlı olaraq keçirilən "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" mövzusunda beynəlxalq konfransa marağın artdığını söyləyib.

Sonra konfrans öz işini "Türksoylu xalqların ənənəvi musiqi mədəniyyətində janrlararası əlaqələr", "Bəstəkar yaradıcılığı və ifaçılıq məsələləri", "Türksoylu xalqların bədii mədəniyyəti: ənənə və müasirlik" adlı bölmələrdə davam etdirib. Bölmələrdə "Nizami Gəncəvinin əsərlərində musiqi və rəqs ifaçıları", "Türk dünyasının opera sənətində "Koroğlu" dastanının yeri", "Özbək mədəniyyəti kontekstində kreativ sənaye", "Ornamentallığın bəzi aspektləri", "Amerika və Azərbaycanda müzikl janrının inkişaf tarixində paralellər" və s. mövzularda məruzələr dinlənilib.

Daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə Kahramanmaraş Sütçü İmam Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

# Rusiya ali məktəblərinin Azərbaycana böyük marağı var

### Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasının II Forumu keçirilib



**Oruc MUSTAFAYEV**

Müasir dövrdə ali məktəblər arasında əlaqələrin gücləndirilməsi, birgə elmi-tədqiqatların aparılması, tədris proqramları və materiallarının məzmununun yaxınlaşdırılması mühüm əhəmiyyət daşıyır. Bütün bunlara əlavə olaraq universitetlər arasında təcrübə mübadiləsənin aparılması isə hər bir ali məktəbin inkişafını stimullaşdıran faktorlar kimi çıxış edir.

Elə Rusiyanın Ufa şəhərində keçirilən Azərbaycan və Rusiyanın ali təhsil müəssisələrinin II Forumunun əsasında da bu söylədiklərimiz durur. Forumda Azərbaycanın təhsil nazirinin müavini Mətin Eynullayev, Başqırdıstan Respublikası Baş nazirinin müavini Salavat Saqitov, Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasının həmsədrləri - Ufa Dövlət Neft Texniki Universitetinin rektoru Ramil Baxtizin və Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov, Assosiasiyanın üzvü olan universitetlərin rektorları, Rusiya Təhsil və Elm Nazirliyinin, eləcə də bir çox ali təhsil müəssisələrinin nümayəndələri iştirak edib. Tədbirin açılışında Başqırdıstan Respublikası Baş nazirinin müavini Salavat Saqitov çıxış edərək bildirib ki, "bu cür tədbirlər təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın perspektivlərini inkişaf etdirməyə imkan verir".

### Əməkdaşlıq üçün yaxşı baza

Azərbaycan Respublikası təhsil nazirinin müavini Mətin Eynullayev çıxışında Başqırdıstan Prezidenti Rüstəm Xamitova, Rusiya Federasiyası hökumətinə və Ufa Dövlət Neft Texniki Universitetinə öz minnətdarlığını bildirib. "Rusiya və Azərbaycan təhsil icmaları arasında olan qarşılıqlı əlaqə həmişə güclü olub və assosiasiyanın yaranması bu əməkdaşlığın məntiqi davamı oldu. Son iki il ərzində mütəmadi olaraq mübadilə səfərləri keçirilir. Mən əminəm ki, biz yeni layihələri uğurla həyata keçirəcəyik", - deyə o bildirib. Onun sözlərinə görə, əməkdaşlıq üçün yaxşı baza mövcuddur. "Bu bazanın əsasında Azərbaycanda rus dilinə olan münasibət durur. Azərbaycanda təlimin rus dilində aparıldığı 300 - dən artıq məktəb var. Azərbaycanlılarda rus dilinə böyük maraq tarixən yaranıb. Təbii ki, bizim ali məktəblərimiz bu bazada məhsuldar əməkdaşlıq qurub. Rusiya ali məktəblərinin Azərbaycana böyük marağı var. Bildiyiniz kimi, Azərbaycanda Rusiya ali məktəblərinin iki filialı fəaliyyət göstərir". Təhsil Nazirliyinin rəsmisi 2008-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, 2015-ci ildə isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakıda filiallarının açıldığını bildirərək onların ölkəmizdə ali təhsilin inkişafına öz töhfələrini verdiyini diqqətə çatdırıb. Bundan əlavə, Dağıstanda Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının fəaliyyət göstərdiyini qeyd edib.

### Tədris planlarının birləşdirilməsi...

Forumda belə bir təklif səsləndirilib ki, tədris proqramlarının birləşdirilməsi Azərbaycan və Başqırdıstan universitetlərinin ikili diplomlarının verilməsinə imkan verəcək. Qeyd olunub ki, bu gün əmək bazarı beynəlmiləl xarakter alıb və iki diplomun olması mütəxəssislərin rəqabət qabiliyyətliliyini artırır. Ufa Dövlət Neft Texniki Universitetinin (UDNTU) rektoru, professor Ramil Baxtizinin sözlərinə əsasən, "tələbələrin keçidləri müvafiq kurslar üzrə zaçotları Azərbaycan Dövlət Neft və Sənaye Universitetində və UDNTU -da nəzərə alınıb. İkili diplom vermək üçün indi buna yalnız hüquqi aspekt vermək qalıb. Belə bir model var, o bəyənilib". Ramil Baxtizin qeyd edib ki, ali təhsil sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ümumhumanitar əməkdaşlığın vacib tərkib hissəsi kimi beynəlxalq münasibətlərin yaxşılaşmasına xidmət edir. "Bu cür forumlar birgə fəaliyyətin nəticələrini qiymətləndirməyə və gələcək hədəfləri müəyyən etməyə imkan verir", - deyə rektor vurğulayıb. O, ümid etdiyini bildirib ki, forumun nəticələrinə əsasən assosiasiya öz inkişafında yeni imkanlar əldə edəcək.

Assosiasiyanın Azərbaycan tərəfdən həmsədri, Sumqayıt Dövlət Universitetinin rektoru, professor E.Huseynovun sözlərinə görə, "biz indi bu məsələ üzərində razılaşırıq ki, universitetlərin professorları həm doktorantların, həm də magistrlərin dissertasiyalarına ikili rəhbərliyi həyata keçirsinlər. Yəni, bu da ikili diplomların verilməsi üçün zəruri addımlardan biridir". Professor E.Hüseynov iştirakçıları ümumi məqsədlər naminə əməkdaşlıq təcrübəsini inkişaf etdirməyə çağıraraq assosiasiyanın fəaliyyətdə olan və işlək bir qurum olduğunu bildirib. Onun sözlərinə görə, Rusiya və Azərbaycan ali məktəblərinin tələbələrinə iki diplomun verilməsi qərara alınıb. Diplomların təkcə Azərbaycan və Rusiyada deyil, eləcə də digər ölkələrdə tanınması nəzərdə tutulub. Artıq ADNSU və UDNTU bu məsələnin həllinə yaxındırlar.

### Assosiasiyada ali məktəblərin sayı artır

Forumda ali məktəblərarası qarşılıqlı əlaqələrin perspektivləri, sənayenin müxtəlif sahələri üçün kadrların hazırlanması sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Hər iki ölkədə bakalavriat və magistratura təhsil səviyyələri üzrə dual sistem mövcuddur. Ali məktəblər mütəxəssis hazırlığı üzrə eyni vaxtda iki diplom verə, həmçinin məzuna diplom işlərini nəzarət edən iki rəhbər müəyyən edə bilər. Ali məktəblərdə vahid proqram əsasında təhsil, müəllim və tələbə mübadiləsi kimi məsələlərin müzakirə olunduğu forumda assosiasiya üzvləri tədris planlarını korrektə ediblər, ikili diplomlar proqramları üzrə tədrisin qəbulu və aparılması sənədlərini işləyib hazırlayıblar. Azərbaycandan 16, Rusiyadan 34 ali təhsil müəssisəsinin təmsil olunduğu Forumda Rusiya Kadr Hazırlığı üzrə Milli Fondunun icraçı direktorunun müavini Marina Barışnikovanın, Cənub Universitetinin rektoru İmran Əkbərovun, M.Akmulla adına Başqırd Dövlət Pedaqoji Universitetinin rektoru Rail Əsədullinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlının və digər nümayəndələrin hesabatları dinlənilib.

Forumun "Universitet - regional iqtisadiyyatın hərəkətverici qüvvəsidir: Rusiya və Azərbaycan təcrübəsi" adlı plenar iclasında regionların inkişafında universitetlərin rolu, beynəlxalq əməkdaşlıq, həmçinin universitetlərin beynəlxalq və milli reytinqlərdə iştirakı, ali məktəblərin sosial məsuliyyəti kimi məsələlər müzakirə olunub. Forum çərçivəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası ali təhsil müəssisələri arasında əməkdaşlıq müqavilələri imzalanıb. Nümayəndə heyəti Başqırdıstan Respublikasının ali təhsil müəssisələrinin imkanları ilə tanış olub. Qeyd edək ki, Bakı Mühəndislik Universiteti və Rusiyanın bir neçə ali məktəbi Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasının yeni üzvləri seçiliblər. Rusiya Federasiyasının təhsil və elm naziri Olqa Vasilyeva forum iştirakçılarına ünvanladığı təbrik məktubunda qeyd edib ki, assosiasiyada ali məktəblərin sayının artması iki ölkənin universitetlərinin arasında məhsuldar əlaqələrin inkişaf etdirilməsinin əyani sübutudur.

Qeyd edək ki, forum çərçivəsində M.Eynullayev Başqırdıstan Prezidenti Rüstəm Xamitovla da görüşüb. Başqırdıstan Respublikası Baş nazirinin müavini Salavat Saqitov və təhsil naziri Gulnaz Şafikovanın iştirak etdiyi görüşdə ali məktəblər arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub. "Rusiya və Azərbaycan təhsil qurumları arasında qarşılıqlı əlaqə həmişə sıx olub və Assosiasiyanın yaradılması bu əməkdaşlığın məntiqi davamı olub. Assosiasiyanın fəaliyyəti ali məktəblər arasında əlaqələrin inkişaf etdirilməsinə yönəlib. Biz tələbə, müəllim mübadiləsi, birgə konfransların keçirilməsi əsasında ali məktəb mühitində qarşılıqlı əlaqə qurmuşuq. Bu əlaqələrin daha da dərinləşməsini istərdik", - deyə M.Eynullayev Başqırdıstan rəhbəri ilə görüşdə bildirib.

Xatırladaq ki, Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyası 2015-ci ildə Bakıda yaranıb. Onun tərkibinə Rusiyadan 34, Azərbaycandan isə 16 ali məktəb daxildir.



# Məktəblər hazırkı formada həyata davamlı deyillər

## Ekspert Ken Robinson dünyanı sənaye inqilabının təhsil sistemindən imtina etməyə səsləyir

**Rüstəm QARAXANLI**

Ken Robinson insanın yaradıcılıq imkanlarının inkişafı və təhsil problemləri sahəsində dünyanın aparıcı mütəxəssislərindən biridir. O, insan resurslarından necə istifadə olunması sahəsində bir sıra iri şirkətlər və dövlətlərə məsləhətlər verir. Robinsonun fikirlərinin ana xəttini bu tezis təşkil edir: hər bir insan hansısa sahədə istedad sahibidir, ancaq müasir təhsil sistemi və ümumiyyətlə, cəmiyyətdəki münasibətlər bu istedadın ortaya çıxmasına maneə yaradır.

Kitab və çıxışlarının böyük bir qismini təhsil problemlərinə həsr edən Robinsona görə, bütün ölkələrdə eynilik təşkil edən təhsil sistemləri dəyişikliyə uğramalıdır, çünki təhsilin əsas məqsədi uşaqlarda istedadı boğmaq deyil, əksinə, inkişaf etdirməkdir. "Bizim təhsilimiz şüurumuzu, biz isə Yer kürəsini talan edirik" - Robinsonun yazdığı bestsellerlərin əsas leytmotivi budur.

### Məktəbləri prinsipial olaraq dəyişmək lazımdır

Cillian Linni oxumaq maraqlandırmırdı, həm də çox hərəkətli uşaq idi. Müəllimləri həmişə şikayət edirdilər: bu qız bir yerdə durmur, hərəkətdədir, oturmaqla arası yoxdur, bundan oxuyan olmaz, aparın psixoloqa göstərin. Anası belə də edir, Cillianı həkimə aparır. Həkim iki saata yaxın qızı müşahidə edir, anasını isə dinləyir. Sonra deyir: "Qızım, mən indi ananla dəhlizə çıxım, sonra qayıdıb səninlə vacib bir söhbət edəcəm". Həkim bu sözləri deyir və otaqdan çıxarkən ehtiyatla radionu işə salır. Dəhlizə çıxan kimi uşağın anasına deyir: "Gəlin baxaq görək sizin qızınız nə edəcək". Həqiqətən də onlar otaqdan qeyb olan kimi Cillian radiodan səslənən şən musiqi sədaları altında hoppanıb düşməyə, oynamağa başlayır. Həkim valideynə: "Sizin qızınız xəstə filan deyil, o balerinadır!"- deyir.

Sonra nələrin baş verdiyini yəgin bildiniz: Cillian dövrümüzün ən məşhur xoreoqraflarından birinə çevrilir. Balet, Kral orkestri və ser Endryu Uebberlə birlikdə ən populyar myüzikllərdən olan "Pişiklər" və "Opera kabusu"na müəlliflik. O, dövrünün ən varlı qadınlarından birinə çevrilir və minlərlə insana xoşbəxt anlar bəxş edir. "Deməli, bəziləri düşünmək üçün hərəkət etməlidirlər" - deyə Robinson yazır və sual verir: "Uşaq başqa həkimin əlinə düşsəydi, həkim isə ona sakitləşdirici dərmanlar yazsa idi, nə olardı?".

Mett Qrouninq əksinə, məktəbdə heç də pis oxumurdu, ancaq müəllimlər və valideynlərinin gözləntilərinin əksinə olaraq rəssamlığı seçdi və ... Və dünyaca məşhur "Simpsonlar"ın müəllifi oldu.

Pol Makkartninin musiqi dərsləri ilə arası yox idi, onu hətta Liverpul kafedral xoruna belə götürməmişdilər - səsi yoxdur. Ancaq vaxt gəldi, elə həmin xor Polun iki klassik kompozisiyasını ifa etməli oldu. İndinin özündə də Liverpul kafedral xoru Makkartninin sponsorluğu ilə fəaliyyət göstərir.

Robinson TED-konfranslardan birindəki çıxışında danışır: "Bir dəfə kitab imzalama mərasimində mənə bir nəfər yaxınlaşdı, 30 yaşı olardı. Soruşdum hansı peşənin sahibisiniz? Dedi yanğınsöndürən. Sizə gülməli gələ bilər, ancaq məktəbdə hansı oğlan uşağından soruşsan, deyəcək yanğınsöndürən olmaq istəyirəm. Düzdür, zaman keçdikcə onlar başqa sahələrə üz tuturlar, ancaq indi haqqında danışdığım cavan oğlan sonadək inad edib bu peşəyə yiyələnmişdi. O danışırdı ki, müəllimlərindən birinin sərt tənqidinə məruz qalırdı: axı bu nə peşədir seçmisən? Get ciddi işlə məşğul ol! Amma bir müddət bundan əvvəl həmin o müəllim həyat yoldaşı ilə birlikdə avtomobil qəzasına düşdü, maşında yanğın baş verdi və mən onların hər ikisini xilas etdim. Yəqin indi o müəllim mənim haqqımda fikirlərini dəyişib".

Məşhur simaların həyat yolu barədə topladığı əhvalatlar Robinsonu müasir təhsil sisteminin analizinə məcbur edib və onun ən sərt tənqidçilərindən birinə çevirib. Ken əmindir: kütləvi məktəblər özlərinin hazırkı formasında həyata davamlı deyillər; onları prinsipial olaraq dəyişmək lazımdır - nə qədər tez olsa, o qədər yaxşıdır!

### Köhnə üsullarla gələcəyə nail olmaq mümkün deyil

"Müasir təhsil sistemi sənaye inqilabının iqtisadi şərtləri ilə maarifçilik dövrünün mənəvi ehtiyaclarından doğub. Dövlətlərin ictimai quruluşu və kütləvi təhsilin yaranması tarixlərinə baxmaq kifayətdir. Hətta istisna etmirəm ki, müasir sinif-məktəbin yaradıcısı olan protestant Yan Amos Komenskinin əsasını qoyduğu ilk məktəblər də sənaye inqilabı və maarifçilik hərəkatının meydana gəlməsinə səbəb olmuşdular. Ancaq bu zaman artıq çoxdan keçib və geri qayıdası deyil, o struktur artıq tükənib" - deyə Robinson mühazirələrindən birində deyir: "Qabaqlar bizə deyirdilər ki, məktəbdə yaxşı oxusan, ali məktəbə girəcəksən, sonra diplom alacaqsan və işə yiyələnəcəksən. Bizim uşaqlar isə buna inanmırlar və düz də edirlər. Əlbəttə, diplomun olması olmamasından yaxşıdır, ancaq təminat deyil. Söhbət mühazirə və dərslərin keyfiyyətindən getmir. Uşaqlara nə qədər yaxşı təhsil versələr də, öyrətdikləri artıq köhnəlib. Uşaqları gələcəyə köhnə metodlarla hazırlayırlar. Bu isə onları təhsildən uzaqlaşdırır, milyonlarla uşaq məktəbə getməyi mənasız sayır".

Robinson hesab edir ki, hazırkı sistemin əsasında insanların intellektuallara və qeyri-intellektuallara, ağıllılara və ağılsızlara bölünməsi durur. Və nəticədə bir çox dahi istedada malik olduğundan bixəbərdir, onun bacarıqları birtərəfli qiymətləndirməyə məruz qalır: "Mən hesab edirəm ki, bu model minlərlə taleləri sındırıb. Düzdür, bəzi insanlar üçün yararlıdır, ancaq çoxları üçün yox".

"Təhsil sistemi sənayenin maraqlarına xidmət edir və onun sxemi ilə qurulub. Fikir verin: məktəblər zavodları xatırladır, zənglər, korpuslar, ayrı-ayrı peşələr üzrə ixtisaslaşmalar. Uşaqları indiyədək partiyalarla öyrədirlər. Nəyə görə uşağın xarakteristikasında onun nə vaxt məktəbi bitirdiyi ilin əhəmiyyəti olmalıdır? Bəzi uşaqlar hansısa dərsi yaxşı əxz edir, digərləri isə əksinə. Biri sutkanın bir vaxtında yaxşı oxuyur, digəri isə başqa vaxtda. Bəziləri qrup halında oxusalar yaxşı olar, digərləri fərdi qaydada" - Robinsonun tez-tez təkrarladığı fikirlərdən biri də budur.

Uşaq bağçalarından birində aparılan araşdırmanın nəticələrinə görə, körpələrin 98%-i qeyri-standart formada düşünməyi, orijinal fikirlər yürütməyi bacarır, belə demək mümkündürsə, onlar divergent düşüncənin dahiləridirlər. 5-ci sinifdən sonra bu göstərici 32%-ə enir: "Problem müəllimlərdə deyil, sadəcə, sistemin mayası belə yoğrulub. İnsan şüuruna münasibəti dəyişmək lazımdır, uşaqları istedadlı və istedadsızlara, bilikləri isə abstrakt, nəzəri və peşəkara ayırmağı bitirin! İnsanların istedadlarını ayrılıqda qiymətləndirərkən, şagirdləri bölərkən biz onlarla təbii tədris mühiti arasında bir sədd çəkmiş oluruq. Təhsil mədəniyyətini, tədris müəssisələrinin strukturunu və təhsil alanlara münasibəti dəyişməliyik".

Robinsonun fikrincə, indi məqsəd tək təhsilə sənaye yanaşmasından imtina etmək olmamalıdır. İnsan birliklərinə mexanizm kimi baxmağa da son qoymaq lazımdır. İnsan toplumu həyat enerjisi ilə dolu orqanizmə bənzəyir. Bu enerjini boğmağa davam edək, yoxsa... Pikasso hesab edirdi ki, hər bir uşaq rəssam doğulur, problem ondadır ki, böyüyənədək o, rəssam olaraq qala biləcək, ya yox.

"Mən inanıram ki, gələcəyimiz insan ekologiyasına dair yeni konsepsiyanın ortaya qoyulmasından asılıdır. Elə bir sistem ki, biz insan istedadının zənginliyini dərk etmiş olaq. Mövcud təhsil sistemi bizim şüurumuzu, biz isə Yer kürəsinin qatlarını boşaldır, talan edirik. Bu yanaşma gələcəyi olmayan yanaşmadır" - deyə ekspert hesab edir.

### Ken Robinson nə deyir?

- **Dünyada elə bir təhsil sistemi yoxdur ki, müəllimdən yaxşı olsun. Müəllimsiz məktəbin inkişafı və çiçəklənməsi mümkün deyil.**
- **Müasir təhsildə yaradıcılıq savadla eyni əhəmiyyətə malikdir. Ona görə də biz ona lazımi qiyməti verməliyik.**
- **Hər bir uşaq məktəbə parlaq təxəyyül, yaradıcı şüur və istənilən riskə getməyə hazır olması ilə başlayır.**
- **Əgər siz səhv etməyə hazır deyilsinizsə, yaradıcılıqla heç vaxt dostluq edə bilməyəcəksiniz.**
- **Siz elmdə, fəlsəfədə, riyaziyyatda, layihələndirmədə olduğu kimi, rəqs, rəsm, musiqidə də kreativ ola bilərsiniz.**

### Ken Robinson kimdir?

O, 1950-ci ildə Liverpulda anadan olub. Ailədəki 7 uşaqdan ilk orta təhsili məhz o alıb. Atası futbolçu olub. Britaniyanın rok və futbol mərkəzlərindən birinin gənc sakini kimi onun da futbolçu olacağı ailəsinin arzusu idi. Ancaq Kenin uşaqlıqda keçirdiyi xəstəlik bu arzunun üzərindən xətt çəkdi və o, təhsilə yönəlib.

1968-ci ildə Yorkşirdə Bretton Hall kollecinə daxil olub, ingilis dili və dramaturgiyanı öyrənib. 1981-ci ildə dramaturgiya və teatr yaradıcılığı üzrə doktorluq dərəcəsi alıb. 1985-89-cu illərdə məktəblərdə incəsənətin inkişafı üzrə layihənin direktoru olub. Uels və İngiltərə məktəblərində humanitar elmlər və yaradıcılığın tədrisinin gücləndirilməsinə dair təşəbbüslə çıxış edib, layihəyə 2000 mütəxəssis qoşulub, nəticədə Milli Tədris Planına 300-dən çox təklif işlənib verilib. 12 il Uorik Universitetinin mədəniyyət və təhsil professoru olub, Honq-Konq Akademiyasının səhnə incəsənəti üzrə məsləhətçisi işləyib. 2005-ci ildə dünyanın ən vacib problemlərinin həlli yollarını müzakirə edən "Principial Voices" layihəsinə seçilib. Avropa, Asiya və ABŞ-da iri korporasiyalara, habelə hökumətlərə məsləhətlər verib. Şimali İrlandiyada sülh prosesi çərçivəsində iqtisadi inkişaf və yaradıcılıq sahələrinə dair ekspert qrupunun üzvü olub. Robinson Sinqapur hökumətinə Cənub-Şərqi Asiyanın yaradıcılıq və mədəniyyət mərkəzi olması üçün strategiyanın hazırlanmasında məsləhət verən 4 nəfərdən biridir.

Onun "Talks Education" - TED intellektual-konfranslarda etdiyi 4 çıxışına 150 ölkədə ümumən 300 milyondan çox insan baxıb. 2011-ci ildə "Fast Company" jurnalı Robinsonu dünyanın "50 aparıcı biznes-lideri" siyahısına salıb. Bir neçə kitab-bestsellerin müəllifidir.

### Gələcək yaradıcılıqdadır

Rəsm dərsində müəllim uşağa yaxınlaşır: "Qızım, nə çəkirsən?" "Allahı çəkirəm" - deyə uşaq cavab verir. "Axı heç kim bilmir Allah necə olur!" - deyə müəllim təəccüblənir. Uşağın cavabı çox maraqlıdır: "10 dəqiqədən sona biləcəklər!".

Ken bu misalı təkrarlamağı çox sevir. O, bu qənaətində əmindir ki, hər bir uşaq bir dahidir. Sadəcə, onun istedadı boğulmamalı, əksinə, inkişaf etdirilməlidir. Robinson elə bir təhsil sisteminin yaranmasını istəyir ki, uşaqlarda yaradıcılıq - kreativliyi inkişaf etdirsin: "Siz təsəvvür edin, 3 yaşlı balaca uşaq bağçasına imtahanla götürülür. Bu necə ola bilər? 3 yaşlı uşaq komissiya qarşısına çıxıb. Sual verirlər, cavab verə bilmir. Komissiya üzvləri əsəbləşirlər: sən 36 aydır nə işlə məşğul olmusan? Yaxşı, bu 36 ayın 6 ayını çıxdıq, sənin ana südü əmməyinə, bəs sonra? Sən avarasan ki!". Əlbəttə, bu bir zarafatdır və qeyri-ciddi səslənir. Ancaq Robinsona görə, sistem uşaqlarda qorxu və tələblə kreativliyi öldürür, halbuki yaradıcılıq, təxəyyül iqtisadi tələblərdən doğan texniki və təbiət elmlərindən heç də az əhəmiyyətli deyil: "Əvvəl uşaqlar səhv etməkdən qorxmurlar. Yox, mən demək istəmirəm ki, daim səhv etmək kreativ olmaqdır. Mən sadəcə əminəm ki, insan səhv etməyə hazır olmalıdır, səhv etmək olar və lazımdır. Bunsuz siz nəyisə yeni və fərqli yarada bilməzsiniz. Uşaqlar böyüdükcə divergentliklərini itirirlər, çünki müəllimlər onlara səhv etmək qorxusunu təlqin edirlər".

### Müəllim məktəbdən önəmlidir

Robinson hesab edir ki, dünyanın istənilən yerində müəllim məktəb və ümumən təhsil sistemindən önəmlidir, çünki məktəbin müəllimsiz uğuru mümkün deyil. Ekspertə görə, müəllim yaradıcı peşədir və o, sadəcə olaraq informasiya ötürücüsü kimi qəbul edilməməlidir. Müəllim həm də rəhbərdir - həvəsləndirir, maraq oyadır, yönəldir. Nəticədə təhsil tədrislə yekunlaşır. Tədris yoxdursa, deməli, təhsil də olmayıb. İnsanlar saatlarla təhsili müzakirə edə bilərlər, ancaq ortada tədris yoxdursa, nə mənası var? Təhsilin əsas məqsədi öyrətməkdir. Əgər müəllim hansısa sinifdə oturub dərs keçir, ancaq öyrətmirsə, bu artıq tədris deyil, çünki təhsilin son məqsədi öyrətməkdir.

Robinsonun fikrincə, təhsil sisteminin əsas problemi müəllim peşəsinin deqradasiyaya uğramasıdır. Bunu isə o, sistemin öyrətməyə deyil, nəzarətə daha çox yer verməsi ilə əlaqələndirir. "Təhsilin əsas vəzifəsi yaradıcılıq imkan və istedadlarını ortaya çıxarmaqdır. Bunun əvəzində isə standartlaşma mədəniyyəti hökm sürür", - deyən Robinson Finlandiya təhsil sistemini çox bəyəndiyini bildirir. Onun fikrincə, bu sistemin uğuru, ilk siniflərdə humanitar elmlər, incəsənət, yaradıcılığa böyük önəm verməsi, uşaqlar üzərində total nəzarətin olmaması və müəllim amilinin böyük nüfuza malik olması ilə bağlıdır. Bunun nəticəsidir ki, bu ölkədə təhsili heç kim atmır. Kimin çətinliyi var, nəzarət və imtahanla deyil, köməklə aradan qaldırırlar. "Təhsil mexaniki proses deyil, insani prosesdir" - deyə Robinson vurğulayır.

# Rus dili və ədəbiyyatının tədrisinin aktual problemləri müzakirə olunub

**Şakir CƏFƏROV**

BSU-da Bakı Slavyan Universiteti və Beynəlxalq Rus Dili və Ədəbiyyatı Müəllimlər Assosiasiyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda rus dili və ədəbiyyatının öyrənilməsi və tədrisinin aktual problemləri: orta və ali məktəblər üçün dərslik komplekslərinin hazırlanması təcrübəsi, problemləri və perspektivləri" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Öncə qonaqlar universitetin foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.

Tədbiri giriş sözü ilə açan BSU-nun prorektoru, professor Telman Cəfərov qonaqları tədbir iştirakçılarına təqdim edib. Sonra konfransa rus dili və ədəbiyyatının öyrənilməsi və ən aktual problemləri ilə bağlı 88 materialın daxil olduğu qeyd edilib.

Tədbirdə BSU-nun rektoru, professor Nurlana Əliyeva Rusiya-Azərbaycan münasibətlərinə dair geniş məruzə ilə çıxış edib. N.Əliyeva Rusiya Federasiyası və Azərbaycan Respublikası arasındakı qonşuluq münasibətlərinin dərin köklərə malik olduğunu vurğulayıb. Rektor ölkə başçısı İlham Əliyevin ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirdiyini, Rusiya ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini qeyd edib, rus dilinin öyrənilməsi və tədrisi üçün dövlət səviyyəsində hər cür şəraitin yaradıldığını bildirib.

Plenar iclasda Beynəlxalq Rus Dili və Ədəbiyyatı Müəllimlər Assosiasiyasının prezidenti, Rusiya Təhsil Akademiyasının prezidenti, akademik L.A.Verbitskaya elmi məruzə ilə çıxış edib. O, Bakı Slavyan Universiteti ilə dərin əlaqələrinin olduğunu, lakin budəfəki gəlişində burada bir sıra dəyişikliklərin şahidi olduğuna diqqət çəkib. Konfransın əhəmiyyətini xüsusi vurğulayan L.A.Verbitskaya bu tədbirdən sonra rus dilini öyrənənlərin sayının artacağına inandığını vurğulayıb.

A.S. Puşkin adına Moskva Dövlət Rus Dili İnstitutunun professoru, "Rus dili xaricdə" jurnalının redaktoru İ.A.Orexova öz çıxışında adıçəkilən nüfuzlu jurnalın qapısının azərbaycanlı alimlərin üzünə açıq və əməkdaşlıq etməyə hazır olduğunu bildirib.

Rus İcmasının rəhbəri, Milli Məclisin deputatı M.Zabelin Azərbaycanda 345 məktəbdə rus dilinin öyrənildiyini qeyd edib. O, əlavə edib ki, burada rus dili ilə bağlı heç bir problem yaşanmır.

BSU-nun tədris işləri üzrə prorektoru, layihənin koordinatoru professor T.Cəfərov konfransın bölmələrdəki işi barədə məlumat verib, iştirakçıları orta və ali məktəblər üçün "Rus dili" və "Literatura" dərsliklərinin müzakirəsinə dəvət edib.

Ertəsi gün konfrans bölmə iclaslarında öz işini davam etdirməklə yekunlaşıb.

# ADU Xarici Dillər Universitetlərinin Qlobal Alyansına üzv seçilib

18-19 may 2017-ci il tarixlərində Pekində Xarici Dillər Universitetlərinin I Qlobal Forumu keçirilib. Forumda Xarici Dillər Universitetlərinin Qlobal Alyansı təsis edilib. Dünyanın 16 ölkəsindən 31 universitetin qatıldığı təsis iclasında aparılan birgə tədqiqatların nəticələri təhlil olunmaqla yeni təhsil modellərinin yaradılacağı və alyansın fəaliyyəti nəticəsində beynəlxalq səviyyədə xarici dillər universitetləri arasında əməkdaşlıq və təcrübə mübadiləsinin inkişaf edəcəyi vurğulanıb.

İclasda Azərbaycan Dillər Universitetini təmsil edən professor Əfqan Abdullayev ölkəmizdə ali təhsilin inkişafına dair dövlət strategiyası haqqında ətraflı məlumat verib, ali təhsil proqramlarına ən müasir beynəlxalq təcrübə tətbiq olunması hesabına onların daim inkişaf etdirildiyini sözlərinə əlavə edib. O, iclasın işini yüksək qiymətləndirərək, Azərbaycanın belə beynəlxalq alyanslarda fəal iştirakının ölkəmizin ali təhsil ocaqlarının beynəlxalq əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

"Dil, sivilizasiya və qlobal idarəetmə" mövzusuna həsr olunan forum çərçivəsində ADU Alyansa üzv seçilib və professor Ə.Abdullayev bununla bağlı müvafiq sənədə imza atıb.

Qeyd edək ki, Alyansın yaradılmasında əsas məqsəd beynəlxalq sahədə analitik mübadilə və əməkdaşlıq müqavilələrinin daha da genişləndirilməsi, universitetlər arasında tələbə-müəllim mübadiləsi, birgə elmi tədqiqat işlərinin aparılması və çoxtərəfli akademik nəşrlərin həyata keçirilməsidir.

# Danışıq klubları özünü doğruldur

**Hər hansı xarici dili öyrənmək üçün qrammatikanı yaxşı bilmək, standart mətnləri tərcümə etmək, lüğət əzbərləmək kifayət etmir, gərək dil mühiti olsun, şifahi nitq vərdişlərinə yiyələnə biləsən. Bu sadə həqiqəti, demək olar ki, bütün dil öyrədənlər və öyrənənlər bilir. Lakin hər yerdə lazımi dil mühiti yaratmaq, öyrənənlərə danışıq dilini mənimsətmək bəzən mümkün olmur. Məhz bunu nəzərə alaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsi 2016-2017-ci dərs ilinin ikinci yarımilindən “Ümumi təhsil məktəblərində ingilis dilində Danışıq klublarının yaradılması” layihəsinə start verib. Məqsəd müxtəlif yaş qruplarından olan şagirdlərin məktəbdə əldə etdikləri xarici dil biliklərini praktiki danışıq məşğələləri vasitəsilə daha da möhkəmləndirmək, məktəblilərin ingilis dilində fikirlərini düzgün və səlis ifadə etməsinə dəstək vermək, ünsiyyət vərdişlərini təkmilləşdirmək və xarici dildə ünsiyyət komplekslərini aradan qaldırmaqdır.**

## Gələcəkdə bütün məktəblərin əhatə olunması nəzərdə tutulur

**Yusif ƏLİYEV**

Qeyd edək ki, pilot layihə başa çatmaqda olan dərs ilində fəaliyyətini “Təhsili dəyərə çevirək” devizi altında reallaşdıran Bakı Şəhəri üzrə Təhsil İdarəsinin bu məqsədlə həyata keçirdiyi 25 yeni layihədən biridir.

Yeni layihə təhsil ocaqlarında böyük maraqla qarşılanıb. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşı, layihənin koordinatoru Səkinə Ağalarova deyir ki, məktəblərdə layihəyə maraq həddindən artıqdır. Görünür, elə buna görədir ki, ilk mərhələdə 60 məktəbdə icrası nəzərdə tutulan layihə hazırda 66 məktəbdə həyata keçirilir və qarşısında duran missiyanı uğurla yerinə yetirir. Klublara yazılan şagirdlərin dəqiq sayı bilinməsə də, S.Ağalarovanın bildirdiyinə görə, müəllim və texniki baza, fiziki resurslar nəzərə alınaraq maksimum şagirdin qeydiyyatı qəbul edilib. Klublarda məşğələləri pilot məktəblərdə ingilis dili fənnini tədris edən bütün müəllimlər növbə ilə aparırlar. Klubun metodiki proqramını onu aparan müəllimlər özləri yaradırlar. Məzmunda ənənəvi metodikadan fərqli öyrədən, eyni zamanda əyləndirən, sosiallaşmaya və əməkdaşlığa kömək edən interaktiv təlim metodları, oyunlar, diskussiyalar, debatlar, səhnəciklər, müxtəlif qrup işləri, müstəqil tədqiqat tapşırıqları əsas yer tutur.

Danışıq klubları I-XI sinif şagirdlərini əhatə edir. Ona 3 sinif blokundan - ibtidai, orta (V-VIII siniflər) və yuxarı (IX-XI siniflər) şagirdlər müraciət edir. Müxtəlif sinif blokları üzrə eyni məktəbin ingilis dili müəllimləri növbəlilik cədvəli yaradıb. Hər həftə biri klub məşğələsini aparır. Fərqli müəllimlərin məşğələni aparması şagirdlərin müxtəlif müəllimlərin fərqli metodlarına öyrəşməsinə şərait yaradır. Dərslər tədris prosesinə mane olmamaqla dərsdənkənar fəaliyyət məşğələsi kimi həftədə bir dəfə keçilir.

I-XI sinif şagirdləri ictimai əsaslarla fəaliyyət göstərən klub məşğələlərinə könüllü surətdə qeydiyyatdan keçir. Hər klub müəllimi özünə məxsus sadə dildə olan ərizə forması hazırlayıb. Ərizə məlumatlarına əsasən ingilis dili müəllimi şagirdləri müvafiq dil səviyyə qruplarına bölür. Klub dərsləri pilot məktəblərin hər birində müvafiq dil kabinetlərində aparılır.

Klubların səmərəli fəaliyyəti və ümumi təhsil məktəblərinə lazımi dəstək göstərilməsi üçün paytaxtın 12 inzibati rayonu üzrə pilot məktəblərinin ingilis dili müəllimləri müvafiq təlimlərə cəlb olunublar. Təlim zamanı danışıq klublarının təsis olunması, klub proqramının hazırlanması, yaş qruplarına uyğun fəaliyyətlərin təşkili, şagirdlərin kluba cəlb edilməsi metodları və digər məlumatlar təlimçi müəllimlərin diqqətinə çatdırılıb. Bu sahədə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi ətrafında fikir mübadiləsi aparılıb. İngilis dili müəllimlərinin təklifləri dinlənilib, müzakirə olunub.

Qeyd edək ki, təlim keçən müəllimlərə sertifikatlar verilib.

Əldə olunmuş təcrübə müsbətdir. Ona görə də Bakı Şəhəri üzrə Təhsil İdarəsində Danışıq klublarının yaxın gələcəkdə bütün məktəblərdə yaradılması üzərində düşünürlər.

# Valideynin uşaq kaprizi...



**Jalə MÜTƏLLİMOVA**

İki situasiya təsəvvür edin:

- Yuxarı sinifdəki rəfiqələri buraxılış imtahanında iki qiyməti almasın deyə, itirdikləri dərs kitabının əvəzində onlara öz kitabını verən məktəbli qız düşünün. Öz müəlliminə kitabını itirdiyini deyir, yəni yalan danışır, üstəlik, dərslərə hazırlaşa bilmədiyi üçün bir neçə dəfə “iki” qiymət alır. Dərsə hazırlığı ilə xüsusi fərqlənən şagirdinin durumu müəllimi qane eləmir. Cəza kimi onun rüblük qiymətini heç bir güzəşt tətbiq etmədən “iki” çıxarır. İki alan məktəbli qız evə gəlir, müəllimi günahkar çıxarır və qiymət cədvəlindəki “iki”ni valideyninə göstərir. Amma kitab barədə nəsə demir. Valideyn təbii olaraq böyük nüfuz sahibi olan müəllimin davranışını anlamır. Vəziyyətə əsəbləşsə də, müəllimi, sadə dillə desək, uşağın ayağına vermir.

Məktəbə gəlir. Məlum olur ki, birincisi, övladı kitabını itirməyib, başqasına verib. İkincisi, bunu evdən də, müəllimdən də gizlədib. Üçüncüsü, müəllimi qərəzli kimi təqdim edib, valideyninə iki yalan danışıb. Biri müəllimin qərəzli olması, o biri kitabı itirməsi haqda olandır. Beləcə, valideyn müəllimin haqlı olduğunu anlayır, üzr istəyir və bütün lazımi cəzalara hazır olduğunu deyib gedir.

Bu olay haradasa 80-ci illərin sonunda baş verib.

**Müəllim hər gün sizin qədər uşağınızla eyni saat həcmində vaxt keçirən insandır. Müəllim sizin kimliyinizi uşağınıza izah edəndir. Müəllim o adamdır ki, sizin heç zaman öyrədə bilmədiyiniz şeyləri öyrətmək istedadı var.**

***

İkinci olay yeni dövrün hadisəsidir. Təxminən oxşar situasiyadır. Amma bu dəfə uşaq dost xatirinə fədakarlıq etməyib. Kitabını zibil qutusuna tullayıb, oxumaq istəmədiyi üçün. Evdə “müəllim məktəbdə məni qaralayıb”, məktəbdə isə “valideynim kitabı almır” deyib haray salıb. Bir də müasirliyi nəzərə alsaq, indi məktəblərin çoxunda müşahidə kameralarının qeydləri var. O qeydlərdə uşağın davranışı diqqət çəkdiyi üçün araşdırılır. Valideynlərə durum bildirilir. Valideyn məktəbə gələndə isə verdiyi reaksiya:

- Nə böyük hadisə olub ki, məni bura çağırmısınız? Uşaqdır da, olub. Gör hansı həddə gətirilib ki, fəndən iyrənib uşaq? Kimsiniz ki, bunu uşağa edirsiniz? Görün mən sizin başınıza nə oyun açıram? Nazirliyə gedəcəm, baş idarəyə sizi şikayət edəcəm. Görün sizi polisdə necə süründürürəm! Müəllim kimdir ki, uşağa söz deyir?!..

O deyib, cavab və əsaslandırma gözləmədən getdi. Amma biz elə bu sonuncu sualdan başlayaq. Müəllim kimdir?.. Müəllim hər gün sizin qədər uşağınızla eyni saat həcmində vaxt keçirən insandır. Müəllim sizin kimliyinizi uşağınıza izah edəndir. Müəllim o adamdır ki, sizin heç zaman öyrədə bilmədiyiniz şeyləri öyrətmək istedadı var. Həyatı, gələcəyi, özünü izah edir uşağınıza. Müəllim sizə hörməti, sayğını, sevgini öyrədəndir. Müəllim pislə yaxşının fərqini seçmək bacarığını aşılayandır. Bir sözlə, müəllim İNSANı yetişdirəndir.

Hə, təbii ki, bu, anlayıb qəbul edən uşaqlar və valideynlər üçün keçərli əsaslardır. O kəslər ki, anlamaz, məhz yuxarıdakı sualları və ittihamları səsləndirər ki, bu da gerçək MÜƏLLİMlər üçün təhqir, insafsız və ədalətsiz davranışdır.

Bu tip ittihamlar həm də tərbiyə göstəricisidir. Və elə bu məqamda da düşünürsən ki, doğrudan da peşəsinin vurğunu, peşəkarı olan adamlar bütün sahələrdə beləcə əziyyət çəkir, çox böyük xidmətləri o qədər kiçildilir ki, az qala cinayət tərkibli hərəkət kimi qələmə verilir.

Ola bilər kimsə deyər və haqsız da sayılmaz ki, elə “pedaqoqlar” var, adlarının qarşısına nə yazsan yaraşar, bircə pedaqoq, müəllim sözündən başqa. Amma nə yazıq ki, bu ixtisas onun diplomuna yazılıb. Hətta bu halı etiraf etməyin özü belə insanları formalaşdıran, yetişdirən adama, müəllimə qarşı bu qədər ikrahın olmasına əsas vermir. Çünki peşəsi müəllim olan hətta cinayət tərkibli hərəkətə yol veribsə, bunun üçün Cinayət Məcəlləsi və ona əsaslanaraq tətbiq edilə biləcək cəza növləri mövcuddur. Bu hallar baş verdiyində hər kəsin gözü önündə o cəzalar işlək hala gətirilir. Yəni, konkret hadisələri bütün sistemdəki adamlara şamil eləmək sadəcə kaprizdir. Valideyn kaprizi. Bu səbəbdən məktəblərdə uşaqların kaprizlərini internet əsrinə-filana bağlamaq lazım deyil. Yox, əgər bağlayırıqsa, deməliyik ki, indi təkcə uşaqlar deyil, elə valideynlər də kompüter və müasir texnologiya əsrinin valideynləridir.

Qaldı təsvir olunan situasiyalar. Bu iki situasiyanın heç biri göydəndüşmə deyil. Biri məktəb illərində uşaq kimi, o biri illər sonra valideyn kimi müşahidə etdiklərimdir. Yəni, həm sosializmin uşağı, həm də kapitalizmin yetkin insanının yaşantılarıdır. Düzünü deyim ki, uşaq ağlımda ilişib qalan birinci durum artıq valideyn olduğum dönəm üçün qənaətbəxş hesab etdiyimdir. Bu böyük qurbanlar bahasına əldə etdiyimiz müstəqilliyə dəstək olmamaq, nəyisə bəyənməmək, ya da bizi bitirməyə yönəlik, amma məqsədinə çata bilməyən bir sistem üçün nostalji yaşantı da deyil. Bu o deməkdir ki, rəsmi olaraq sistemlər dəyişə, idarəçilik metodları yeniləşə, qaydalar başqalaşa bilər. Amma bir də mənəvi dəyərlər deyə yazılmamış qanunlar toplusu var. O təkmilləşə, zənginləşə bilər, amma ucuz tutula, ya da aşınarsa, onda bu gün rastlaşdığımız mənəvi problemlərin daha artığını yaşamağı da elə indidən başlayıb gözə almalıyıq. Təbii ki, valideyn kaprizini, uğursuz müəllim diplomları problemini, üstəlik, uşaqları istənilən halda haqlı saymaq kimi prinsipləri də kənara qoymaq bu yolda düzgün yürüməyi istiqamətləndirən şərtlərdəndir.

# III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu

Bir çox tədbirlərə ev sahibliyi etmiş Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialının tarixinə daha bir əlamətdar simpoziumun keçirilməsi yazıldı. 17-18 may 2017-ci ildə ADPU və onun Şamaxı filialı, Türkiyə Cümhuriyyəti Amasiya Universiteti, Amasiya Azərbaycan Türkləri Kültür Sanat və Dayanışma Dərnəyi və Miras Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi birgə III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumunu təşkil etdi. Türkiyənin Amasiya, Marmara, Necmettin Ərbakan, Çankırı Karatekin Universitetləri, İtaliya Yokoku Assosiasiyası, Makedoniyadan 25 nəfər, respublikamızın tanınmış alimlərindən akademiklər İsa Həbibbəyli, Muxtar İmanov, Teymur Kərimli, ADPU-nun rektoru, professor Cəfər Cəfərov və universitetin Ağcabədi, Quba, Cəlilabad, Şəki filiallarının direktorları, Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndəsi, Azərbaycanın bir çox elm müəssisələrindən və mədəniyyət mərkəzlərindən olan 120 nəfər elm xadimi, həmçinin Seyid Həmzə Nigarinin nəslindən olan qonaqlar, media nümayəndələri, Şamaxı filialının professor-müəllim və tələbə heyəti iştirak edirdilər.

Simpozium iştirakçıları əvvəlcə Şamaxı rayon mərkəzində yerləşən ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidənin önünə gül dəstələri qoydular.

Simpoziumu açan filialın direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Tünzalə Yusifova bildirdi ki, hələ 200 il öncə Həmzə Nigarinin Qarabağın ruslar tərəfindən işğalından sonra yazdığı şeirində bu faciəli hadisənin “sinəsinə sancılan xəncər kimi onu istiraba qərq etdiyini” ifadə etmişdir. Sanki o, Qarabağın 200 il sonra ermənilər tərəfindən işğal edilib talan olunacağını hiss etmiş kimi bugünkü insanların əhvali-ruhiyyəsini misralarında əks etdirmişdir.



ADPU-nun rektoru, professor Cəfər Cəfərov simpozium iştirakçılarını salamlayaraq İslam Həmrəyliyi İlində Şamaxıda dünyaca tanınmış məşhur sufi şairi Həmzə Nigarinin adı ilə bağlı III Beynəlxalq Simpoziumun keçirilməsinin mühüm hadisə olduğunu qeyd etdi. Rektor Həmzə Nigarinin Türk-İslam dünyasına mənə yüklü əsərlər bəxş etməsindən danışaraq bildirdi ki, onun divanı türk dilində əvvəlcə Tiflisdə, sonra İstanbulda nəşr edilmişdir. Sonralar isə dəyərli alimlərin əsərlərinin sadələşdirməsi və yeni əlifbaya çevirməsi ilə həm Türkiyədə, həm də Azərbaycanda yenidən çap olunmuşdur. Həmzə Nigarinin İstanbulda nəşr olunan fars dilində də divanı vardır. Nigari “Nigarnamə”, “Saqinamə”, “Çaynamə” məsnəvilərini, o cümlədən məşhur sufi mütəfəkkiri Muyiddin Ərəbinin “Fütuhatı-Məkkiyə” əsərinə izahlar yazmışdır. Son zamanlar nigarişünaslığın deyə biləcəyimiz ədəbiyyat tədqiqatları yaranmışdır. Hazırda Nigari və ardıcıllarının həyat və yaradıcılığı daha dərindən öyrənilməkdədir. Mirzadə Mustafa Fəxrəddin Ağabalinin “Hümayi-ərş” əsərinin nəşr olunması bu istiqamətdə ilk mənbələrdəndir.

Şamaxı RİH-in başçısının müavini Qasım Qasımov simpoziumun ADPU-nun Şamaxı filialında keçirilməsini mühüm hadisə kimi qiymətləndirərək qonaqları salamladı və simpoziumun işinə uğurlar arzuladı.

Akademiklər İsa Həbibbəyli, Muxtar İmanov, Teymur Kərimli simpoziumun işini yüksək qiymətləndirdilər və bütün iştirakçılara uğurlar arzuladılar.

Amasiya Azərbaycan Türkləri Kültür Sanat və Dayanışma Dərnəyinin başqanı Atilla Yaprak, Amasiya Universitetinin dosenti Metin Hakverdioğlu, İtaliya Yokoko Assosiasiyasından təşrif buyurmuş doktor Andrea Macchia, Makedoniya Universitetinin professoru Zoran Matev-ski, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dosenti Nəzakət Məmmədli, Həmzə Nigari nəslindən olan qonaqlardan Siracəddin Həmidov və Müntəxab Mirsədizadə çıxış edərək Həmzə Nigarinin həyat və yaradıcılığından, beynəlxalq simpoziumun əhəmiyyətindən danışdılar.

ADPU-nun Şamaxı filialının II tədris ili tələbəsi Heydər Sadıqovun balabanın müşayiəti ilə Həmzə Nigarinin “Qarabağ” tərcibəndini söyləməsi simpoziuma xüsusi rəng qatdı.

Sonra simpozium öz işini “Həmzə Nigari və sufizm”, “Türk dünyası mədəni irsi”, “Gənc alimlərin Sufizm və Türk dünyası mədəni irsi araşdırmaları” başlıqları altında üç bölmədə davam etdirdi. Sonda simpoziumda iştirak edənlərə sertifikatlar və nəfis şəkildə tərtib olunmuş “III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları” adlı kitab təqdim olundu.

# “Musiqisi Səid Rüstəmovundur”

## Musiqi Kolleci böyük sənətkarın 110 illiyini ifaçılıq müsabiqəsi ilə qeyd etdi

**Yusif ƏLİYEV**

**Bu ifadənin ilk dəfə konferansyelərin dilindən eşidildiyi, konsert proqramlarında göründüyü vaxtdan, təxminən, 90 il ötür. Üç qərinəyə yaxındr ki, bu təqdimatla ifa olunan bir-birindən gözəl, zərif lirik mahnılar ruhları oxşamaqda, qəlbləri ehtizaza gətirməkdədir.**

Bəstəkar mahnıılarını yaşam müddəti baxımından güllərlə müqayisə etmək olar. Güllərin gec açıb tez solanı və tez açıb uzun müddət təravətini saxlayanı olduğu kimi, mahnıların da kiçik bir zaman kəsiyində sevilənі və zamanı tanımayanları olur, Səid Rüstəmovun qərinələri aşan mahnıları kimi. Müqtədir sənətkarın rübabından süzülən və uzun illər Gülağa Məmmədov, Şövkət Ələkbərova kimi sənət korifeylərinin repertuarında yer tutmuş “Qurban adına”, “Oxu tar”, “Sürəyya” kimi mahnıları mayın 17-də Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinin akt zalında bir daha səsləndi. Bu dəfə tələbələrin ifasında. Adı musiqi tariximizə qızıl hərflərlə həkk olunmuş görkəmli bəstəkar, xalq artisti, Dövlət mükafatı laureatı, professor Səid Rüstəmovun 110 illik yubileyi münasibətilə keçirilən xalq çalğı alətləri ifaçıları müsabiqəsinin yekun konsertində. Kollecin müəllim və tələbə heyətindən, dəvət olunmuş çoxsaylı qonaqlardan, Səid musiqisisevərlərindən ibarət tamaşaçılar qarşısında.

Tədbiri Musiqi Kollecinin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov açıb, görkəmli bəstəkarın keçdiyi çətin, şərəfli həyat yolundan danışdı. Dedi ki, Azərbaycan bəstəkarlıq məktəbinin formalaşmasında Səid Rüstəmovun müstəsna xidmətləri olub. Onun bəstələdiyi çoxlu lirik mahnılar var ki, bu mahnılar hazırda da musiqi xəzinəmizin qızıl fondunu təşkil edir. Xatırladıldı ki, Səid Rüstəmov müəllimlər seminariyasını, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. Pedaqogikanı, ayrı-ayrı fənlərin tədrisi metodikasını yaxşı bilib, zəngin müəllimlik təcrübəsi olub. Bütün bunlar isə onun musiqi təhsili sahəsində ustad pedaqoq kimi tanınmasına zəmin yaradıb. N.Kazımov diqqətə çatdırdı ki, Səid Rüstəmovun pedaqoji fəaliyyətinin mühüm bir dövrü Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası ilə bağlı olub. O, bu mötəbər ali musiqi təhsili ocağında xalq musiqisi kafedrası yaranan vaxtdan istedadlı tarzənlərin yoluna işıq tutub. Dahi Üzeyirin vəfatından sonra Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilib və 1953-cü ilədək həmin vəzifədə ustad müəlliminin adına layiq çalışıb.

Qonaqları söz alıb bəstəkarın yaradcılıq yolundan, əsərlərinin məziyyətlərindən danışdılar, bəstəkarla bağlı xatirələrini bölüşdülər. Sənətkarn geniş ictimai fəaliyyəti də söhbət mövzusu oldu. Qeyd olundu ki, Bakı Şəhər Sovetinin deputatı olduğu illərdə zəhmətkeşlərin mədəni həyat səviyyəsinin yüksəlməsi naminə yorulmadan çalışıb. SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü kimi səmərəli iş aparıb, beynəlxalq musiqi məclislərində ölkəmizi ləyaqətlə təmsil edib, dəfələrlə xalq çalğı alətləri ifaçıları üçün keçirilən beynəlxalq və ölkə miqyaslı musiqi festivallarında münsiflər heyətinin sədri və üzvü olub.

Bəstəkarın qızı Rəna Rüstəmova çıxışında son illər ölkəmizdə mədəniyyət sahəsində xidmətləri olan insanlara dövlətimizin böyük qiymət verdiyini, atasının xatirəsinin daim əziz tutulduğunu qeyd etdi, müsabiqəni Səid Rüstəmovun xatirəsinə dəyərli töhfə kimi qiymətləndirdi.

Sonra müsabiqə başladı. Müsabiqənin proqramı, əsasən, Səid Rüstəmovun əsərlərindən tərtib olunmuşdu. Tələbələr bəstəkarın sevilən mahnılarını, digər əsərlərindən parçaları məharətlə ifa etdilər. Konsert proqramı başa çatdıqdan sonra müsabiqənin qalibləri və mükafatçıları elan edildi. Kollecin II kurs tələbəsi, tar ifaçısı Məmmədəli Məmmədov və III kurs tələbəsi, qanun ifaçısı Solmaz Rəhimova müsabiqənin qalibləri oldular. İkinci yerə II kurs tələbəsi, tar ifaçısı Hacı Həsənzadə, II kurs tələbəsi tar ifaçısı Fatimə Tahirzadə layiq görüldülər. Minəxanım Əliyeva (qanun), Vüsal Dadaşlı (kamança), Aytac Əsədova (qanun) Nərmin Səmədova (qanun), Bəxtiyar Bəndəliyev (tar) müsabiqə üçüncüsü oldular.

# “Təlimdə tər, döyüşdə zəfər”



Təlimə Dəstək Mərkəzinin təşkilatçılığı ilə “Təlimdə tər, döyüşdə zəfər!” devizi altında hərbi idman bayramı keçirilib.

Hərbi idman bayramının keçirilməsində məqsəd hərbi-fiziki hərəkət və oyunlarını tədqiq etmək, onların müxtəlif növlərinin mahiyyətini və məzmununu açmaqla gənc nəslin hərbi-fiziki tərbiyəsinin inkişafına nail olmaq, yeniyetmə və gəncləri maarifləndirmək, vətənpərvərlik tərbiyəsi işinin keyfiyyətini yüksəltməkdən ibarətdir.

Akademik Zərifə Əliyeva adına liseydə keçirilən hərbi idman bayramında 100-ə yaxın şagird iştirak edib.

Çıxış edənlər şagirdlərin gələcəkdə vətənə bacarıqlı əsgər, dövlətə layiqli vətəndaş olacağına əminliklərini ifadə ediblər. Sonda qaliblərə kubok və Fəxri fərman verilib.

# "Məktəblinin dostu" valideyn-məktəb-şagird üçbucağını birləşdirən əsas amildir

Səbinə ƏSƏTOVA

"Məktəblinin dostu" layihəsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 30 ümumi təhsil müəssisəsində pilot olaraq həyata keçirilir. Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və İnnovasiyalar Agentliyinin birgə reallaşdırdığı layihə çərçivəsində şagird sayına uyğun olaraq 30 məktəbdə ümumilikdə 112 məktəblinin dostu fəaliyyət göstərir. İlkin olaraq paytaxtda icra olunan pilot layihənin məqsədi tədris prosesinin sağlam, təhlükəsiz, əlverişli psixoloji mühitdə təşkil edilməsi, valideynlərin övladlarının təhsil şəraiti barədə məlumatlılığının və məmnunluğunun artırılmasıdır. Qeyd edək ki, Azərbaycan təhsil sistemində ilk dəfə olaraq gerçəkləşdirilən "Məktəblinin dostu" layihəsi dünyanın müxtəlif ölkələrində müxtəlif adlarla uğurla sınaqdan çıxarılıb. Burada əsas hədəf məktəb-təhsilalan-valideyn üçbucağının tərəfləri arasında üfüqi ünsiyyətin qurulması və hədəf olaraq təhsilalana ahəngdar özünü gerçəkləşdirmə imkanları yaratmaqdır. Ölkəmizdə 2016-cı ilin avqust ayından start götürən layihə barədə koordinator Rüstəm Ağayev danışıb.

## *Rüstəm Ağayev:* "Hər təşəbbüsümüzlə məktəbin və məktəblilərin həyatına yenilik gətiririk"



### Məktəblinin dostu fəaliyyətə başlayandan bəri...

*- Layihə fəaliyyət göstərdiyi bu müddətdə hansı işlər görülüb? İlkin nəticələr nədən ibarətdir?*

- Fəaliyyətə başladığımız 4 ay elə böyük zaman kəsiyi olmasa da, qeyd edə bilərik ki, bu müddətdə müəyyən uğurlara imza ata bilmişik. Əvvəla, layihə tətbiq olunan məktəblərdə fəaliyyətə başladığımız ilk gündən etibarən, siqaret və digər zərərli vərdişlərin aradan qaldırılmasına çox ciddi nəzarət edirik. Fəaliyyətdə olduğumuz 30 məktəbdə siqaret çəkmə halları əhəmiyyətli dərəcədə azalıb. Şagirdlərin bu ziyanlı vərdişlərə yiyələnməməsi üçün mütəmadi olaraq pedaqoji kollektivlə birgə maarifləndirici təlimlər keçirilir, fərdi söhbətlər aparılır. Digər tərəfdən, məktəb ərazisinə şübhəli şəxslərin, yad adamların daxil olmasının qarşısı alınıb. Məsələn, bir neçə belə fakt qeydə alınıb ki, özünü hansısa şagirdin valideyni kimi qələmə verərək məktəbə daxil olmaq istəyən şəxslərin bu cəhdinin qarşısı alınıb. Bundan başqa, bir-birinə yaxın yerləşən iki məktəbdən birinə daxil olub qız şagirdi qaçırmaq istəyən şəxsi məktəblinin dostu oradan kənarlaşdırıb və məhz əməkdaşımızın ayıq-sayıqlığı sayəsində o, qonşu məktəbdə də məqsədinə nail ola bilməyib. Belə ki, onun yaxınlıqdakı digər məktəbə istiqamətləndiyini görən əməkdaşlarımız oradakı həmkarlarını da xəbərdar edib. Bizdə olan məlumata görə, həmin şəxsin psixoloji problemi olub. Belə hallarda məktəblinin dostu dərhal məktəb rəhbərinə xəbər verir, rəhbərlik də hüquq-mühafizə orqanlarını məlumatlandırır. Fəaliyyətə başladığımız ilk günlərdə bir neçə məktəb yaxınlığında kənar şəxslərin azyaşlı məktəbliləri sıxışdıraraq onlardan pul tələb etdiklərinə dair məlumatlar gəlirdi. Məktəblinin dostlarının davamlı işi nəticəsində artıq həmin şəxslərin məktəb ərazisinə yaxınlaşmasının qarşısı alınıb.

Sadəcə kənar şəxslərə qarşı deyil, elə məktəb daxilində də məktəblinin dostlarının fəaliyyətinin nəticəsi özünü göstərir. Bu yaxınlarda mərkəzdən kənarda yerləşən məktəblərin birində baş verən yanğın hadisəsinin qarşısının alınmasında məhz məktəblinin dostunun böyük rolu olub. Dərs olmadığından məktəbdə başlayan yanğının fərqinə ilk məktəblinin dostu varıb. Onun vaxtında müdaxiləsi nəticəsində yanğının qarşısı alınıb.

Yeri gəlmişkən qeyd edim ki, məktəblinin dostları işə qəbul olunmazdan əvvəl Fövqəladə Hallar Nazirliyinin, Səhiyyə Nazirliyinin ixtisaslı kadrları tərəfindən xüsusi təlimlərə qatılıblar. Onlar fövqəladə hallarda necə davranacaqlarını, hansı ilkin yardımları göstərə biləcəklərini öyrəniblər. Bura həm tibbi yardım, həm də zəlzələ, yanğın və digər fövqəladə hallar zamanı ilkin yardım aiddir. Ümumiyyətlə, cəmiyyətdə zərərli vərdişləri yayan, əxlaqi dəyərlərə ləkə salacaq hərəkətləri təbliğ edən, cinayətə meyilli şəxslər az deyil. Bizim məqsədimiz məktəbi və məktəb kollektivini belə şəxslərdən qorumaq, təhlükəsiz şəraitdə tədrisin təşkilini təmin etməkdir.

### ...Təşəbbüs göstərir...

*- Məktəblinin dostunun maraqlı təşəbbüsləri də var...*

- Doğrudur, indiyədək təşkil etdiyimiz tədbirlər maraqla qarşılanıb. Çünki irəli sürdüyümüz hər təşəbbüsümüzlə məktəbin və məktəblilərin həyatına yenilik gətiririk. Planlarımızı reallaşdırmaqla şagirdlərin asudə vaxtını maraqlı, səmərəli, əyləncəli edirik. 30 məktəbdə təhsil alan 50000-dən çox şagird arasından istedadlı, qabiliyyətli şagirdləri aşkarlayıb, onlara gələcək karyeralarını qurmağa yardımçı oluruq. Məsələn, 30 məktəb arasında keçirdiyimiz şahmat turnirində, yanvar ayında baş tutan dama çempionatında yaşı az, amma uğurları böyük olan şagirdləri üzə çıxardıq. Təşkil etdiyimiz "Mənim sevimli müəllimim" adlı şeir müsabiqəsində isə şagirdlər öz sevimli müəllimi üçün həm şeir yazdı, həm də onu səsləndirdilər. Hesab edirəm ki, bu onlar üçün böyük uğurdur. Müəllifi uşaqlar olan videoçarxları bizim feysbuk səhifəmizdə minlərlə insan izlədi. Baxın, "Məktəblinin dostu"nun bir üstünlüyü də budur ki, layihə 30 ümumtəhsil məktəbini qısa müddətdə bir ailə kimi birləşdirən dəyərə çevirdi. Çünki layihənin icra olunduğu məktəblər bir-birilə tamamilə qaynayıb-qarışıb. İstər şagirdlər, istər müəllim kollektivi, istərsə də valideynlər nəinki tədbirlərimizdə rastlaşır, həm də şagirdlərin məktəblərə təşkil edilən səfəri çərçivəsində tez-tez görüşürlər.

*- Sırada nə var? Nə planlaşdırırsınız?*

- Uşaqlar 2 aydır tamaşaya hazırlaşır. "ASAN xidmət"in dəstəyi ilə Cəlil Məmmədquluzadənin "Poçt qutusu" əsərini səhnələşdiriblər. Qarşıdan 1 iyun "Uşaqların Beynəlxalq Müdafiəsi Günü" gəlir. Həmin günə xüsusi hazırlaşmışıq. Daha sonra 30 məktəbin hər birində VII-IX sinif şagirdləri arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçiriləcək.

Məktəblərdə fövqəladə hallarda həyəcan simulyasiyalarının keçirilməsini də planlarımıza daxil etmişik. Bundan başqa, qarşıdan yay tətili gəlir. Başqa yerlərə istirahətə gedə bilməyən məktəblilər üçün elə təhsil aldıqları məktəblərdə ödənişsiz yay düşərgələri təşkil etməyi planlaşdırırıq. Yay boyu onlar maraqlı seminarlarda, intellektual oyunlarda iştirak edəcək, filmlər izləyəcək və s. Artıq 10-a yaxın məktəb bu təşəbbüsün tətbiqində maraqlı olduğunu bildirib. Bilirsiniz, qısa müddətdə belə əhəmiyyətli işlərin görülməsi layihənin ideyasının aydın olmasından və bu işə peşəkar yanaşmadan xəbər verir.

### ...Etibar qazanırlar

*- Valideynlərin münasibəti necədir? Onlar övladlarını "Məktəblinin dostu"na etibar edirlərmi?*

- Əslində, valideynlər işimizi kənardan izləyən və layihə haqqında cəmiyyətdə rəy formalaşdıran əsas subyektlərdən biri, hətta birincisidir. I siniflərə şagird qəbulu zamanı diqqət çəkən bir faktı qeyd edim. Bir neçə məktəbdə valideynlər orada məktəblinin dostunun olub-olmadığı ilə maraqlanıb, məhz onlar olan məktəbə üstünlük verdiklərini söyləyiblər. Məktəblərdə təşəbbüslərimizi valideynlər dəstəkləyir, bizə güvənirlər.

8 martla əlaqədar İçərişəhərdə ibtidai sinif şagirdlərinin iştirakı ilə fleşmob hazırlanırdı. Həmin fleşmobda valideynlər də iştirak etdilər və buna görə dostlara təşəkkür belə ünvanladılar. Sevindirici haldır ki, valideynlərin güvənini hər zaman hiss edirik. Məsələn, hər hansı işi çıxanda və uşağını məktəbdən götürməyə gecikəndə müəllimlə yanaşı, məktəblinin dostu ilə də əlaqə saxlayır və övladlarını onlara tapşırırlar. Belə durumlarda dostlar uşaqları öz xidməti otaqlarına aparır, onlarla müxtəlif oyunlar oynayır, ev tapşırıqlarına kömək edirlər. Valideyn də narahat qalmır.

### Layihəyə ictimai maraq

*- Fəaliyyətiniz mediada da geniş şəkildə işıqlandırılır. Bu, cəmiyyətdə sizə olan diqqətdən irəli gəlir, yoxsa...*

- "Məktəblinin dostu" valideyn-məktəb-şagird üçbucağını birləşdirən əsas amildir. Yəni, tək şagirdin dostu deyil, həm də ictimaiyyətlə təhsil əlaqələrini yaxınlaşdıran prosesin tərkib hissəsidir. "Məktəblinin dostu"nun vasitəsilə ictimaiyyət bu gün gündəlik məktəb həyatı, tədris prosesi, məktəblərdə baş verən yeniliklər, şagirdlərin təşəbbüsləri, ideyaları ilə tanış olur. Nəzərə alsaq ki, sosial şəbəkələr bu gün əsas informasiya mənbələrindəndir, bu mənada bizim feysbuk səhifəmiz əsas təbliğat vasitələrindən biridir. Bir sözlə, həm işləyirik, həm də layihəmizi təbliğ edirik. Düşünürük ki, layihənin əhəmiyyəti aylar keçdikcə daha çox nəzərə çarpacaq və bu iş ölkə məktəblərinin hamısında tətbiq ediləcək.

# Layihə çərçivəsində iməcilik aksiyası

291 nömrəli "Ekologiya" liseyinin həyətyanı ərazisində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və "Gənclərin elmi araşdırmalar mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Məktəblilərin ictimai fəallığının artırılması və ekoloji aksiyaların təşkili" layihəsi çərçivəsində iməcilik keçirilib.



İməcilikdə Nərimanov Rayon Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi Vüsal Ömərov, 291 nömrəli "Ekologiya" liseyinin direktoru Kəmalə Mirzoyeva, "Gənclərin elmi araşdırmalar mərkəzi" İctimai Birliyinin nümayəndəsi, təlimçi Cahandar Məmmədov, liseyin müəllim və şagirdləri iştirak ediblər.

Liseyin direktoru Kəmalə Mirzoyeva yeniyetmə və gənclərin iştirakı ilə həyata keçirilən aksiyanı müsbət qiymətləndirərək vaxtaşırı belə tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıb.

Tədbirdə birliyin nümayəndəsi, təlimçi Cahandar Məmmədov iştirakçılara layihə barədə geniş məlumat verərək bildirib ki, əsas məqsəd ətraf mühitin mühafizəsində yeniyetmə və gənclərin rolunun artırılmasıdır. Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu qəbildəndir. Ölkə başçısı İlham Əliyevin 2010-cu ili "Ekologiya ili" elan etməsi bu sahəyə diqqəti daha da artırıb. "Ekologiya ili" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisidir.

Sonra layihə çərçivəsində təşkil edilən aksiya iştirakçılarına üzərində donorun və təşkilatın loqosu əks olunan köynəklər, təmizlik və abadlaşdırma işləri üçün zəruri ləvazimatlar paylanılıb. İməcilik aksiyasına qoşulan yeniyetmələrin iştirakı ilə ərazidə təmizlik işləri aparılıb, liseyin həyətyanı ərazisində əkilmiş ağaclara qulluq göstərilib, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülüb.

Qeyd edək ki, 3 ay müddətində icra edilən layihə çərçivəsində Bakının Nərimanov rayonunda yerləşən 3 orta ümumtəhsil müəssisəsində seminarlar və maarifləndirmə işləri aparılıb.

# Təfəkküryönümlü kurikulumların tətbiqi məsələlərinə həsr olunan "dəyirmi masa"

Mayın 19-da Şərur rayon Tənənəm kənd tam orta məktəbində "Təfəkküryönümlü kurikulumlar zamanın tələbidir" mövzusunda "dəyirmi masa" keçirilib. Naxçıvan Müəllimlər İnstitutu və adıçəkilən məktəbin birgə keçirdiyi tədbiri Şərur Rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov açaraq təhsil islahatlarının həyata keçirilməsi ilə bağlı institutla birlikdə rayonda müxtəlif mövzularda elmi-praktik konfransların təşkil edildiyini diqqətə çatdırıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor Oruc Həsənli "Dərs prosesinin təfəkküryönümlü kurikulumların tələbinə uyğun həyata keçirilməsi günün tələbidir" mövzusunda məruzə edib. Bildirilib ki, təhsil sahəsində kurikulum islahatının həyata keçirildiyi bir dövrdə müəllimlərin qarşısında duran əsas vəzifə demokratik prinsiplərə uyğun milli-mənəvi və ümumbəşəri dəyərlərə malik, geniş dünyagörüşlü, təşəbbüskar və yenilikləri qiymətləndirməyi bacaran şəxsiyyət formalaşdırmaqdır. Cəmiyyətin və dövlətin inkişafını təmin edən sistemləşdirilmiş bilik, bacarıq və dəyərlərin mənimsənilməsi şagirdlərimizi gələcək həyata və səmərəli fəaliyyətə hazırlamağa xidmət edir.

Sonra Tənənəm kənd tam orta məktəbinin tərbiyə işləri üzrə direktor müavini Mustafa Eyvazov "Kurikulum islahatı şagirdlərin yaradıcılıq potensialının inkişafına imkan yaradır", məktəbin informatika müəllimi Ramil Cəfərov "Dərs prosesində İKT-dən, internetdən istifadə yolları və əhəmiyyəti" mövzularında çıxış ediblər.

"Dəyirmi masa"da müxtəlif ixtisas müəllimlərinin sualları cavablandırılıb və mövzu ilə bağlı fikirləri dinlənilib.

# Tələbələr sağlam həyat tərzini təbliğ edirlər

Mayın 20-də Azərbaycan Tibb Universitetinin (ATU) tələbələrinin təsis etdiyi "Sağlam Həyat Assosiasiyası"nın təşkilatçılığı ilə "Sağlamlığa kompleks yanaşmanın tibbi əsasları" adlı elmi-praktik konfrans keçirilib.

300 nəfərin iştirakı ilə keçirilən konfransda Mərkəzi Klinik Xəstəxananın baş həkimi, tibb elmləri doktoru, kardiocərrah Kamran Musayevin "Kardiovaskulyar təbabətdə deontoloji problemlərə aktual yanaşma", ATU-nun dermatovenerologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Elşad Novruzovun "Gənclik sızanaqları - akne vulqaris", ATU-nun həkim-diyetoloqu Leyla Zülfüqarlının "Obezite. Piylənməyə səbəb olan milli xüsusiyyətlərimiz", ATU-nun uroloq-cərrahı Vasif İsmayılın "Qocalan orqanizmdə uroloji əhəmiyyət kəsb edən dəyişikliklər", Modern Hospitalın baş həkimi bariatrik-cərrah Taryel Ömərovun "Piylənmənin cərrahi müalicəsi", neyrocərrah, Milana Hospitalın həkimi Əliosman Qədimbəylinin "Disk yırtıqlarında müasir cərrahi taktikalara baxış" mövzularında məruzələri dinlənilib. Aktual mövzuları əhatə edən məruzələr iştirakçılar və tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

ATU-nun tələbələri Rauf Vəliyev, Məhəmməd Məmmədov və Vüqar Xəlilli tərəfindən təsis edilən "Sağlam Həyat Assosiasiyası"nın məqsədi cəmiyyətə düzgün həyat tərzini aşılamaq, gənclərin fiziki və əqli cəhətdən sağlam formalaşması, sağlam qidalanmanın təbliği ilə bağlı maarifləndirmə işini təşkil etməkdir.

# İlin ən güclü ictimai nitq spikerləri seçilib

Mayın 20-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Azərbaycan İctimai Nitq Çempionatı" layihəsinin final, bağlanış və mükafatlandırma mərasimi keçirilib. Ən güclü 14 natiqin mübarizə apardığı tədbirdə ingilis dilində çıxış edən spikerləri təcrübəli münsiflər heyəti qiymətləndirib.

Layihənin rəhbəri, ADNSU-nun tələbəsi Kənan Məmmədov bu yarışın ardıcıl olaraq artıq 4-cü dəfə təşkil edildiyini bildirib. Layihənin məqsədi iştirakçıların təqdimat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsidir. Bura müraciət edən iştirakçılar ardıcıl olaraq layihə mərhələlərindən keçərək bu sahədə nəzəri və praktiki biliklərə yiyələnirlər.



Layihə çərçivəsində ilk olaraq iştirakçılara professional natiqlik təlimləri keçirilib. Daha sonra gənclərin seçdikləri mövzulara hazırlaşmaq məqsədilə mentorinq hissə baş tutub. İştirakçılar arasında seçim mərhələsindən yalnız 14 nəfər finala vəsiqə qazana bilib. Seçilən finalçılar üçün master klas təşkil olunub və onların finala tam hazırlığı təmin edilib.

Final tədbirində münsiflər heyəti qismində "Youth İnc." Sahibkarlıq Proqramının Direktoru Ələkbər Mustafayev, "EBSCO" şirkətinin nümayəndəsi Seymur Rəsulov, "BP" şirkətinin təmsilçisi Rəşad Bayramov və "PASHA Bank"-ın əməkdaşı Ceyhun Atayev iştirak ediblər.

Münsiflər heyətinin qiymətləndirməsinə görə, Bakı Mühəndislik Universitetinin III kurs tələbəsi Rübay Səmədzadə "Law of attraction" mövzusu ilə çempionatın qalibi olub. Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Ayşən Əliyeva II, ADNSU-nun magistrantı Cavid Əbdurəhim isə III yerlərə layiq görülüb.

Qeyd edək ki, layihə "Muğan Bank", "AAA" İctimai Birliyi, "ASAN Könüllüləri" Gənclər Təşkilatı, "Youth İnc." Proqramı, "EduHUB" şirkətinin dəstəyi ilə "eproject" group tərəfindən həyata keçirilir.

# “Azərbaycanda dünya səviyyəli kadrlar yetişdirmək mümkündür”

**Jalə MÜTƏLLİMOVA**

## *Bülent Aybar, Cənubi Nyu-Hempşir Universitetinin professoru:* “UNEC-lə daimi iş birliyindən məmnun olardım”

Adətdəndir, qonağı çox yaxşı qarşılayırıq ki, bizdən narazı qalmasın. Qonaq da hətta xoş olmayan məqamlar olsa belə, söyləməz, bəzən də lap tərifləyər ki, ev yiyəsi narahat olmasın. Amma bir təbəqə qonaqlar var, onlar bütün gördüklərini düzlü-səhvli söyləməlidirlər. Düzləri daha əla etmək imkanı yaransın, səhvləri düzəltməyə şans olsun deyə. Bu mənada Azərbaycana başqa ölkələrdən gələn elm, təhsil adamlarının fikirləri son dərəcə maraqlıdır. Bugünkü həmsöhbətimiz məhz belə şəxslərdəndir. O, UNEC-də (Azərbaycan Dövlət İqtisad Universiteti) beynəlxalq istisadiyyatdan dərs keçmək üçün Azərbaycana gələn, əslən türk olsa da, amerikalı professordur. Beləliklə, Amerika Birləşmiş Ştatlarının Cənubi Nyu-Hempşir Universitetinin professoru Bülent Aybar bizimlə bir semestrlik təəssüratlarını bölüşür.

*- Azərbaycanda xarici qonaqları görmək son dərəcə maraqlı gəlir. Bu həm də ölkədə dərs deməyə gələn elm adamıdırsa, bizə ikiqat maraqlıdır. O üzdən lap əvvəldən başlayın, Azərbaycana necə gəldiniz?*

- Amerikada xarici ölkələrdə dərs keçməyə getmək üçün bir proqram var. Bu, yüksək peşəkarlıq standartlarına uyğun olan adamların xaricdə dərs deməsi layihəsidir. Amma hər mütəxəssisin faydalana biləcəyi proqram deyil. O adamlara imkan verilir ki, yüksək elmi göstəriciləri var. Mən layihəni qazandım və ölkə seçimi mərhələsində Azərbaycanı seçdim.

*- Siz türk mənşəli amerikalısınız. Yəni, rəsmən ABŞ vətəndaşısınız. Amma yenə də millət olaraq biz yaxınıq. Maraqlı məsələnin digər tərəfidir. Yəni türk əsilli amerikalı pedaqoqun Azərbaycan marağından danışın bizə...*

- Birinci səbəb bu ölkədə heç zaman olmamağımdır. Rəsmi olaraq Amerika vətəndaşı olsam da, Azərbaycan mənə ruhən yaxın ölkədir. Əslən türkəm, mənə çox maraqlı idi daha bir türk məmləkətini görmək. Azərbaycan siyasi və coğrafi mövqeyi baxımından da bölgənin diqqətçəkən ölkəsidir. Bu da diqqətimi çəkən ikinci səbəbdir. Belə bir ölkənin təkcə ənənəsi, tarixi, coğrafi mövqeyi deyil, həm də insanları maraqlı olur. Yəni, bir neçə məsələyə maraq məni bura gətirdi.

*- Bir də peşəkar maraqlar olmalıdır yəqin...*

- İxtisasım beynəlxalq iqtisadiyyatdır. Bu həm də o deməkdir ki, sistem və iqtisadi quruluş baxımından yeni dəyişən ölkələr maraq dairəmdədir. Yəni, bu tip ölkələrin iqtisadi inkişafını araşdırmaq da mənə maraqlıdır. Sizin ölkədəki iqtisadi dəyişiklik sıradan hadisə deyil. Sizdə həm dövlət quruluşu dəyişimi, həm də iqtisadi dəyişim eyni anda başlayıb. Bu, az rast gəlinən iqtisadi-siyasi hadisədir. Siz kommunizmdən kapitalizmə keçid edən ölkəsiniz. Yəni, bu iki sistemin iqtisadi məsələlərə münasibəti tam fərqlidir. Elə bilin ki, iki fərqli dünyagörüşlü, həyat tərzli adam kimi. O üzdən bir sistemdən digərinə keçid mərhələsində olan ölkə kimi də maraq dairəmdə oldu Azərbaycan.

*- Bülənt bəy, eşitdiklərinizlə reallıqda gördükləriniz arasında fərq oldumu? Varsa, nədə görürsünüz bunu?*

- Məni Amerikadan bura gətirən proqram bizə paralel olaraq bölgə ilə bağlı ətraflı məlumatlar verir. Təbii ki, layihəni qazanıb, ölkəni seçdikdən sonra. Buna paralel mən əvvəllər bura gəlmiş başqa həmkarlarla da danışıb görüşdüm. Onlar mənə buradakı mühitlə bağlı əlavə məlumatlar verdilər. Burda nə ola bilər, ölkənizdə nələr gözləyə bilərəm, insanları necədir, yəni bütün bunları təxmin edə biləcək qədər məlumatlarım var idi. Əlavə öyrəndiklərim bildiklərimi bir qədər də zənginləşdirdi. Sizə deyim ki, Azərbaycan haqqında müxtəlif kitablardan da məlumatlar oxudum. Ölkənin tarixinə, ədəbiyyatına, mədəniyyətinə dair maraqlı məlumatlar əldə etdim. Yəni demək istəyirəm ki, gələndə sizi tanımaq baxımından xeyli məlumatlı idim. Çünki getdiyin yeri tanımamaq insana orda yaşaya bilməkdə mütləq əngəl törədər. Getdiyin yeri tanımağa borclusan.

*- Amma yenə də bu, “gördüklərinizlə oxuyub bildikləriniz üst-üstə düşdümü” sualına cavab olmadı. O üzdən bir az başa qayıtmalı olacağıq deyəsən...*

- Aşağı-yuxarı təxminən eyni şeylər oldu. Məni çox yaxşı qarşıladılar.

**Tələbələrin günlük qrafiki təxminən belədir: ev-dərs, dərs-ev. Bu bir qədər gərginlik yaradır. Bir amerikalı tələbə əsla belə qəlibə oturmaz, bu rejimdə oxumaz və çalışmaz. Ayrıca düşünürəm ki, bunu sizin də mütəxəssislər araşdırmamış deyil.**

İndi də əladır hər şey. Düzünü deyim sizə, burda çox rahatam.

*- İnsanlarla ünsiyyət necə, alınırmı?*

- Həm də çox yaxşı alınır. Burda sizinlə həm də dil yaxınlığımız, eyniliyimiz var. Bu mənə çox rahatlıq gətirir. Ayrıca UNEC rəhbərliyi də bu şəraitin daha yaxşı olması üçün bütün imkanları yaradıb. Sizdə qəribə bir adət var. Qonaq gələn adama xüsusi diqqət olur. Bu, bir-iki adam yox, az qala hamı tərəfindən adət olunmuş vərdişdir. Əslində, çox yaxşıdır, fərqlidir.

*- Bəs tələbələrimiz necə, qane eləyirmi? Həm hazırlıq səviyyələrini, həm də dünyagörüşlərini nəzərdə tuturam. Bir amerikalı tələbə ilə bir azərbaycanlı tələbə arasındakı fərq nədir? Hər iki auditoriya ilə tanışlığı olan pedaqoqdan bunu eşitmək çox maraqlıdır.*

- Mənə burdakı tələbələrə dərs keçmək çox böyük həzz almaq deməkdir. Niyəsin yəqin ki, soruşacaqsınız. Qoyun elə özüm deyim. Mənim ixtisasım beynəlxalq iqtisadiyyatdır. Bu fənn üzrə UNEC-də seçilən tələbələrə dərs keçirəm. Onlar xüsusi qrup olduqları üçün ingilis dilləri də yüksək səviyyədədir. O üzdən demək olar, tələbələrlə ünsiyyətimiz iki dildədir. İngilis və türk dillində. Yəni, o qədər rahat ünsiyyət qururuq, bunu bəlkə mənzərə olaraq görmək daha çox şey deyə bilər sizə. Çox ağıllı və savadlı uşaqlar var. Universitet tələbəsi səviyyəsində bildikləri bir çox şey var ki, bu, düzünü deyim, bəzən heyrətimə səbəb olur. Yəni, amerikalı tələbə belə deyil. Bu, azərbaycanlı tələbənin amerikalıdan üstün tərəfidir. Bir də çox çalışqandırlar. Məsələn, mən Amerikada iki dərsdə izah etdiyim mövzunu, burda bir dərsdə izah edirəm. İzah etmək bir yana, burda həm də tələbə izahını verdiyimi mənə növbəti dərs çox asan və rahat qavrayıb geri qaytara bilir. Bu da yenə amerikalı gəncdən bir pillə üstünlükdür. Sizdə tələbələrdə hiss etdiyim və onları bir az məhdudlaşdıran dünyagörüşü, daha qapalı demək olmaz, amma çərçivəli mühitdə böyümələridir. Yəni, bu onları yaşlarından daha kiçik göstərir. Amerikalı tələbə bu mənada daha yetişkindir.

*- Azərbaycanda bunu bir az ailə qaydaları, standartları, bir az da orta məktəblərdə təhsil sisteminin yüklü olması ilə əlaqələndirirlər. Sizin ehtimal və müşahidələriniz varmı bununla bağlı?*

- Sizin orta məktəblərdəki tədris proqramı ilə tam tanış deyiləm. O üzdən mən o sistemin verdiyi nəticəyə əsaslanıb danışa bilərəm. Yəni o sistemin ali məktəblərə verdiyi uşaqlarda gördüyümü deyə bilərəm. Əminəm ki, sistem o qədər yüklü və gərgin olmasa, nəticə bu qədər effektli və yaxşı ola bilməz. Yəni, o yük ali məktəb səviyyəsində nəticələri əla edə bilir. Amma uşaqları bəzi məsələlərdə geri salır. Bunu bayaq söylədim, olğunluq və müstəqilliklə bağlı problemləri deyirəm. Düşünürəm ki, sizin təhsil sistemi üzrə mütəxəssisləriniz mütləq bu məqamı nəzərə alacaqlar gələcəkdə. Yəqin ki, bunu evdə valideynlər də diqqətdə saxlamalıdırlar. Auditoriyalarda son dərəcə istedadlı dediyim uşaqların asudə vaxt problemi olmadan, üstəgəl, daha yetkin şəxs kimi əyləşməsi böyük nəticədir. O cür kadrları hazırlayandan sonra istənilən müsbət nəticəni qazanmaq olar. Müşahidələrimdən anladığım bir şey var. Tələbələrin günlük qrafiki təxminən belədir: ev-dərs, dərs-ev. Bu bir qədər gərginlik yaradır. Bir amerikalı tələbə əsla belə qəlibə oturmaz, bu rejimdə oxumaz və çalışmaz. Ayrıca düşünürəm ki, bunu sizin də mütəxəssislər araşdırmamış deyil.

*- Bu ev-dərs, dərs-ev dediyiniz rejimdə olan tələbələrinizlə bağlı daha hansı təəssüratlarınız var?*

- Dünyagörüşləri, bir də davranışlarında hiss etdiyim məqamlar var. Türklər ifadə etdiyi kimi, yaşlarından çox sadəlövhdürlər. Bu, indilik bəlkə də çox gözəldir. Ancaq gələcəkdə həyatın reallıqları ilə üz-üzə olanda problemlər yarada bilən məqamdır. Mən valideynlərə övladlarına müstəqillik vermələrini arzu edərdim. İstedadlı tələbə bir də dünyagörüşü və müstəqillik baxımından zənginləşə bilsə, çox gözəl və bəlkə də ağla gəlməyəcək yaxşı nəticələr ola bilər. Bir daha təkrarlayıram, son dərəcə ağıllı, istedadlı tələbələri var ölkənizin.

*- Bir də okeanın o tayından gələn professoru ailə olaraq tanımaq maraqlı gəlir. Ailəniz də sizinlə bərabər Azərbaycanda yaşayır?*

- Bir müddət əvvəl gəldilər yanıma. Yəni məni ziyarətə gəldilər. Onlar Amerikada yaşayır. Bəlkə məndən soruşası olsaydınız ki, Bakıdan başqa Azərbaycanın harasında olmuşam, buna xeyli qabaq cavab verə bilməzdim. Ailəmin gəlişi bu məsələdə mənə bir yol açdı. Ailəmlə Şamaxı, İsmayıllı, Qəbələ, Şəkini gəzdim. Quba, Zaqatala, Qax tərəfə gedə bilmədik düzü, amma bunu da arzulayıram. Bir də Gəncədə oldum. Deyim ki, bölgələrinizi daha çox bəyəndim.

İki övladım var. Oğlum 15 yaşındadır. Bura gələn də o idi. Bir də 22 yaşlı bir qızım var. O, Amerikada çalışır. Xanımım əslən amerikalıdır. 1988-ci ildən Amerikada yaşayıram. Övladlarım Amerikada dünyaya gəlib, orada böyüyüblər.

*- Tez-tezmi gedirsiniz Türkiyəyə?*

- Bəli, tez-tez gedib-gəlirəm. Atam dünyasını dəyişib. Anam həyatdadır, yaxınlarım var. Bu üzdən tez-tez gedib-gəlirəm.

*- Türkiyə, Azərbaycan, Amerika. Bir də haradasa daimi və rahat yaşamaq məsələsi var. Sizcə hansı daimi yaşayış üçün daha əlverişlidir?*

- Amerikada yaşamaq asandır. İnsan rifahı üçün hər şey var. İş görmək çox rahatdır. Yəni hər cür şəraitim var. Evdən işimə, işimdən evimə rahat gedib-gələ bilirəm. Həyatda heç bir maneəm yoxdur. Amerikada mənə görə həyat daha az streslidir. Xanımımla birgə 1993-cü ildən 1995-ci ilə qədər İstanbulda yaşadım. Orda həyat ona çox stresli gəldi. İstanbuldakı həyata heç cür alışa bilmədi. İstanbul böyük şəhərdir. Böyük şəhərlərdə yaşamaq çətindir. İstanbul tıxaclarından tutmuş, digər məsələlərdə də yaşanması üçün çox çətin şəhərdir. Nəsə eləmək istəyirsənsə, daha çox zaman lazım gəlir adama. Heç nə asan deyil. Yəni, insanın həyatı stresli keçir İstanbulda. Bəlkə də fikir vermisiniz, stresli şəhərlərin insanları da qəribə olur. Yəni, onlar gün ərzində o qədər stress yaşayırlar ki, bir-biriylə ünsiyyətdə də sərtlik hiss olunur. Sizdə, Azərbaycanda isə bu yoxdur. İnsanların sərtliyini nəzərdə tuturam. Nə qədər yorğun, işləri çox olsa da, ünsiyyətdə gülərüzdürlər. Mən İstanbulda gördüyüm stresi nə Amerika, nə də Bakıdakı adamlarda görürəm.

Bir məqam da var. Amerikada işini peşəkarlıqla görmək üçün bütün dəstəyi alırsan. Bu, insanın özünü və peşəsini inkişaf etdirməsi üçün son dərəcə vacib məqamdır. Deyim ki, bu üstünlük bir çox yerdə yoxdur. Amma gərək ola. Çünki yaxşı iş görüb, yaxşı nəticə əldə eləmək istəyiriksə, mütləq yaxşı da şərait yaratmağı bacarmalıyıq. İnkişafa gedən yeganə yol daha yaxşı şərait yaradılmasından keçir.








*- Beynəlxalq istisadiyyat kimi mühüm fənni tədris edirsiniz. Kadr baxımında bu, Azərbaycan dövləti üçün də vacib məsələdir. Yəni keçid ölkəsi olaraq beynəlxalq iqtisadiyyatı dərindən bilən mütəxəssislərə ehtiyacımız var. Tələbələrinizi müşahidə imkanı sizə bu peşənin perspektivinə dair ali təhsil müəssisələrində, konkret UNEC-də vəziyyəti dəyərləndirmək, proqnozlaşdırmaq imkanı verib. Necədir vəziyyət? Bizim beynəlxalq iqtisadiyyatı bilən kadrları yetişdirmək imkanlarımız hansı səviyyədədir?*

- Bu, qəti qərarımdır, sizdə ağıllı, istedadlı və bacarıqlı gənclər hədsiz çoxdur. Qalır onları istiqamətləndirmək məsələsi ki, bu da xeyli maliyyəyə bağlı olan işdir. Sizdə ən müxtəlif sahələrdə böyük insan kapitalı var. Sadəcə, o kapitalı düzgün istifadə etmək lazımdır. İstifadə metodu düzgün seçilsə, qısa zamanda ələnın da üstündə olan nəticələr qazanılar. Yəni, bu prosesi sürətləndirmək üçün yaxşı bir sistem qurub, onu qısa vaxt ərzində işə salmaq lazımdır. Azərbaycandakı insan kapitalı düzgün istifadə edilsə, dünya səviyyəli kadrlar yetişdirmək mümkündür. İnanıram ki, sizdə bunu edə biləcək qaynaqlar var və edə biləcəklər. Mən mayda semestri bitirib geri dönürəm. Burdakı gəncliyin gələcəyindən çox əmin ayrılıram. İnanıram ki, dövlətiniz bu istiqamətdə xeyli iş görəcək. Mənimlə bağlı dəvət, işlər olarsa, yenə də gələ bilərəm. UNEC-lə daimi iş birliyindən məmnun olardım.

# “Azərbaycan dilçiliyi müasir dövrdə”

**Nuray ƏSGƏROVA**

Bu mövzuda “Naxçıvan” Universitetində konfrans keçirilib. Konfransı giriş sözü ilə ali təhsil ocağının tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açıb.

Konfransda Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimləri dosent Qənirə Əsgərovanın, Arifə Zeynalovanın, Nicat Yaqubovun çıxışları dinlənilib. Bildirilib ki, ümummilli liderimizin yüksək diqqət və qayğısı ilə Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyətə malik olub. 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb. Dahi şəxsiyyətin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 2 yanvar tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilib, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılıb. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmanla ölkəmizdə latın qrafikalı əlifbanın tətbiqi ilə bağlı mühüm işlər həyata keçirilib. Latın qrafikasına keçid türk xalqlarının yazı, orfoqrafiya baxımından yaxınlaşması üçün zəmin yaradıb. Qeyd olunub ki, doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar, “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında” 2007-ci il 24 avqust tarixli sərəncamları ölkəmizdə bu işlərin davamlı və ardıcıl həyata keçirilməsinin təsdiqidir. Dövlət başçısının 2013-cü il 9 aprel tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Sərəncamı bu sahədə görüləcək vacib işlərin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə şərait yaradıb. Eyni zamanda sərəncamda Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyətinin, terminologiyanın inkişafı, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri də öz əksini tapıb, kütləvi informasiya vasitələrində Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuraların yaradılması qərara alınıb.

Tədbir iştirakçılarının diqqətinə o da çatdırılıb ki, muxtar respublikada da dövlət dil siyasəti uğurla həyata keçirilir. Azərbaycanda latın qrafikasına keçiddən sonra muxtar respublikanın kitabxanalarına 2 milyondan artıq kitab verilib, Naxçıvan şəhərində “Ana dili” abidəsi ucaldılıb.

## "İslam Həmrəyliyi İli"nə həsr olunmuş tədbir

Abşeron rayonunun Mehdiabad qəsəbə 4 nömrəli tam orta məktəbində "İslam Həmrəyliyi İli"nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin əməkdaşları, məktəbin pedaqoji kollektivi və şagirdlər iştirak ediblər.

Əvvəlcə IX-XI sinif şagirdləri məktəb həyətində IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar fləşmob keçirib, müxtəlif idman növlərinə aid fəndlər nümayiş ediblər.

Məktəbin akt zalında davam edən tədbirdə təhsil müəssisəsinin direktoru Elnurə Cavadzadə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının və Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsinin ölkəmizin müsəlman dünyasına verdiyi ən böyük töhfələrdən biri olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan qısa müddətdə müstəqillik əldə etməsinə baxmayaraq, artıq aparıcı islam ölkələrindən birinə çevrilə bilib.

Məktəbin sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçısı Cəmilə Quliyeva ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarından söz açaraq, bu oyunların bütün dünyada müsəlmanlar arasında birlik və həmrəyliyin möhkəmlənməsinə kömək edəcəyini vurğulayıb.

Tədbirdə müəllimlərdən Günel Alışlı və Aytəkin Mustafayeva Azərbaycanın digər islam dövlətləri ilə əlaqələrindən, elm və təhsil sahəsində əməkdaşlığından danışıblar.

Sonra 2-ci sinif şagirdləri hazırladıqları "Molla Nəsrəddin və Keloğlanın sərgüzəştləri" adlı ədəbi-bədii kompozisiyanı tədbir iştirakçılarına təqdim ediblər.

Sonda IV İslam Həmrəyliyi Oyunlarına aid videoçarx nümayiş olunub.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# "Mən peşəmə çox bağlıyam"

*Nuranə Xəlilova:* "İlk gündən şagirdlərimə ixtisasımı sevdirə bilirəm"

Növbəti müsahibimiz Ağstafa rayonu Poylu kənd tam orta məktəbinin musiqi müəllimi Nuranə Xəlilovadır. O, 1995-ci ildə Goranboy rayonunun Ağamalıoğlu kəndində anadan olub. 9-cu sinfə kimi doğma kəndində təhsil alıb. Sonra Gəncə Humanitar Kollecinin musiqi müəllimliyi ixtisasını bitirib. İxtisasını ürəkdən sevir.



*- Nuranə xanım, müəllim olmağa nə vaxt qərar vermisiniz?*

- Müəllimliyi çox sevirəm. Atam musiqiçi olduğu üçün uşaqlıqdan musiqiyə bağlıyam. İxtisas seçərkən də, məhz musiqi müəllimliyini seçdim.

*- Poylu kənd tam orta məktəbində müəllim işləmək sizə çətin deyilmi? Bu seçim sizi qane edirmi?*

- Mən peşəmə çox bağlıyam. Heç bir çətinliyim yoxdur. Əsas odur ki, ilk gündən şagirdlərimə ixtisasımı sevdirə bilirəm. Lazım gələrsə, digər ən ucqar dağ kəndində işləməyə gedərəm.

*- Regionlarda işləmək istəyən gənc müəllimlərə nə sözünüz var?*

- Atalar deyib: "Aslanın erkəyi, dişisi olmaz". Heç bir çətinlikdən qorxmasınlar, ən əsası, seçdikləri peşəni ürəkdən sevsinlər.

*- Hazırda işlədiyiniz Poylu kənd orta məktəbində müəllim-şagird münasibətlərindən razısınızmı?*

- Maraqlı sualdır. Bu gün müəllim-şagird münasibətlərində aparıcı qüvvə müəllimdir. Əgər müəllim bu münasibəti qoruyub saxlaya bilirsə, onda hər şey yaxşı olur. Mən şagirdlərimlə daimi dostluq etməyə çalışıram.

*- Asudə vaxtlarınızda nə ilə məşğul olursunuz?*

- Dünyada və Azərbaycanda musiqi sahəsində olan yeniliklərlə maraqlanıram. Eyni zamanda, kirayədə qaldığım ev sahibinə bəzi ev işlərində kömək etməyi də unutmuram.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Göygölün gənc xilasedici və yanğınsöndürənləri birinci olub

Fövqəladə Hallar Nazirliyi Gəncə Regional Mərkəzində "Gənc xilasedici və yanğınsöndürən" yarışının zona mərhələsi keçirilib.

Yarışın keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin, gənc nəslə hərbi-vətənpərvərlik ruhunun aşılanması, məktəblilər arasında sağlam həyat tərzinin təbliği olub.

Yarış "Yanğın estafeti", "Maneələr zolağı", "Gənc ekspertlər" və "Komandaların təqdimatı" üzrə 4 mərhələdən ibarət olub.

Fövqəladə Hallar Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin yerli qurumlarının dəstəyi ilə həyata keçirilən bu yarışda Gəncə, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Daşkəsən, Göygöl və Samux rayonlarının komandaları iştirak edib.

Nəticədə zona mərhələsinin qalibi Göygöl rayon Çaylı kənd tam orta məktəbinin komandası olub.

Qalib komanda respublika yarışında iştirak etmək hüququ qazanıb.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Masallıda daha bir məktəb binası istifadəyə verilib

Masallı rayonunun Şatıroba kəndində 180 şagird yerlik yeni məktəb binası istifadəyə verilib. Məktəbin açılışında Masallı Rayon İcra Hakimiyyətinin başçısı R.Hüseynov, rayon təhsil şöbəsinin müdiri T.Əkbərov, kənd ictimaiyyətinin nümayəndələri çıxış edərək, şagird və müəllim kollektivini təbrik ediblər.

Təhsil şöbəsindən redaksiyamıza daxil olan məlumatda bildirilir ki, müasir standartlara cavab verən məktəbdə şagirdlərin yaxşı oxumaları üçün hər cür şərait var. Valideynlər və kənd ictimaiyyəti belə bir şəraitin onların övladları üçün yaradıldığına görə ölkə başçısına minnətdarlıq ediblər.



## Şagirdlər Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər

Qax rayonu Çinarlı kənd ümumi orta məktəbinin VII-IX sinif şagirdləri 18 may - Beynəlxalq Muzey Günü ilə əlaqədar olaraq Qax Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər. Ekskursiyanın məqsədi xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin nə dərəcədə mühüm rol oynadığını şagirdlərə izah etmək olub. Şagirdlər muzeydəki qədim eksponatlarla tanış olublar.

Sonra muzeyin əməkdaşları tərəfindən şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Müəllim və tələbələrin bayram konserti

Mayın 23-də Lənkəran Dövlət Humanitar Kollecinin Musiqi və təsviri incəsənət şöbəsinin akt zalında 28 May - Respublika Günü münasibəti ilə "Fortepiano və ümumi fortepiano" fənn birləşmə komissiyasının müəllim və tələbələrinin konserti keçirildi. Konsert proqramı Dövlət himninin canlı ifası ilə başladı. Musiqi və təsviri incəsənət şöbəsinin müdiri Fikrət Kərimli iştirakçıları salamladıqdan sonra konsertin 28 May - Respublika Gününə həsr olunduğunu bildirdi və müstəqil Azərbaycanın incəsənəti tarixindən qısa məlumat verdi. FBK sədri Firuzə Abuşovanın bədii rəhbərliyi ilə keçirilən konsert proqramının hər bir nömrəsi dinləyicilərin sürəkli alqışları ilə tamamlanırdı. Kollecin müəllimlərindən Aytəkin Əsədli, Sevinc Eyvazova, Vüsalə Qasımova, İradə Salamova, Nigar Cəfərova, Şəhla Fərzullayeva və Minarə Qurbanova, tələbələrdən Sənubərxanım Əlizadə, Səda Mehdizadə, Cavid Dadaşov, Anar Nağızadə, Əfrasiyab Hümmətli və başqa tələbələrin fortepianoda ifaları izləyicilərin ruhunu oxşadı.

Kollecin direktoru Ruslan Həmidov yekunda çıxış edərək təşkilatçılara minnətdarlığını bildirdi, belə konsert proqramlarının tələbələrin təhsilində mühüm əhəmiyyət daşıdığını, onlarda daha böyük həvəs yaratdığını bildirdi.

Sonda müəllim və tələbələrlə xatirə şəkli çəkildi.

**Cəmil QULİYEV,**
*Lənkəran Dövlət Humanitar Kollecinin müəllimi*

# Bəşəriyyətin bəlasına qarşı birgə mübarizə

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" ilə bağlı Lerik rayonundakı Piran kənd məktəbində tədbir oldu. İdarə rəhbərlərinin, ağsaqqalların, ziyalıların, məktəb şagirdlərinin, müəllimlərin qatıldığı tədbir "Narkomaniyaya yox deyirik!" adlanırdı. Öncə iştirakçılar məktəblilərin çəkdiyi rəsmlər əsasında düzəldilmiş "Narkomaniya bəşəriyyətin bəlasıdır" sərgisinə baxdılar.

Məktəbin direktoru Rövşən Məmmədov bildirdi ki, insan ömrünün ən gözəl, mənalı dövrünü gənclik illəri təşkil edir. Bu illəri səmərəli keçirən ömrünü axıra kimi firavan qura bilir. Bəziləri bunu başa düşə bilmir, həyatını müxtəlif narkotik maddələrlə zəhərləyir. Direktor gəncləri zərərli vərdişlərdən çəkindirməyə, cəmiyyəti bu bəlaya düçar olanlara biganə qalmamağa, onları doğru yola çəkməyə səslədi.

Piran ərazi vahidi üzrə icra hakimiyyətinin nümayəndəsi Rizvan Əsədov, ağsaqqal ziyalı Aydın Şükürov, müəllim Ramin Şərbətov, kənd sakinləri Möhübbət Orucov, Məhərrəm Aslanov, "Lerik" qəzetinin redaktoru İdris Şükürlü və digər çıxış edənlər gənclərin asudə vaxtlarının mənalı təşkilini xüsusi vurğuladılar, narkomaniyaya qarşı mübarizə üçün tədbirləri daha da artırmağın zəruriliyini bildirdilər. Şair Vüqar Həməti vətənpərvər ruhda yazdığı şeirləri oxudu və bu səpgili tədbirlərin davamlı olmasını arzuladı.

Milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, sağlam gənclik böyütmək məqsədi daşıyan tədbir Piran kənd məktəblilərinin hazırladığı "Narkomaniyaya yox deyirik!" adlı səhnə ilə başa çatdı.

**Zəfər ORUCOĞLU**

## Monitorinq imtahanında şagirdlərin biliyi yoxlanılıb

Sabirabad şəhər 4 nömrəli tam orta məktəbdə məzmun standartlarının reallaşdırılmasının yoxlanılması və tədrisin keyfiyyətini yüksəltmək məqsədilə monitorinq imtahanı keçirilib. İmtahan V-VIII siniflər üzrə fiziki tərbiyə, texnologiya və təsviri incəsənət fənləri istisna olmaqla digər bütün fənlər üzrə hər birindən 10 sual olmaqla iki mərhələdə keçirilib.

Birinci mərhələdə V-VI siniflər üzrə 5, VII-VIII siniflər üzrə isə 6, ikinci mərhələdə isə kimya, informatika, fizika, xarici dil fənlərindən keçirilib. Sualları cavablandırmaq üçün şagirdlərə 2 saat vaxt verilib. Müvafiq fənlər üzrə ümumi sualların 80%-i açıq, 20%-i qapalı tipli tərtib edilib. İmtahan məktəbdə yaradılmış komissiya tərəfindən aparılıb. Fənn müəllimləri imtahan prosesindən azad edilib, imtahana nəzarətçilər məktəbin laborantları, uşaq birliyi rəhbəri və psixoloqu təyin edilib. İmtahanda ümumilikdə 125 şagird iştirak edib.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Bilik yarışlarının yarımfinal mərhələsi keçirilib

Balakəndə yerləşən ümumi təhsil məktəbləri arasında təşkil olunmuş bilik yarışlarının yarımfinal mərhələsi keçirilib.

Bilik yarışlarının birinci mərhələsi fevral ayından etibarən rayon üzrə 6 zonada təşkil olunub. İkinci mərhələ olan yarımfinal mərhələsində zona üzrə yarışlarda ilk iki yeri tutan 12 məktəbin komandası qalibiyyət uğrunda mübarizə aparıb.

Yarımfinal mərhələsində I yeri Humanitar və texniki fənlər təmayüllü liseyin, II yeri Balakən şəhər 1 nömrəli tam orta məktəbin, III yeri isə Katex kənd 1 nömrəli tam orta məktəbin komandaları qazanıb.

Qalib komandalar yarışmanın final mərhələsində iştirak edəcəklər.

**Vüsalə BƏDƏLOVA,**
*Balakən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Molla Pənah Vaqifin 300 illik yubileyi qeyd olunub

Mayın 19-da Samux rayonu Alabaşlı kənd tam orta məktəbində Azərbaycan xalqının görkəmli şairi Molla Pənah Vaqifin 300 illik yubileyi qeyd olunub.

Dövlət himni səsləndirilib. Sonra məktəbin direktoru M.Məmmədova iştirakçılara Molla Pənah Vaqifin həyatı və zəngin irsi haqqında məlumat verib.

Şagirdlərin ifasında M.P.Vaqifin "Pəri", "Başına döndüyüm", "Bayram oldu", "Görmədim", "Hayıf ki, yoxdur" şeirləri səsləndirilib. Xalq şairi Səməd Vurğunun "Vaqif" dramından "Ağaməhəmməd şah Qacarla Vaqifin görüşü", "Vaqiflə Xuramanın görüşü" və "Vaqiflə Molla Vəli Vidadinin deyişməsi" səhnələri göstərilib.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Səhifəni hazırladı: *Şakir CƏFƏROV*

# Zəif nəticə göstərən müəllimlər getsinmi, qalsınmı?

## Diaqnostik qiymətləndirmə real mənzərəni üzə çıxarıb

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

2014-cü ildən başlayaraq ölkəmizdə həyata keçirilən müəllimlərin diaqnostik qiymətləndirməsi məhz həmin addımlardan biridir.

### Müəllimlərin səviyyəsi üzrə ümumi mənzərə

Ölkəmizdə 2 ildir davam edən proses artıq yekunlaşmaq üzrədir. Son mərhələdə - Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda yerləşən məcburi köçkün rayonlarının məktəblərində çalışan 5000-ə yaxın müəllimin qiymətləndirilməsi həyata keçirilir. İmtahanlara qeyd edilən rayonlarla yanaşı, əvvəlki illərdə müxtəlif səbəblərdən qiymətləndirmədə iştirak edə bilməyən namizədlər də cəlb olunublar.

Proses tamamilə başa çatdıqdan sonra müəllimlərin diaqnostik qiymətləndirilməsinin nəticələri ilə bağlı konkret rəqəmlər əsasında danışmaq mümkündür. Lakin indidən ümumi mənzərə aydınlaşıb. İlkin hesablamalar müəllimlərin bir qisminin qiymətləndirmədə nəinki yeni təhsil proqramlarının tətbiqi, hətta öz ixtisası üzrə də ürəkaçan nəticələr əldə etmədiyini deməyə əsas verir. Bu sahədə ciddi müşahidə, sorğu və təhlilləri olan "Təhsil xidmətləri" Mərkəzinin rəhbəri Kamran Əsədovu müəllimlərin xüsusən ixtisas fənnindən göstərdiyi nəticələr təəccübləndirib: "Xoş olmayan nəticədir ki, qiymətləndirmədə iştirak edən müəllimlərin 30 faizi ixtisas fənnindən minimum nəticə göstərib. İmtahanda təqdim olunan 40-ı ixtisas, 20-si isə kurikulumdan olmaqla, cəmi 60 suala verilən cavablar kifayət qədər aşağıdır. Xüsusən, ixtisasa aid 40 sualdan 4-5-nə cavab vermək keçid balını toplamaq deməkdir. Buna baxmayaraq, həmin minimum cavabı belə verə bilməyən müəllimlərin olması heç də yaxşı hal deyil".

Ekspertin qənaətinə görə, diaqnostik qiymətləndirmədə uğurlu nəticə göstərənlərin faizi çox aşağıdır: "Prosesin əvvəllərində belə məlumatlar daxil olurdu ki, yüksək səviyyədə nəticə göstərən müəllimlər ümumi müəllimlərin 18 faizini, yaxşı nəticə göstərənlər 57 faiz təşkil edib. Qalanı isə ixtisası üzrə sadə sualların 50 faizinə belə cavab verə bilməyənlərdir. Lakin indi ümumi qənaətimiz belədir ki, yüksək nəticə göstərənlərin faizi bundan da aşağıdır".

### Məzunların səviyyəsinin aşağı olmasının səbəbi bəlli oldu

K.Əsədov müəllimlərin keyfiyyət göstəricilərindən birbaşa asılı olan məqamlara diqqət çəkib: "Təsəvvür edin ki, ixtisas fənnindən minimum biliyə malik olmayan müəllim dərsdə necə maksimum nəticə göstərə bilər? 2016-cı ilin buraxılış imtahanlarında IX və XI sinif şagirdləri arasında 35 min nəfərin ana dilindən "2" almasını müzakirə edirik. Ancaq bilməliyik ki, şagirdlərin bu nəticəni göstərməsi tamamilə normaldır. Axı onların müəllimləri də bu biliyə malikdir. Müəllim nə öyrədibsə, şagird də onu ortaya qoyur".

Təhsil üzrə ekspert daha bir maraqlı məqama diqqət çəkib. Onun fikrincə, abituriyentlərin verdiyi imtahanlara salınan suallar müəllimlərin qiymətləndirilməsi məqsədi ilə istifadə edilənlərdən daha çətindir: "Nəzərə almaq lazımdır ki, diaqnostik qiymətləndirmədə istifadə olunan suallar Dövlət İmtahan Mərkəzinin buraxılış və qəbul imtahanlarında tərtib etdiyi tapşırıqlardan daha asandır. Bir maraqlı faktı qeyd edim. Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi tədbirlərdən birində qeyd edildi ki, Azərbaycan dili fənni üzrə qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarını müəllimlərə veriblər. Müəllimlərin 70 faizi həmin sualları cavablandıra bilməyib".

### Kim, nə təklif edir?

Beləliklə, mənzərə göz önündədir. Müəllimlərin bir qismi nəinki müasir təhsilin tələb etdiyi parametrlər üzrə, illərdir ki, dərs dediyi ixtisas üzrə də minimum biliyə malik deyillər. Eyni cəmiyyətin üzvü olan hər kəs həmin müəllimlərin fəaliyyətinin nəticəsini hiss edir. Çünki onlar yetişməkdə olan nəsillə birbaşa əlaqədədir. Demək ki, onların fəaliyyəti hər birimizi maraqlandırmalıdır. Məktəbə uşaq göndərən valideyn qədər gələcəyini məhz təhsilin keyfiyyətində axtaran vətəndaş da narahatdır. Olmalıdır da. Axı, söhbət bütün ölkə üzrə müəllimlərin böyük bir qismindən gedir. Hansı ki, həmin müəllimlər hər birimizin gələcəyinə təsir göstərir. Bəs, hansı tədbirlər görülməlidir? Təhsil Nazirliyi daha sərt addımlar atmalıdırmı? Ən əsası, biz yetişdirdiyimiz nəslin gələcəyini, inkişafını kimlərin əlinə təslim etmək istəyirik?

K.Əsədov belə müəllimlərin onun övladına dərs deməsinin qəti əleyhinədir: "50 faizdən aşağı nəticə göstərən müəllimlər təhsil müəssisəsindən uzaqlaşdırılmalıdır. Mən istəmərəm ki, övladıma öz ixtisasından minimum bilikləri belə olmayan şəxs dərs desin".

K.Əsədovun vətəndaş, təhsil eksperti və valideyn olaraq təklif etdiyi çıxış yolları isə sərtdir: "Azərbaycan dili, xarici dil, ibtidai sinif, tarix, coğrafiya, riyaziyyat müəllimlərinin nəticələri 20 faizdən aşağıdırsa, onları təkmilləşmə kurslarına cəlb etməyə ehtiyac yoxdur. Onlar işdən birbaşa azad edilməlidir. Əmək Məcəlləsinin tələbinə uyğun olaraq, həmin müəllimlərlə əmək müqaviləsinə xitam verilməli, yerləri vakansiyaya çıxarılmalıdır. Onların yerini daha dinamik, daha perspektivli müəllimlər tutmalıdır. Bu, sosial ədalətin bərpa olunması baxımından da önəmlidir. Arzulayırlarsa, yenidən imtahana qatılaraq yüksək nəticə göstərib həmin yeri yenidən qazansınlar. Hesab edirəm ki, diaqnostik qiymətləndirmədə minimum tələbləri belə ödəyə bilməyən müəllimə güzəşt etmək gələcəyimiz üçün potensial təhlükə yaratmaqdır. Ümid edirəm onlar barədə ciddi nəticələr götürüləcək".

### Diaqnostik nəticələr - əsas qiymətləndirmə aləti

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir əvəzi E.Bağırov da hesab edir ki, qiymətləndirmənin nəticələri mütləq nəzərə alınmalıdır: "Həm diaqnostik qiymətləndirmənin keçirilməsi qaydaları ilə bağlı təşkil edilən tədbirlərdə, həm nazirlik əməkdaşlarının yerli təhsili idarəetmə orqanlarında görüşlərində səsləndirdiyimiz tövsiyə və tapşırıqlarda qeyd edirik ki, diaqnostik qiymətləndirmənin nəticələri müəssisə rəhbərlərinin əlində əsas qiymətləndirmə aləti olmalıdır. Dərs bölgüsü aparanda, mükafatlandırma tədbirlərində həmin nəticəni göz önündə tutmalıdır. Təbii ki, yüksək nəticə göstərənlər aşağı nəticə əldə edənlərlə müqayisədə daha çox dərs yükü ilə təmin olunmalıdır. Bu da müəllimin sosial rifahına təsir edən amillərdən biridir".

E.Bağırov da bu qənaətdədir ki, minimum balı toplaya bilməyən müəllimlərin dərs yükü azaldılmalı və onlar tədris prosesindən uzaqlaşdırılmalıdır: "Qiymətləndirmənin nəticələri göstərir ki, keçid balından aşağı, minimum bal toplayan müəllimlərin sayı az deyil. 10 baldan aşağı nəticə göstərənlər elə bir kateqoriyada olan müəllimlərdir ki, onların səviyyəsinin yüksəldilməsinə təlimlərlə də nail olmaq mümkün deyil. Odur ki, həmin müəllimlərin dərs yükünün minimuma endirilməsinin, hətta tamamilə azad olunmalarının tərəfdarıyıq".

# Müsahibəsiz və müsabiqəsiz

## Müəllimlərin yerdəyişməsində onların sosial statusları ilə yanaşı, diaqnostik qiymətləndirmədəki nəticələri də nəzərə alınacaq

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**



Qaydalar Azərbaycanda ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin tədris ili ərzində dəyişdirməsinə də imkan verir. Bu zaman müəllimlərin diaqnostik qiymətləndirilmədə göstərdiyi nəticə, müəssisələrin yerləşdiyi rayon və şəhər, dərs yükünün həcmi və digər amillər nəzərə alınır.

### Onlara iş yerini dəyişdirməyə icazə verilməyəcək

Nazirlər Kabinetinin 14 aprel 2010-cu il tarixli 67 nömrəli qərarı ilə tənzimlənən həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu müəssisədə işləyən gənc mütəxəssislərin nəzərdə tutulmuş müddət başa çatanadək iş yerinin dəyişdirilməsinə icazə verilmir. Xüsusi hallarda məsələyə təsdiqedici sənədlərin surəti təqdim olunmaqla fərdi qaydada Nazirlikdə baxıla bilər.

### Nə müsahibə, nə də müsabiqə olacaq

Nazirin müvafiq əmrinə görə, müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsi proqram təminatı tətbiq olunmaqla iyunun 15-dək yekunlaşmalıdır. Bu günlərdə başlayacaq proseslə bağlı "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir əvəzi Eşqi Bağırov bildirib ki, proses qaydalara uyğun gedir: "Bildiyiniz kimi, əvvəllər iş yerinin bir rayondan digər rayona, yaxud rayon daxilində bir məktəbdən digər məktəbə dəyişdirilməsi yerli təhsili idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilirdisə, yeni qaydalara əsasən, həmin səlahiyyət artıq Təhsil Nazirliyinə aiddir. Yəni, müəllimlərin bir məktəbdən başqa məktəbə keçməsi Təhsil Nazirliyi tərəfindən həyata keçirilir".

Yenilik yerdəyişmənin yerli təhsili idarəetmə orqanlarından alınıb Təhsil Nazirliyinin birbaşa səlahiyyətinə aid edilməsi ilə yekunlaşmır. Məsələ burasındadır ki, Təhsil Nazirliyi bu barədə qərarı verərkən, ötən il olduğu kimi, müəllimlərin müsabiqədə göstərdiyi nəticələrə əsaslanmayacaq. E.Bağırovun sözlərinə görə, iş yerini dəyişmək istəyən müəllim nə müsahibəyə cəlb olunacaq, nə də müsabiqədən keçəcək: "Hazırda Nazirlik tərəfindən proqram təminatı hazırlanır. Proqram təminatında hər bir namizəd öz sosial statusuyla bağlı qeydlər aparacaq. Öz iş yerinin dəyişdirilməsini müvafiq sənədlərlə əsaslandıracaq və ərizə ilə Təhsil Nazirliyinə müraciət edəcək. Həmin məlumatlar Nazirlikdə fəaliyyət göstərən İşçi Qrupda dəyərləndiriləcək və müvafiq qərar qəbul ediləcək. Bu dəyərləndirmədə müəllimlərin sosial statusu əsas götürülsə də, diaqnostik qiymətləndirmədə göstərdikləri nəticə də nəzərə alınacaq. Yerdəyişmə ailə vəziyyəti, ya da səhhəti ilə bağlıdırsa, əsas üstünlük məhz bu amilə veriləcək. Lakin bir neçə müəllim eyni vakant yeri göstərdikdə, müəllimin akademik göstəriciləri, o cümlədən diaqnostik qiymətləndirmədə göstərdiyi nəticələr nəzərə alınacaq. Digər yerdəyişmə, bir şəhər məktəbindən başqa şəhər məktəbinə yerdəyişmə də eyni qaydada - proqram təminatı vasitəsi ilə, müəllimlərin sosial statusu əsas götürülməklə, müsahibə və ya müsabiqəsiz həyata keçiriləcək".

# Məktəb icmaları "Səsli kitablar" hazırlayıb

## Görmə məhdudiyyətli uşaqların həyatını maraqlı edə bilərik

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**




2016-cı ilin sonunda xüsusi olaraq valideynlər arasında müsabiqə təşkil etdik. Müsabiqə şərtlərinə görə, məktəb icmalarının fəal iştirakçısı olan valideynlər onlar üçün maraqlı olan məsələlərlə bağlı layihələr hazırlayıb bizə göndərdilər. Məktəb həyatında görmək istədikləri, tətbiq edilməsini arzuladıqları, ancaq təkbaşına reallaşdıra bilməyəcəkləri ideyaların əksini tapdığı layihələri həmin müsabiqəyə təqdim etdilər. Bu yolla onlar maraq oyadan fikirlərinin bizim dəstəyimizlə məktəbdə tətbiqinə asanlıqla nail ola bilərdilər. Odur ki, müsabiqəyə onlarla belə ideya daxil oldu. "community.az" portalında elan etdiyimiz fikir yarışında seçim meyarları kreativ, maraqlı, təkrar olunmayan, yaradıcı və faydalı ideya idi. Həmin meyarlara uyğun gəldiyini düşündüyümüz 10 müəllifi seçib mükafatlandırdıq. Bu layihədə əsas tərəfdaşımız olan Accessbank 3 qalibə 500 AZN-lik kart hədiyyə etdi. Fərqlənənlərə müxtəlif hədiyyələr təqdim olundu. Ən əsası, valideynlərə söz verdik ki, 10 ideyanın hamısı 2017-ci ilin sonuna qədər reallaşdırılacaq".

Qeyd edək ki, sözügedən ideyanın müəllifi İsmayıllı şəhərində yerləşən 1 nömrəli orta məktəbin musiqi müəllimi Surə Mehdiyevadır. Övladı da həmin məktəbdə təhsil alan S.Mehdiyeva məktəb icmasının üzvü olan fəal valideynlərdəndir.

Layihə çərçivəsində görülən işlərdən danışan N.Əliyeva hər addımda cəmiyyətə sosial ismarış ötürməyə çalışdıqlarını vurğulayıb: "İlk addım olaraq bir sosial videoçarx hazırladıq. Həmin videoçarxda bir fikir irəli sürüldü. Görmə məhdudiyyətlilərin çətin olan həyatını asanlaşdıra bilməsək də, onu maraqlı edə bilərik. Elə bir iş görə bilərik ki, onları sadəcə sevindirməsin, həm də məşğul etsin. Cəmiyyətimizi bu cür layihələrlə belə uşaqlara kömək etməyə çağırdıq. Sosial çarxda bu layihə ilə görmə məhdudiyyətli uşaqların mütəmadi yararlana biləcəkləri iş ortaya qoymaq istədiyimizi qeyd etdik".

Beləliklə, layihə çərçivəsində 1000 kitab hazırlanıb. Həmin kitablar görmə məhdudiyyətli uşaqların təhsil aldığı Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbin şagirdlərinə paylanacaq. Kitablardan Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Respublika Gözdən əlillər kitabxanasına da bir neçə nüsxə veriləcək. N.Əliyeva onu da qeyd edib ki, səsli kitablar ölkədəki görmə məhdudiyyətli uşaqların hamısına çatmasa da, onun elektron variantından hamı istifadə edə biləcək: "Kitabın elektron variantını öz portalımızda yerləşdirməyi planlaşdırırıq. Yəni disk olmadan, sadəcə internet imkanı olan hər kəs səsli kitabların istifadəçisi ola biləcək. Odur ki, əslində, disklərin nə qədər hazırlanmasının elə də əhəmiyyəti yoxdur. Kitabın elektron variantının portala da yerləşdirilməsi ondan daha çox insanın faydalanmasını təmin edəcək".

Communty.az portalı böyük yaddaş həcminə malik olmadığından elektron variantın yerləşdirilməsi bir müddət sonra reallaşacaq: "Kitabların yerləşdirilməsi və onun asanlıqla açılıb dinlənilməsi üçün portalda bəzi işlər görülməlidir. Tezliklə portal yenilənəcək".

Qeyd edək ki, səsli kitabların hazırlanması ölkəmizdə ilk təcrübə deyil. Ancaq indiyədək hazırlanan həmin kitablar artıq köhnəlib və çoxu istifadəyə yararsızdır. Odur ki, mövcud olan kitabların tirajı artırılaraq yenilənib.

# "Made in Azerbaijan 2017" biznes ideya müsabiqəsinin qalibləri müəyyən edilib

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, "Kapital Bank" ASC və UNEC-in birgə təşkilatçılığı ilə tələbələr arasında keçirilən "Made in Azerbaijan 2017" biznes ideya müsabiqəsinin qalibi müəyyən edilib.

Müsabiqənin təşkilində məqsəd Prezident İlham Əliyevin 18 yanvar 2016-cı ildə "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək, tələbələr arasında sahibkarlıq fəaliyyətinə marağı təbliğ etməkdir.

Biznes ideyalar hazırlanarkən onların sərəncama və müsabiqənin missiyasına uyğunluğu, layihənin daxili bazarda tətbiqinin reallığı, sadələşdirilmiş və biznes ideya səviyyəsində maliyyə planı, aktuallığı və kreativliyi nəzərə alınıb.

Müsabiqəyə qatılmaq istəyən tələbələr biznes ideyalarını elektron formatda www.unec.edu.az/biznesideya2017 səhifəsi vasitəsilə, yaxud biznesideya@unec.edu.az email ünvanına göndəriblər. Müsabiqədə 6 universitetin 34 tələbəsi iştirak edib. Ekspert Şurası təqdim edilən 34 biznes ideyanı dəyərləndirərək 6 finalçı müəyyənləşdirib.

"Made in Azerbaijan 2017" müsabiqəsinin final mərhələsində 6 finalçı biznes ideyalarını münsiflər heyəti qarşısında nümayiş etdirib.

UNEC-in IV kurs tələbəsi Fəqan Çələbizadə ilə Milli Aviasiya Akademiyasının II kurs tələbəsi Emil Hacıyevin birgə hazırladığı "Bavel ilə dil baryerini yox et!" layihəsi müsabiqənin qalibi olub. II yerə Bakı Dövlət Universitetinin IV kurs tələbəsi Günay Abdullayevanın "TechSOS" layihəsi, III yerə isə UNEC-in II kurs magistri Aytac Şeyixovanın "Sənayedə yosun bitkisinin tətbiqi, biznesi və perspektivi" layihəsi layiq görülüb.

"Made in Azerbaijan 2017" biznes ideya müsabiqəsinin qalibinə 2000, II yerə 1500, III yerin sahibinə isə 1000 AZN məbləğində mükafat təqdim edilib.

Finalçılar - UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin II kurs tələbəsi Eşqin Cəfərov "Bron Stadium", iqtisadiyyat fakültəsinin I kurs tələbəsi Fatimə Məsimli "Kənd-Yaşıl Turizmin İnkişafı", maliyyə və mühasibat fakültəsinin III kurs tələbəsi Aqil Həsənov isə "CleanS" biznes ideyalarına görə "Kapital Bank"ın xüsusi hədiyyələrini alıblar.

# Bilik Fondu rusiyalı politoloqun təşkil etdiyi "Xocalı petisiyası"nın təqdimatını keçirib

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun lektorlar qrupunun üzvü, Rusiyanın tanınmış tarixçisi, siyasi xadim Oleq Kuznetsovun Xocalı faciəsinin soyqırım cinayəti kimi tanınması ilə bağlı Rusiya Dövlət Dumasının üzvlərinə ünvanlandığı petisiyanın Azərbaycan Texnologiya Universitetində təqdimatı keçirilib.

Təqdimat mərasimində Bilik Fondunun əməkdaşları, ATU-nun professor-müəllim heyətinin üzvləri və tələbələr iştirak edib.

Tədbirdə ATU-nun professor-müəllim heyətinin üzvləri erməni terrorizminin, xalqımıza qarşı törədilən cinayətlərin dolğun və həqiqətlərə uyğun şəkildə dünya ictimaiyyətinə çatdırılmasının vacibliyi haqqında danışıb.

Sonra çıxış edən O.Kuznetsov uzun müddət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərini, erməni terrorizminin mahiyyətini və Azərbaycanın dinc əhalisinə qarşı törədilən cinayətləri tədqiq etdiyini söyləyərək, Xocalı soyqırımının Rusiya Dumasında tanınması üçün ATU-nun bütün kollektivini https//www.cvhange.org saytında yaradılmış petisiyaya qoşulmağa çağırıb. Bilik Fonunun əməkdaşları petisiyada səs verməyin qaydasını izah ediblər. Qeyd olunub ki, səsvermədə iştirak etmək üçün https//www.cvhange.org saytına daxil olaraq axtarış yerinə "Олег Кузнецов" yazmaq lazımdır. Xocalı faciəsinin soyqırım cinayəti kimi tanınması ilə bağlı petisiyaya daxil olduqdan sonra ad, soyad, email ünvan, ölkə, şəhər və şərh yerini dolduraraq, imzalamaq düyməsinə basmaq vacibdir. Səs verdikdən sonra nəticənin şəklini çəkib, XOCALİ-PETİSİYA@-mail.ru ünvanına göndərmək lazımdır. Petisiyanın qəbulu üçün ümumilikdə 200.000 səsin toplanması tələb olunur.

Tədbirin sonunda ATU-nun müəllim və tələbə kollektivinin nümayəndələri çıxış edərək erməni terroru haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdığına görə O.Kuznetsova minnətdarlıq edib, bu aksiyaya hamılıqla qoşulacaqlarına söz veriblər.

# Tələbələrimiz erməni təxribatının qarşısını alıb




⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## Aqil Mübariz, Çinin Mərkəzi Pedaqoji Universitetinin magistri: "Ermənistan pavilyonunda Azərbaycanın işğal olunmuş ərazilərinə məxsus şəkillər stenddən çıxarıldı"

### "Stresin aradan qaldırılması üçün təlimlər təşkil etmişəm"

Orta məktəb illərində bir çox fənlərə böyük maraq göstərmişəm. Tarix, biologiya, kimya, fizika, ingilis və rus dillərinə daha həvəslə yanaşmışam. İxtisasca psixoloqam və hazırda bu sahə üzrə təhsilimi davam etdirirəm. Qeyd edim ki, universitet illərində ixtisasımla bağlı müxtəlif yerli və beynəlxalq tədbirlərdə iştirak etmişəm. Hələ GDU-da oxuduğum zaman Gəncə şəhərində yayımlanan Kəpəz TV-də bir çox müsahibələr vermişəm, bir neçə dəfə verilişlərə qonaq dəvət olunmuşam. İsveçdə belə bir qayda var - tələbələr bakalavr pilləsini bitirən kimi dərhal magistraturada oxumaq barədə düşünmürlər. Onlar daha çox öz ixtisaslarına və ya maraqlarına uyğun işlə məşğul olmağı üstün tuturlar, hansı ki, bu, onlara öz hədəflərini dəqiq cızmağa kömək edir. Mən də eynilə bu cür addım atdım. Universiteti bitirəndən sonra ixtisasımla bağlı bir çox dövlət və özəl qurumlara baş vurdum. Sonda isə Təhsil Nazirliyində işə qəbul olundum. Burada iki il işlədikdən sonra artıq magistratura təhsili almaq qərarına gəldim. Təhsil Nazirliyində işləyən zaman rəhbərliyin dəstəyi ilə əməkdaşlar arasında bir sıra müsahibə və fərdi söhbət aparmışam, işçilərin iş qabiliyyətlərinin təyin edilməsi, işdəki stresin aradan qaldırılması üçün müəyyən təlimlər təşkil etmişəm. Bundan əlavə, yeni işçilərin qəbulu prosesində iştirak edib bu barədə öz rəyimi bildirmişəm. Təhsil Nazirliyində ikiillik fəaliyyətim mənim təşkilati psixologiya üzrə təhsilimi davam etdirməyimə səbəb oldu.

### Universitetlə ciddi danışıqlar apararaq təxribatın qarşısını aldıq

İlk olaraq qeyd edim ki Çinin Uxan şəhərində 5 azərbaycanlı tələbə təhsil alır. Onlardan 4-ü - Camal Ağarzayev, Cavidə Əliyeva, Aqil Əliyev və mən dövlət xətti ilə, Sevinc Qacarova isə öz hesabına təhsil alır. Təhsil aldığımız ali məktəbdə hər il ildən bir beynəlxalq tələbə mədəniyyət festivalı keçirilir. Bu il tədbir mayın 20-də keçirildi. Biz isə bu tədbirə aprel ayından hazırlaşmağa başladıq. Onu da qeyd edim ki, burada erməni tələbələr də təhsil alırlar. İlk əvvəl biz Camal Ağarzayevlə xarici tələbələr mərkəzinə Ermənistanın Azərbaycanın tarixi torpaqlarını işğal etdiyini və hazırda da bu ərazilərin işğal altında olduğunu bildirdik. Çin isə BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu barədə məlumatdan sonra ofisin əməkdaşları bizi məsələ ilə bağlı dəvət edəcəklərini bildirdilər. Məlumat üçün deyim ki, festivalda hər bir ölkənin ayrıca pavilyonu olur və pavilyonda ölkənin ərazi bütövlüyünü, tarixini və mədəniyyətini əks etdirən şəkillər nümayiş olunur. Biz əvvəlcədən baş verə biləcək təxribatın qarşısını almaq üçün ofisə bildirdik ki, ermənilər festivalla bağlı şəkilləri ofisin kompüterinə yerləşdirəndə bizi dəvət edin. Tələbəmiz Camal Ağarzayevə zəng vuraraq ofisə dəvət etdilər ki, həm Azərbaycan pavilyonu üçün şəkilləri gətirsin, həm də ermənilərin yüklədiyi şəkillərə baxsın. Gözlənildiyi kimi, ermənilər bu dəfə də öz mənfur əməllərindən geri qalmayaraq Dağlıq Qarabağı öz əraziləri kimi təqdim edərək Ermənistan ərazisinə birləşdirilmiş şəkildə xəritə tərtib etmişdilər. Festivalın təşkilatçılarına tərəfimizdən dərhal etiraz bildirildi, oraya erməni tələbələr dəvət olundu və onlar bunu inkar etdilər. Mərkəzin əməkdaşı isə bunu araşdıracağına söz verdi. Mən isə hələ aprel ayından Azərbaycanın Çindəki səfirliyi ilə əlaqə yaradaraq tədbirlə bağlı ölkəmizin tarixi və mədəniyyətinə aid kitab və jurnallarla bizi təmin etməsini xahiş etmişdim. Ölkəmizin Çindəki səfirliyinin xarici işlər vəkili Metin Mirzəzadə ilə əlaqə saxladım, bu məsələ ilə bağlı ətraflı məlumat verdim. Növbəti gün hamımız bir nəfər kimi fakültəmizin dekan müavini ilə görüşərək mövcud məsələni izah etdik. Aprel ayından may ayının 19-na kimi səfirliklə hər gün əlaqə saxlayaraq universitet rəhbərliyinin hələ də sözlərinə əməl etmədiyini, ermənilərin isə yenə digər təxribatlara əl atdıqlarını bildirdim. Dekan müavini isə artıq səfirliklə danışdığını və lazımi tədbirin görüləcəyini bildirdi. Elə həmin gün artıq səfirlikdən universitetlə danışıqlar aparıb bu məsələ ilə bağlı lazımi tədbirlər görüləcəyinə söz verildi. Nəhayət, ayın 19-da xarici tələbələr mərkəzinin dekanı ilə danışıqlardan sonra Ermənistan pavilyonunda Azərbaycanın işğal olunmuş ərazilərinə məxsus bütün şəkillər stenddən çıxarıldı. Tələbəmiz Camal Ağarzayevin dekanla və mənim səfirliklə mütəmadi danışıqlarım, ermənilərin bu əməlləri barədə əvvəlcədən məlumat verməyimin nəticəsində problem öz həllini tapdı. Səfirliyimizin xarici işlər vəkili M.Mirzəzadə bu işdə bizə dəstək oldu. Universitetlə ciddi danışıqlar apararaq bu təxribatın qarşısını aldıq. Tələbə Aqil Əliyevin Azərbaycan milli geyimini nümayiş etdirməsi isə hər kəs tərəfindən maraqla qarşılandı. Hər kəs tələbəmizlə şəkil çəkdirirdi.

Tədbir zamanı bizim digər tələbələrimiz - Sevinc Qacarova və Cavidə Əliyeva milli mətbəximizdən olan dolma və qutab bişirdilər. Bütün xaricilər, o cümlədən çinlilər dolmanı çox bəyəndilər. Tədbirin sonunda indoneziyalı və çinli tələbələr dolmanın bişirilmə qaydası haqqında məlumat alırdılar. Qeyd edim ki, Azərbaycan stendində milli xörəklərimizdən əlavə, Azərbaycan şərablarının da nümayişini reallaşdırmışdın. Axtarışlarımın nəticəsində Çində fəaliyyət göstərən həmvətənlərimizi tapıb Uxan şəhərinə dəvət etdim. Azərbaycan şərabları çinli, Macarıstan, ABŞ-dan olan tələbələr tərəfindən çox bəyənildi.

### 59 ölkənin iştirak etdiyi festivalda ölkəmiz qalib gəldi

Hər kəs ölkəmiz haqqında maraqlanırdı. Tədbirin sonunda festivalın təşkilat komitəsinin qərarına əsasən Azərbaycan pavilyonu "Ən yaxşı ölkə təqdimatı" nominasiyasının qalibi oldu. Ermənilərin bu təxribatını aşkar edəndən sonra bu məlumat sürətlə digər xarici tələbələr arasında yayıldı. Hər kəs bu barədə maraqlanırdı. Biz isə işğal olunmuş torpaqlarımız barəsində acnəbi tələbələrə məlumat verirdik. Qarabağ həqiqətlərini tələbələrə izah edəndə onlar belə bir vəhşiliyin ola biləcəyinə inana bilmirdilər. Qeyd edim ki, 59 ölkənin iştirak etdiyi festivalda ölkəmiz qalib gəldi. Bundan əlavə, bildirim ki, mayın 21-də Pekin Dillər və Mədəniyyət Universitetində də eyniadlı tədbir təşkil edildi. Təsadüfən xarici bir tələbənin online çəkilişi zamanı aşkar olundu ki, Ermənistan pavilyonunda qondarma "Dağlıq Qarabağ Respublikası"nın bayrağını və digər məlumatların nümayiş etdirirlər. Dərhal orada təhsil alan tələbəmizlə əlaqə saxlayaraq ona bu məsələ ilə bağlı təşkilat komitəsinə məlumat verməsini, sonra isə xarici tələbələr mərkəzinə gedərək Azərbaycanın ərazi bütövlüyü barədə məlumatı çatdırmasını izah etdim. Ardınca bazar günü olmasına baxmayaraq səfirliklə dərhal əlaqə saxlayıb faktla bağlı məlumatı bildirdim. Səfirliyin universitetlə apardığı danışıqlardan sonra bütün təxribat xarakterli məlumatlar erməni pavilyonundan yığışdırıldı. Universitetin məsul işçisi Azərbaycan diplomatı ilə telefon danışığında baş vermiş hadisəyə görə üzrxahlıq etdi, gələcəkdə bu cür halların təkrar olunmayacağını dedi.

---

May Azərbaycan xalqının XX əsr tarixində ən əlamətdar, ən fəxarətli, uğurlu hadisələrlə, gözəl bayramlarla zəngin bir aydır. Bu gözəl may günlərinin biri - respublikamızın hər yerində təntənəli şəkildə qeyd olunan, öyrənilən, yenidən yaşanan və ölməzlik qazanan 28 May Respublika Günü - Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Azərbaycan tarixi fənninin proqramında bu tarixlə bağlı bir sıra mövzular vardır ki, onlar təkcə tarixi öyrənib bilmək baxımından deyil, həm də vətənpərvərlik tərbiyəsi üçün çox əhəmiyyətlidir.

# 28 May Respublika Günü tədrisdə

## Qürur duyduğumuz müstəqillik tariximizi şagirdlərə necə öyrədirəm

İlqar ABDULLAYEV,
*Bakı şəhəri MLK-nın tarix müəllimi, əməkdar müəllim*

Mən həmin mövzuları tədris edərkən bunu nəzərə alır, onlardan şagirdlərin vətənpərvərlik tərbiyəsi vasitəsi kimi istifadə edirəm. Məsələn, V sinif "Azərbaycan tarixi" dərsliyində "Bir dəfə yüksələn bayraq" mövzusunu tədris edərkən göstərirəm ki, əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində - bu işıqlı may günündə arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Buradaca bildirirəm ki, Gəncə şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı elan edildi. Beləliklə, xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi.

IX sinifdə "Azərbaycan Demokratik Respublikasının yaranması" mövzusunu keçərkən də şagirdlərə bildirirəm ki, 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olub. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Bəli, tarix XX əsrin əvvəllərində Azərbaycan xalqı üçün misilsiz bir hədiyyə bəxş etdi. 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycanda müstəqil dövlətin-Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olundu.

Şagirdlərə bildirirəm ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək olan müddətdə - cəmi 23 ay mövcud olmuşdur. Lakin bu qısa müddətdə çox işlər həyata keçirildi. Hər şeydən əvvəl, öz milli dövlətçiliyinə qovuşmuş xalqımız istiqlalın nə demək olduğunu bir daha gördü, onun şirinliyini daddı. Bu dövlətin yaradıcıları olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, Ə.Topçubaşov, H.Ağayev və başqa vətənpərvər istiqlalçılar gecəni gündüzə qataraq milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər.

Yenə IX sinifdə "Azərbaycan tarixi" dərslərində "Azərbaycan Demokratik Respublikasının yaradılması" mövzusunu tədris edərkən şagirdlərə bildirirəm ki, nəhayət, 1920-ci il yanvarın 11-də Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi dünya dövlətləri tərəfindən de-fakto qəbul edildi. Tam cəsarətlə demək olar ki, bu hadisələrlə artıq xalqımızın tarixində yeni bir səhifə açılırdı. Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal Bəyannaməsi" yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. "Bəyannamə"də elan edilmiş prinsiplər- Azərbaycan xalqının öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə hörmətlə yanaşmaq prinsipləri AXC-nin beynəlxalq nüfuzunu artırdı. "İstiqlal Bəyannaməsi" Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. "İstiqlal Bəyannaməsi" bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun - parlamentli respublikanın yaradıldığını xəbər verirdi.

Mövzunun tədrisi zamanı şagirdlərə bildirirəm ki, Birinci Dünya müharibəsinin gedişində və Romanovlar sülaləsinin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi. Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Rus generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri isə Şərqi Anadolunun və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı soyqırımını davam etdirirdilər. Azərbaycan xalqının cəlladları olan Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasında rəqabət son həddinə çatmış, bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü yaxınlaşmışdı. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdilər. Şagirdlərə bildirirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrünü şərti olaraq üç mərhələyə bölmək olar:

1. Tiflis dövrü (1918-ci il 28 may-17 iyun);
2. Gəncə dövrü (1918-ci il 16 iyun-17 sentyabr);
3. Bakı dövrü (1918-ci il 17 sentyabr - 1920-ci il 28 aprel).

Bu müddət ərzində dövlət quruculuğunun bütün sahələrində çox mühüm tədbirlər həyata keçirildi. AXC-nin mövcudluğu dövründə beş hökumət kabineti fəaliyyət göstərmişdir. Bunların üçünə F.X.Xoyski, ikisinə isə N.Yusifbəyli başçılıq etmişdir. Bu müddət ərzində o dövrlər üçün çox böyük işlər görüldü. Azərbaycanın üçrəngli, ay-ulduzlu Dövlət bayrağı qəbul edildi. Azərbaycan-türk dili dövlət dili elan olundu. Məktəblər milliləşdirildi. Bakı Dövlət Universiteti fəaliyyətə başladı. İlk milli muzey - "İstiqlal" muzeyi təşkil olundu. Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul edildi. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Azərbaycan Milli Ordusu və Hərbi Dəniz Donanması təşkil olundu. Ölkəmizin ərazi bütövlüyü qorunub saxlandı. Bütün təbii sərvətlərin xalqa mənsubluğu haqda qərar qəbul edildi. Daha sonra himnimiz, gerbimiz və dövlət bayrağımız qəbul olundu. Azərbaycan bütün sahələrdə beynəlxalq sazişlərə imza atmağa başladı, müstəqil inkişaf yoluna qədəm qoydu.

"İstiqlal Bəyannaməsi" ilə Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları - parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

IX sinifdə "Azərbaycan Demokratik Respublikasının yaradılması" mövzusunu tədris edərkən şagirdlərimə onu da bildirirəm ki, 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə bu ittifaqı təsbit etməli idi. Sonralar, 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunmuş, milli sərvətləri çapılıb talanmışdır. Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmış, onun milli ləyaqəti tapdalanmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirmişdir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə də bu mübarizənin yekunu olmuşdur. 1991-ci il oktyabrın 18-i isə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunduğu gündür.

Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranarkən xalqın təkidli çağırışı ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Çiçəklənmə, iqtisadi inkişaf dövrü başlandı.



## Professor Yəhya Şəfi oğlu KƏRİMOV - 90

# İbtidai təhsilin fədaisi

**Faiq ŞAHBAZLI,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Pedaqoji Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent,*

**Akif ABBASOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor*

Pedaqoji elmlər doktoru, professor, respublikanın əməkdar müəllimi, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Yəhya Şəfi oğlu Kərimovun anadan olmasının 90 ili və elmi-pedaqoji fəaliyyətinin 75 illiyi tamam olur.

Yəhya Kərimov 1927-ci ildə alimlər məskəni olan Qax rayonunun İlisu kəndində anadan olub, burada boya-başa çatıb.

Qax orta məktəbində təhsilini başa vuraraq, Şəki Pedaqoji Texnikumuna daxil olub, həmin texnikumu bitirdikdən sonra pioner baş dəstə rəhbəri kimi əmək fəaliyyətinə başlayıb, 16 yaşında rayon komsomol komitəsində şöbə müdiri kimi fəaliyyətini davam etdirib. 1945-ci ildə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Şəki şəhərində yerləşən kursunu bitirib sinif müəllimi işləyib.

1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsilini başa vuraraq, Quba Müəllimlər İnstitutuna müəllim təyin edilib. Sonralar Qazax və Şəki şəhərlərindəki müəllimlər institutlarında Azərbaycan dili, pedaqogika, pedaqogika tarixi, psixologiya və məntiq fənlərindən dərs deyib, özünü bacarıqlı bir pedaqoq kimi təsdiq edib.

1955-ci ildən taleyini Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutuna (hazırda Azərbaycan Respublikasının Təhsil İnstitutu) bağlayıb. İnstitutun aspiranturasında təhsil alıb, kiçik elmi işçi, şöbə müdiri işləyib, 1976-cı ildən 2015-ci ilədək elmi işlər üzrə direktor müavini, Nəzəri tədqiqatlar mərkəzinin direktoru vəzifələrində çalışıb. Hazırda institutun baş elmi məsləhətçisidir.

Yəhya müəllimin 1962-ci ildə "İbtidai sinif şagirdlərinin nitqindəki şivə xüsusiyyətləri və onların aradan qaldırılması yolları" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası üzrə müdafiə edilən ilk namizədlik dissertasiyası idi. Gənc alim həmin ildən etibarən ibtidai təhsilin elmi-nəzəri problemlərini daha sistemli və məqsədyönlü şəkildə və vaxtaşırı araşdırmaqda davam edib.

O, "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" mövzusunda doktorluq dissertasiyasını 1975-ci ildə müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər doktoru elmi dərəcəsi alıb.

Uzun illər respublikamızda maarif naziri olmuş akademik Mehdi Mehdizadə Yəhya Kərimovu "ibtidai təhsilin fədaisi" adlandırırdı. Bu, heç də təsadüfi deyildi. Azərbaycanda ibtidai təlimin elmi əsaslar üzrə qurulması və inkişafı Yəhya müəllimin adı ilə bağlıdır. O, uzun illər ibtidai məktəbdə təlim və tərbiyə işlərinin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərib, praktikadan nəzəriyyəyə, nəzəriyyədən praktikaya aparan uzun yolun yolçusu olub. Yəhya müəllim minlərlə müəllimin zəkasını nurlandırıb, bütün şüurlu həyatını böyüməkdə olan nəslin təlim və tərbiyəsinə həsr edib. Ləyaqətli vətəndaş mövqeyi nümayiş etdirərək, Azərbaycan dilinin təmizliyi, saflığı keşiyində dayanıb. O, respublikamızda savad təliminin nəzəri və praktik məsələlərini tədqiqata cəlb edən və onun sistemini işləyib hazırlayan mütəxəssis kimi tanınır.

Professor Yəhya Kərimov ölkəmizdə təhsil sahəsində aparılan kütləvi eksperimentlərin öncüllərindən olub. Onun təşəbbüsü və rəhbərliyi altında 1964-1965-ci illərdə 20 şəhər və kənd məktəbində eksperimentlər qoyulub, iştirakı ilə proqram və dərsliklər, dərsliklərə metodik rəhbərliklər hazırlanıb, 1969-1970-ci tədris ilində kütləvi şəkildə üçillik təlimə keçilib.

1972-ci ildə altıyaşlıların məktəbəqədər tərbiyə müəssisələrində və ailədə məktəbə hazırlanmaları üzrə eksperimental tədqiqatlara başlanıb. Yəhya müəllim, adəti üzrə həmin tədqiqatların rəhbərlərindən biri olub. Nəhayət, 1977- 1992-ci ildən 7 yaşdan başlanan üçillik təlim sistemi dayandırılıb və ölkəmizin ümumtəhsil məktəblərində təlimə 6 yaşdan başlanılıb. Yeni sistemin həm proqramları, həm də dərslikləri professor Y.Kərimovun rəhbərliyi və iştirakı ilə hazırlanıb. Beşgünlük tədris həftəsinə keçilməsi (1980-1984-cü illər), 5 yaşlıların təlimə cəlb edilməsi sahəsində eksperimental tədqiqatlara da Yəhya müəllim rəhbərlik edib.

Yəhya müəllim respublikamızın şəhər, rayon və kənd məktəblərini qarış-qarış gəzib, irəli sürdüyü nəzəri ideyaların məktəblərdə tətbiqinə nail olub. Elə bir məktəb yoxdur ki, orada təhsil müəssisəsi rəhbəri, müəllimlər, xüsusən ibtidai sinif müəllimi onu tanımasın. Onlar Yəhya müəllimin dəyərli məsləhətləri, əsərlərinin köməyi ilə təlim prosesini optimallaşdırıb və təkmilləşdirib.

Daim axtarışda olan professor Yəhya Kərimovun tədqiqatları təkcə pedaqogikanın ümumi məsələləri ilə məhdudlaşmır, o, eyni zamanda təbiətşünaslıq, ətraf aləmlə tanışlıq, musiqi və rus dilinin tədrisi ilə əlaqədar araşdırmalar aparıb, dərslik və dərs vəsaitləri yazıb. Yəhya müəllim Dağıstandakı Azərbaycan məktəbləri, Azərbaycanda yaşayan milli azlıqların ibtidai məktəbləri üçün də proqram və dərsliklər hazırlayıb.

Professor Yəhya Kərimov dərin təfəkkürə və məntiqə, yüksək nitq mədəniyyətinə malik alimdir.

O, yüzlərlə elmi əsərin, o cümlədən "Savad təlimi", "İbtidai siniflərdə inşalar", "Altıyaşlıların məktəbə hazırlanmasının nəzəri və praktik problemləri", "Əlifba dərsliyinin tətbiqi prinsipləri", "Elmi tədqiqat metodları", "İbtidai təlim: problemlər, vəzifələr", "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları", "Təlim metodları", "Uşaq bağçalarında nitq inkişafı", "İbtidai siniflərdə yazılı inşalar", "Hüsnxət təliminin metodikası", "İslam dəyərləri işığında", "İbtidai siniflərdə leksik işlər", "Uşaq məktəbə gedir", "I sinifdə islahat", "Ana dilinin tədrisi metodikası", "Yazı təliminin bəzi məsələləri", "Məktəblinin orfoqrafiya lüğəti", "İbtidai siniflərdə orfoqrafik çalışmaların sistemi", "İbtidai siniflərdə öyrədici yazılar" və s. kitab, kitabça və monoqrafiyaların müəllifidir. Alimin "Seçilmiş əsərlər"inin 10 cildliyi işıq üzü görüb.

O, uşaq bağçaları üçün "İlk addımlar" (professor Ə.Ə.Əlizadə ilə birlikdə, 1968), altıyaşlılar üçün "Qönçə" (1986) adlı dərs vəsaiti də hazırlayıb nəşr etdirib.

İbtidai siniflərin "Əlifba", "Ana dili", "Oxu", "Azərbaycan dili" dərsliklərini 30-40 il ərzində, həmin dərsliklərə aid metodik göstərişləri, iş dəftərlərini, "Hüsnxət"i, tədris proqramlarını Yəhya müəllim hazırlayıb.

Uzun illərdir ki, ali məktəblərdə onun "Ana dilinin tədrisi metodikası" və "Azərbaycan dilinin tədrisi metodikası" dərsliklərindən istifadə olunur.

Pedaqoji ictimaiyyət, respublika alimləri və pedaqoqları arasında professor Yəhya Kərimovun xüsusi hörmət və nüfuzu var. Dövlətimiz və hökumətimiz də onun fədakar əməyini lazımınca qiymətləndirib.

Yəhya müəllim müxtəlif yığıncaqlarda, elmi konfranslarda, "dəyirmi masa" arxasında məruzə və çıxışlarında, görüşlər zamanı öz orijinal fikirlərilə dinləyicilərini düşündürür, onlara təhsilin inkişafı, təlim-tərbiyə prosesinin düzgün təşkili yollarını göstərir.

Yəhya müəllim hələ ittifaqa daxil olduğumuz illərdə Qırmızı Əmək Bayrağı ordeni, "Lenin" yubiley medalı, "Əmək veteranı" və "Fədakar əməyə görə" xatirə medalları, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı, Azərbaycan SSR və Dağıstan MSSR maarif nazirliklərinin Fəxri fərmanları, SSRİ və Azərbaycan SSR maarif əlaçısı döş nişanlarına layiq görülüb.

Müstəqilliyə qovuşduğumuz illərdə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Əməkdar müəllim" fəxri adına, Prezident təqaüdünə layiq görülüb, "Şöhrət" ordeni ilə təltif olunub.

Yəhya müəllim elmi mübahisələri xoşlayan alimdir. O, fikir orijinallığı ilə seçilir. Elmdə yorğunluğun, dincəlməyin nə olduğunu bilmir. Yəhya müəllim zəngin elmi potensiala və yaradıcılıq enerjisinə malik bir pedaqoqdur. Bu onu göstərir ki, o, bundan sonra da öz tədqiqatlarını davam etdirəcəkdir.

Yəhya müəllim elmi işdə tələbkarlığı ilə fərqlənir. Bu tələbkarlıq gənc tədqiqatçılara, doktorant və dissertantlara qayğıdan, xeyirxahlıqdan irəli gəlir.

Professor Yəhya Kərimov Azərbaycanda pedaqogika elminin görkəmli nümayəndəsi, fənlərin tədrisi metodikası, xüsusən Azərbaycan dilinin tədrisi metodikası kimi ümdə elm sahəsinin mahir bilicisi və səriştəli tədqiqatçısı kimi tanınır. Mübaliğəsiz deyə bilərik ki, son yarım əsrdə respublikamızda məktəbəqədər və ibtidai təhsilin aktual problemlərinə onun kimi yaxından bələd olan ikinci şəxsə az təsadüf edilər.

O, 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalının (hazırda "Məktəbəqədər ibtidai təhsil" jurnalı adlanır) redaktorudur.

Professor Yəhya Kərimov elmi və pedaqoji kadrların hazırlanması sahəsində də səmərəli fəaliyyət göstərmişdir. Hazırda da bu xeyirxah işini davam etdirir. Onlarla fəlsəfə və elmlər doktoruna rəsmi opponenti kimi rəy verib, 50-dən artıq fəlsəfə doktoru və elmlər doktoru yetişdirib.

Azərbaycan Dövlət Pedaqoji Universitetində, Özbəkistan Pedaqoji Universitetində, Qazaxıstan Elmi-Tədqiqat Pedaqoji İnstitutunda, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda, Bakı Musiqi Akademiyasında fəaliyyət göstərmiş dissertasiya şuralarının sədri, həmsədri, sədr müavini və üzvü kimi yüksəkixtisaslı alimlərin hazırlanmasında yaxından iştirak edib.

Pedaqogika üzrə elmlər doktoru, professor Yəhya Şəfi oğlu Kərimov uzun bir ömür yolu keçib.

Bütün kollektivimiz adından Yəhya müəllimə cansağlığı, yaradıcılıq uğurları arzulayırıq!!! 90 yaşınız mübarək, Yəhya müəllim!

"Müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir", - belə deyirlər... Məhz öz sənətinin fədaisi olan, ən başlıcası, uşaqları sevməyi və onlara həyatda düzgün yol göstərməyi bacaran, müəllimlik missiyasını layiqincə yerinə yetirən insanlar müqqəddəs sayıla bilərlər. Ağsu rayonu Arif Cəbiyev adına Bico kənd tam orta məktəbinin direktoru, uzunillik təcrübəyə malik Yaşar Qarayev də bu fikirdədir ki, gənc nəslin formalaşmasında müstəsna rol oynayan müəllim yüksək nüfuz sahibi olmaqla bərabər hərtərəfli bilik və bacarığı ilə də fərqlənməli, ətrafındakılara bir nümunə olmalıdır.

Maraqlıdır, respublikamızın kənd məktəbindən bugünkü müasir Azərbaycan təhsili necə görünür? Təhsil Nazirliyinin gördüyü məqsədyönlü işlər, tətbiq olunan yeniliklər, təhsilin keyfiyyətinin yüksəldilməsinə hesablanan müxtəlif layihə və proqramlar, həyata keçirilən digər tədbirlər haqqında yazımızın qəhrəmanı olan 64 yaşlı qocaman təhsil işçisi nə fikirdədir? Rəhbərlik etdiyi təhsil müəssisəsində hansı məsələlər diqqətdə saxlanılır? Onunla söhbətimiz məhz bunlarla bağlı oldu.

# "Müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir"

**Samirə KƏRİMOVA**

### Hər zaman göz önündə olmağı bacaran təhsil işçisi

1953-cü il iyulun 19-da Ağsu rayonunun Bico kəndində anadan olub Yaşar müəllim. Bico kənd orta məktəbini əla qiymətlərlə bitirərək 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) tarix fakültəsinə daxil olub. Oxuduğu illərdə ali məktəbin ictimai tədbirlərində yaxından iştirak edib, qrup nümayəndəsi olub, institut tələbə elmi cəmiyyətinin fəal üzvlərindən sayılıb. Əlaçı tələbə kimi isə "Təhsil əlaçısı" döş nişanı ilə təltif olunub. 1975-ci ildə ali məktəbi bitirdikdən sonra təyinatla vaxtilə təhsil aldığı doğma məktəbinə-Bico kənd orta məktəbinə tarix müəllimi göndərilib. Həmin məktəbdə müəllim işlədiyi ilk günlərdən rayon və respublika mətbuatında elmi-pedaqoji, metodiki məqalələrlə çıxış edib. "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif edilib. Azərbaycan müəllimlərinin VI qurultayına nümayəndə seçilib. Yüksək təşkilatçılığı ilə seçilən, hər zaman göz önündə olmağı bacaran Yaşar müəllim müxtəlif məsul vəzifələrdə çalışdığı dövrlərdə dövlətçilik ənənələrinə sadiq qalaraq ölkənin, eləcə də rayonun ictimai-sosial həyatında fəallıq göstərib. Təhsil Nazirliyi tərəfindən təşkil olunan Respublika pedaqoji mühazirələrində 2002-ci ildə I, 2003-cü ildə III yerləri tutub. Ölkə başçısı İlham Əliyevin 4 oktyabr 2010-cu il tarixli sərəncamı ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülüb.

### Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində baza məktəbi

2008-ci ildə taleyini yenidən doğma məktəbi-Arif Cəbiyev adına Bico kənd orta məktəbi ilə bağlayan təhsil işçisi bir müddət tarix müəllimi işləyib, 2010-cu ildən isə direktor kimi fəaliyyətini davam etdirir.

Rəhbərlik etdiyi təhsil müəssisəsində gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və yurduna hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə diqqət yetirilir. Qeyd edir ki, adıçəkilən ümumtəhsil müəssisəsi gənclərin hərbi- vətənpərvərlik tərbiyəsi sahəsində baza məktəbidir. Belə ki, rayon məktəblərinin şagird və müəllim kollektivləri dəfələrlə bu təhsil müəssisəsində hərbi-vətənpərvərlik mövzularında keçirilən bir çox tədbirlərin iştirakçısı olublar.



Yaşar müəllimin fikrincə, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Düşünür ki, qəhrəmanlığın əsasını qoyan məhz vətənpərvərlik amilidir. Ümummilli lider Heydər Əliyevin "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" fikirlərini hər zaman diqqətdə saxladığını, orta ümumtəhsil müəssisəsində şagirdlərdə vətənpərvərlik hisslərinin artırılması istiqamətində müxtəlif görüşlərin keçirildiyini söyləyir. Təsadüfi deyil ki, bu məktəbin məzunları hərbi xidmətdə olduqları zaman doğma Vətənimizə layiq nümunəvi xidmət göstərirlər. Həmin məktəbin yetirməsi, ötən ilin aprel döyüşləri zamanı şəhid olmuş Toğrul Fərəczadə isə öz adını nəinki doğma məktəbinin, bütövlükdə Ağsu rayonunun qəhrəmanlıq tarixinə yazdırıb. Ötən ilin aprel döyüşlərinin Azərbaycan Ordusunun gücünü ortaya qoyduğunu deyən Yaşar müəllim ölkəmizin hərbi gücünün yüksək səviyyədə olduğunu fəxrlə vurğulayır.

### "Heydər Əliyev dərsləri"nin yeniyetmələrimizin ulu öndərin irsinin yaxından öyrənməsində müstəsna əhəmiyyəti var

Təhsil Nazirliyi tərəfindən rayon və şəhərlərdəki ümumtəhsil məktəblərinin XI sinif şagirdləri üçün Heydər Əliyev mərkəzlərində "Müstəqil Azərbaycan tarixi" mövzusunda əlavə dərslərin tədris olunması müstəsna əhəmiyyətə malikdir. Özünün də rayonun Heydər Əliyev Mərkəzində XI sinif şagirdlərinə bu dərsləri keçdiyini deyir Yaşar müəllim. Söhbət əsnasında bir hadisəni də xatırlayır. Qeyd edir ki, təhsil naziri Mikayıl Cabbarov Ağsu şəhərindəki Uşaq Yaradıcılıq Mərkəzində vətəndaşları qəbul edərkən nazirdən Heydər Əliyevlə bağlı kitablarla təmin olunmağımızı xahiş etdim. Edilən müraciət öz həllini tapdı. Təhsil naziri bu məsələyə xüsusi həssaslıqla yanaşdı və məhz onun tapşırığı ilə çox qısa bir zamanda Heydər Əliyevin çoxcildliyi məktəbimizə hədiyyə edildi. Yaşar müəllim bu dərslərdə ümummilli lider Heydər Əliyevin mənalı ömür yolundan bəhs olunduğunu, dahi şəxsiyyətin həyat və fəaliyyətinin müxtəlif aspektlərinin geniş təhlil edildiyini, şagirdlərə ulu öndərin siyasi irsi, dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsi, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri barədə ətraflı məlumat verildiyini söyləyir.

### Təhsil Nazirliyinin həyata keçirdiyi layihə və proqramlarda kənd məktəblərinin daha çox iştirak etməsini arzulayır

Yaşar Qarayev Təhsil Nazirliyi tərəfindən aparılan islahatların, tətbiq olunan yeniliklərin təhsil işçiləri tərəfindən rəğbətlə və maraqla qarşılandığını bildirir. Xüsusilə son illər Bakıda, eləcə də ölkənin müxtəlif bölgələrində keçirilən diaqnostik qiymətləndirmənin müəllimlərin bilik və bacarıqlarının, peşəkarlıqlarının artırılması istiqamətində mühüm addımlardan biri hesab edir. "Təhsil Nazirliyinin apardığı uğurlu işlərdən biri də tam orta təhsil səviyyəsində təməyülləşmənin tətbiqi ilə bağlıdır" - söyləyən Yaşar müəllim bu pilot layihənin Bakı ilə yanaşı ölkənin bir sıra şəhər və rayonlarını da əhatə etməsini təqdirəlayiq hal sayır. Yeniliyin tətbiqinin şagirdlərin meyil və arzularına uyğun təşkil edildiyi üçün məktəblilərin təlimə marağının daha da artmasına kömək etdiyini, son nəticədə onların təhsil nailiyyətlərinə müsbət təsir göstərdiyini bildirir. Qocaman təhsil işçisinin fikrincə, bu, yaxın illərdə repetitorluğun aradan qaldırılmasında da əhəmiyyətli təsir göstərə bilər.

Kənd məktəbinin direktoru müəllimlərin işə qəbulunun da obyektiv keçirildiyini, müsabiqənin yalnız öz bilik və bacarığına güvənən müəllimlərin uğur qazanmasına imkan yaratdığını söyləyir.

Təhsil Nazirliyinin bir-birindən maraqlı və əhəmiyyətli olan layihə və proqramlar həyata keçirməsini təhsilimizdə uğurlu addımlar kimi dəyərləndirən direktor reallaşdırılan belə tədbirlərin əhatə dairəsinin daha da genişləndirilməsini, onlarda paytaxtla yanaşı respublikanın rayon və kənd məktəblərinin də daha çox iştirak etməsini arzulayır.

# ATU-dan bu il 543 məzun olacaq

Azərbaycan Texnologiya Universitetində (ATU) növbəti məzun günü keçirilib. Sayca 41-ci olan builki buraxılışda universiteti 543 məzun bitirəcək. Onlardan 503 nəfər bakalavr, 40 nəfəri isə magistr dərəcəsi alıb. Tədbirdə məzunların sevincini universitetin rəhbərliyi, professor-müəllim heyəti və valideynlər bölüşüb.

ATU-nun rektoru, professor Akif Süleymanov məzunlara uğurlar arzulayıb. Rektor bildirib ki, ATU məzunlarının qazandıqları mühəndislik ixtisasları bu gün ölkə iqtisadiyyatı üçün ən vacib sahələri əhatə edir. Buna görə də hər bir məzun bu günə kimi yiyələndiyi biliklərdən səmərəli istifadə edərək həm bir mütəxəssis, həm də əsl vətənpərvər kimi universiteti layiqincə təmsil etməlidir.

Digər çıxış edənlər də məzunlara təbriklərini çatdırıb, gələcək karyeralarında uğurlar arzu ediblər.

Tədbirin davamında təhsil aldığı illər ərzində fərqlənən fəal tələbələrə ATU adından "Təşəkkürnamə" təqdim edilib. Xüsusi mərasimlə gətirilən Azərbaycan bayrağının ənənəvi təhvil-təslimi baş tutub. 4-cü kurs tələbəsi Günel Səfərova bayrağı üçüncü kurs tələbəsi Ayşəxanım Abdullayevaya təhvil verib. Tədbir mahnı və rəqslərlə davam edib.

# "Gələcəkdə çoxlu sayda istedadlı rəqqas yetişdirmək arzusundayam"



Sifai SƏFƏROVA

## *Səbinə Xəlilli:* "Anam isə məni həkim kimi görmək istəyir"

Xoş bənizindən təbəssüm yağan və bir az da utancaq olan Səbinə Xəlilli ilə Bakı şəhəri Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dəhlizində görüşürük. Uşaqlar rəqs dərnəyinin müəllimi Samirə Musaimin ətrafına toplaşıb nə isə müzakirə edirlər. Səbinə isə sevincək halda yaşıdlarına üz tutaraq, dostlar, səfərimiz yaxınlaşır, artıq lap az qalır, cəmi 20 gün. Rəqs qrupumuz iyunun 18-də İtaliyada keçiriləcək beynəlxalq festivalda iştirak edəcək. Bir gün Berlində, on gün İtaliyada qalacağıq. Birinci dəfədir ki, İtaliyaya səfər edirik. Səbirsizliklə həmin günü gözləyirəm. İnanıram ki, həmişə olduğu kimi, yenə də paytaxtımıza qələbə ilə qayıdacağıq. Səbinə elə həvəslə danışırdı ki, elə bil lap İtaliyada idi. Söhbətimiz olduqca maraqlı keçdi. Onun haqqında məqalə yazacağımı biləndə çox sevindi və özü haqda, üzvü olduğu dərnək barədə ətraflı məlumat verməyə başladı.

### "Milli solo" nominasiyası üzrə I yeri tutduğuma görə diplom qazanmışam"

- Bakıdakı 32 nömrəli tam orta məktəbin VII sinfində təhsil alıram. Dərslərimdən "4" və "5" qiymətlər alıram. II sinifdə oxuyarkən təhsildə və məktəbin ictimai həyatında fərqləndiyimə görə fəxri fərmanla təltif edilmişəm. "Novruz bayramı"na həsr olunmuş "Folklor-musiqi" müsabiqəsində "Milli solo" nominasiyası üzrə I yeri tutduğuma görə diplom qazanmışam. Dənizi çox sevirəm. İdmanın üzgüçülük növü ilə də məşğul oluram. Siniflərarası keçirilən voleybol yarışlarında iştirak edirəm. Növbəti tədris ilində voleybol üzrə keçirilən yarışlara qatılacağam. 5 yaşımdan "Milli rəqs" dərnəyində məşğul oluram. İlk dəfə "Naz eləmə" rəqsini İlfat Qasımovla nümayiş etdirmişəm. Rəqs qrupumuzda 20-25 uşaq var, hamısı da bir-birilə çox mehribandır. Biz milli rəqslərimizi ölkəmizin hüdudlarından kənarda da təbliğ edirik. Dünyanın bir çox yerlərində olduğu kimi, Azərbaycanda da rəqs sənətinin müxtəlif növləri və janrları var ki, onlar da öz mahiyyətini şifahi xalq ədəbiyyatının bir qolu olan xalq rəqslərindən götürüb. Xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlıdır, onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin böyük əhəmiyyətə malik olduğunu göstərir. Xalq rəqslərinin çox qədim tarixi var. Qobustan qayaüstü rəsmlərində əksini tapmış rəqs səhnələri bunu sübut edir. Rəqslər üç növə bölünür. Bir nəfər tərəfindən, iki nəfərin iştirakı ilə və kollektiv şəklində oynanılan rəqslər xarakterinə, tempinə, melodiyasına görə fərqlidir. Qeyd edim ki, mərkəzin xətti ilə üç dəfə İstanbulda, iki dəfə Bodrumda, dəfələrlə Antalyada, Hollandiyada, Bolqarıstanda və Gürcüstanda Azərbaycan və dünya rəqslərimizi nümayiş etdirmişik. Azərbaycan xalq rəqsləri mövzu baxımından da çox rəngarəngdir. Sanki hər rəqs bir rəvayətin, bir hekayətin nəqlidir.

### "Al-əlvan parçalardan tikilmiş paltarlarımız münsiflərin xoşuna gəlmişdi"

Ən maraqlı səfərlərimizdən biri də Gürcüstanda keçirilən Vonderland beynəlxalq konsert festivalı olub. Mən "Azəri inciləri" mahnı və rəqs qrupunun tərkibində Azərbaycanı təmsil edirdim. Rəqiblərimiz gürcüstanlı və ermənistanlı yaşıdlarımız idi. Biz milli rəqslərimizi nümayiş etdirərkən zalı alqış sədaları bürüdü. Münsiflər heyəti ifa etdiyimiz rəqslərə görə bizə təşəkkür etdi. Al-əlvan parçalardan tikilmiş paltarlarımız onların çox xoşuna gəlmişdi. Bizim milli rəqs qrupumuz Qran-pri mükafatına layiq görüldü.

### "Ad günüm olmasını yaddan çıxartmışdım"

2013-cü ildə İstanbulda keçirilən "23 Nisan" Beynəlxalq Uşaq Festivalına mən də qatılmışdım. Festivalda "Naz eləmə", "Məzəli rəqs", "Qızların rəqsi", "Şirinlər" rəqs qrupunun məharətli çıxışları tamaşaçıları heyrətləndirdi. Ertəsi gün dostlarımla birlikdə şəhərin görməli, gəzməli yerlərinə tamaşa etdikdən sonra otelə qayıtdıq. Çox yorulmuşdum. Gördüm ki, hamı məni görən kimi ad günün mübarək, söyləyir. Mən də onlara qoşulub birlikdə bu sözləri təkrar edirdim. Bilmirdim kimin ad günüdür. Ad günüm olmasını yaddan çıxartmışdım. Tamam unutmuşdum ki, bütün bunlar mənim üçündür. Mənim 10 yaşımı orada qeyd edirdilər. Həmin gün xeyli şənləndik, oxuduq, oynadıq, rəqs etdik, mahnılar ifa etdik, səhərin açılmasını belə hiss etmədik. Sonda isə çay süfrəsi təşkil olundu və tortla çay içdik. Ad günüm çox maraqlı keçdi. Evə gələrkən həmin hadisəni dostlarıma danışdım və xoş bir xatirə kimi gündəliyimdə də qeyd etdim...

### "Hollandiyada Xocalı abidəsini ziyarət etdik"

2014-cü ildə Hollandiyada beynəlxalq festivalda olduq. Bizi orada yaşayan azərbaycanlılar qarşıladılar. İki gün Fidan adlı azərbaycanlının evində qaldıq. Çox səmimi və mehriban ailə idilər. Heç bizdən ayrılmaq istəmirdilər. Orada olarkən Xocalı abidəsini ziyarət etdik, tər qərənfillər alıb abidənin önünə düzdük. Hollandiyada 7 gün qaldıq. Həmkarlarımız bizə öz tarixi yerlərinin maketlərini göstərdilər. Mərkəzin "Çiçəyim" uşaq teatr studiyasının üzvləri də bizimlə idilər. Milli rəqslərimizlə bərabər hind, türkmən, Çin rəqslərini də ifa etdik. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan xalq rəqsləri nəsildən-nəslə ötürülüb və bugünkü zirvəni fəth edib. "Qazağı", "Heyvagülü", "Lalə", "Qızılgül", "İnnabı", "Dərbəndi", "Tərəkəmə", "Toy rəqsi", "Turacı", "Uzundərə", "Vağzalı", "Xançobanı", "Yallı", "Yerli rəqs", "Zoğalı" və sair mahnılar bu qəbildəndir. Bu zəngin rəqs irsimizin lap qədimlərdən qaynaqlanan kökləri var. Bir sözlə, Azərbaycan rəqsi insanın hissini, duyğusunu, sevinc və kədərini ifadə edir.

### "Uğurlarım zəhmətimin bəhrəsidir"

İstirahət günlərini həmişə səbirsizliklə gözləyirəm. Dostlarım da mənim keçirdiyim hissləri yaşayırlar. Çünki həftənin qalan günləri həddindən artıq gərgin oluruq. Məşqlər, dərslərimiz, hazırlıqlar və sair. O ki qaldı çətin günə, onu hələ şükürlər olsun yaşamamışam. Məncə insan ən çətin problemini belə özü həll etməyə çalışmalıdır. Başqasına yük olmağı qətiyyən xoşlamıram. Uğur sözünü tez-tez işlədirik. Uğura gedən yolda məqsəd aydın olmalıdır. Onda onu həyata keçirmək də asan olar. Çalışqan olmaq lazımdır ki, uğur qazanasan. İnsan özünə güvənməlidir. O, yalnız özünü gördüyü sahədə uğur qazana bilər. Beynəlxalq festivallarda qazandığım mükafatların hamısı gərgin əməyimin nəticəsidir.

### "Çoxlu dostum var"

İstanbulda olakən Ayşənnur Özdəmirin ailəsində qonaq olduq. O da VII sinifdə oxuyurdu. Onun oxuduğu məktəbə gedib sinif yoldaşları Alara Akderin, Damla Yıldız, Derin Akderin, Tuana Hocazadə, Doğa Dağıstanlı, Ebrar Emeksizoğlu, Nəbiyə Eşki, Serra Güner, Selenay Budur və s. ilə tanış oldum. Dərslərində oturduq, çoxlu söhbətlər etdik. Paytaxtdan apardığımız sovqatları, şirniyyatları Ayşənnurun sinif yoldaşlarına payladıq. Azərbaycanın milli mətbəxinin zənginliyindən onlara söz açdıq. Söhbətimizi dinlədikcə onlar xəyalən özlərini Azərbaycanda hiss edirdilər.

Hər dəfə vətənə döndükdə öz təəssüratlarımı sinif rəhbərim - Azərbaycan dili və ədəbiyyat müəllimim Aynurə Məmmədova ilə bölüşürəm. Vətənpərvərlik mövzusunda şeirlər yazıram. İlk oxucum anamdır. Qiymətimi də elə o yazır. Rəqs mənim həyatımdır. Rəqssiz özümü təsəvvür etmirəm. Evdə olarkən musiqisiz də qol açıb süzürəm. Rəqs etməkdən xüsusi zövq alıram. Bu, mənim hobbimdir. Gələcək arzularım isə tükənməzdir. Rəqs müəllimim Samirə Musaimi çox sevirəm. Qrupumuzda hamı rəqs müəllimi olmaq istəyir. Bu istəyi bizdə Samirə müəllim yaradıb. Mən də ona oxşamaq istəyirəm. Gələcəkdə çoxlu sayda istedadlı rəqqas yetişdirmək arzusundayam. Amma təəssüflər olsun ki, anam isə məni gələcəkdə həkim kimi görmək istəyir. Bacım Aynurə Xəlilli "ADA" Universitetində təhsil alır. Bir an belə mütaliəsiz qalmırıq. Çünki insanın dünyagörüşünün formalaşmasında mütaliə mühüm rol oynayır. Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərini oxuyuram. Öz filmlərimizi də izləyirəm. İnsan filmlərdəki müsbət qəhrəmanlara bənzəməyə can atır. Mən ingilis və rus dillərini də həvəslə öyrənirəm. Bilirəm ki, bunların hər ikisi olduqca vacibdir.

Qeyd edim ki, bu günlərdə Milli Olimpiya Komitəsində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançılarının mükafatlandırma mərasimində bizim mərkəzin üzvü olduğum "Azəri inciləri" mahnı və rəqs qrupu da iştirak etdi. Bizim ifa etdiyimiz "Türkmən" rəqsi alqışlarla qarşılandı. İyunun 9-da isə hesabat konsertimiz olacaq. "Səndən bir dənədir", "Türkmən", "Milli rəqs" ifa edəcəyik. Bu konsertə də ciddi hazırlaşırıq.

# Sürətli şahmat üzrə 10 yaşlılar arasında Avropa çempionu



Rəşad ZİYADOV

## *Aydın Süleymanlı:* "Məqsədim dünya çempionu olmaqdır"

Məlumdur ki, şahmat oyunu dərin təfəkkür, riyazi-fəlsəfi təhlil tələb etməsi qələbəyə istiqamətlənmiş düzgün strateji qərarların vaxtında qəbulu baxımından digər idman növlərindən fərqlənir. Bütün oyunlar içərisində şahmatın icadını, meydana gəlməsini onu insan zəkasının inkişafına xidmət edən bir növ hesab etməklə, ümumi proqresdə xüsusi bir mərhələ kimi qəbul etmək olar. Bu oyun artıq ağlın inkişafına, güclənməsinə böyük təsir göstərən əyləncə vasitəsinə çevrilib və dünyanın əksər hissələrinə sürətlə yayılmağa başlayıb. Şahmatda ən sadə oyunçu belə bu oyunu oynayarkən ağıl, intellekt rəqabətinə girməli olur. İnkaredilməzdir ki, bütün bu sadalanan keyfiyyətlər hər kəsdə olmur. Belə intellekt sahibi olan şahmatçılardan biri də Aydın Süleymanlıdır. Özü balaca olan, uğurları isə şahmat dünyasına səs salan 12 yaşlı şahmatçımızı yaxından tanıyaq.

Süleymanlı Aydın Elşən oğlu 2005-ci il martın 22-də Bakıda anadan olub. 6 yaşında 249 nömrəli tam orta məktəbin birinci sinfinə gedən Aydın hazırda həmin məktəbin VI sinif şagirdidir. Uşaqlıqdan şahmata böyük marağı olub, 5 yaşından şahmatla məşğul olmağa başlayıb. İlk vaxtlar evlərinin yaxınlığındakı Xətai Rayon Mədəniyyət Mərkəzində şahmat məşğələlərinə qatılan bu balaca hələ erkən yaşlarından çalışqanlığı və şahmata böyük marağı ilə yaşıdları arasında seçilib. Sonra valideynlərinin arzusu ilə Aydın Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbində Xalid Atababayevdən şahmatın sirlərini dərindən öyrənməyə başlayıb. Bundan sonra onun şahmatda uğurları artıb. Qəhrəmanımızın sonuncu böyük uğuru Avropa çempionu tituludur. Öyrəndik ki, Aydının bu oyuna həvəsi atası ilə babasının evdə şahmat oynaması ilə yaranıb. İlk vaxtlar şahmat fiqurlarına oyuncaq kimi baxan balaca Aydın sonradan bu böyük oyunun sirlərini atasından və müəllimlərindən öyrənib.

Atası Elşən Süleymanov Aydının şahmata olan marağını çox tez hiss edib. Bu da onun kiçik yaşda böyük istedadının ortaya çıxmasına səbəb olub.

Hələ 5 yaşından etibarən Azərbaycanda keçirilən turnirlərdə və çempionatlarda birinci yerləri tutan Aydın 6 yaşından başlayaraq beynəlxalq yarışlara qatılıb. Balaca çempion 2012-ci ildə - 6 yaşında qatıldığı ilk beynəlxalq turnirdən əliboş qayıtmayıb. O, Rumıniyada keçirilən dünya çempionatında yaşıdları arasında fərqlənsə də özündən bir yaş böyüklərə məğlub olub. Nəticədə qatıldığı ilk beynəlxalq yarışdaca dünya beşinciliyini əldə edib. Aydın Gürcüstanda, Yunanıstanda, Bolqarıstanda keçirilən beynəlxalq turnirlərdə birinci olub. 2013-cü ildə Çernoqoriyanın Budva şəhərində 8 yaşlı şahmatçılar arasında keçirilən qitə birinciliyində Avropa kuboku uğrunda yarışda bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub. Həmin ilin dekabrında Birləşmiş Ərəb Əmirliklərinin Əl-Əyn şəhərində keçirilən şahmat üzrə dünya çempionatında III yeri tutub. Bundan başqa, 2014-cü ilin mayında Gürcüstanın Tbilisi şəhərində 9 yaşlı şahmatçılar arasında keçirilən beynəlxalq turnirdə I, iyun ayında Yunanıstanın Kavala şəhərində isə məktəblilərin Avropa çempionatında III yerə sahib olub. Aydın, həmçinin həmin ilin avqustunda Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi festivalında 1800-ə qədər əmsallı şahmatçılar arasında fərqlənərək III yeri qazanıb. O, 2014-cü ilin noyabrında Estoniyanın Tallin şəhərində 10 yaşlı oğlanlar arasında keçirilən rapid və blits üzrə Avropa çempionatında rapid üzrə I, blitsdə I məsələ həlli üzrə isə II yeri tutub. Aydın bundan başqa 2015-ci ildə Rusiyada və Bolqarıstanda keçirilən beynəlxalq turnirlərdə iştirak edərək şəxsi əmsalını artıraraq çempion adını qazanıb. Həmin ilin dekabrında Belarusun Minsk şəhərində keçirilən sürətli şahmat üzrə Avropa çempionatında 10 yaşlı oğlanlar arasında yenidən Avropa çempionu adını qazanıb. 2016-cı ilin iyulunda Gürcüstanın Poti şəhərində keçirilən sürətli şahmat yarışında 12 yaşlı oğlanlar arasında, dekabrında isə Vüqar Həşimovun xatirəsinə həsr olunmuş beynəlxalq şahmat festivalında II yerə çıxıb. 2017-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən ənənəvi Moskva-Open beynəlxalq şahmat festivalında güclü oyun nümayiş etdirərək şahmat əmsalını 147 vahid reytinq artırıb. Hazırda reytinq əmsalına görə 12 yaşlılar arasında Avropada I, dünyada isə III yerdədir. Aydının son uğuru bu yaxınlarda - mayın 12-də Naxçıvan Muxtar Respublikasında keçirilən Naxçıvan-Open beynəlxalq turnirində olub. Belə ki, o, 12 yaşı olmasına baxmayaraq 18 yaşlılarla mübarizə apararaq I yerə sahib olub.

### Həm də dərs əlaçısı

Aydın bizimlə söhbətində şahmata olan marağı, hədəfləri və dünya birincisi olmaq üçün nələr etməyi düşünməsi haqda danışdı. Düşdüyü qeyri-adi vəziyyətlərdən, üzləşdiyi maraqlı hadisələrdən, iştirak etdiyi yarışlardan, görüşlərindən söz açdı. Aydın həm də dərs əlaçısıdır. Oxuduğu məktəbdə hamının sevimlisinə çevrilib. Təlim-tərbiyəsi ilə nümunəvi şagird adını qazanıb. Deyir ki, əsas məqsədi peşəkar şahmatçı olmaq və dünya çempionu olmaqdır. Müəllimlərinin və ailəsinin Aydına olan ümidləri həddən artıq çoxdur. 12 yaşlı şahmatçımızın hədəfləri də çox böyükdür.

### "Bu uşaq şahmatdan ayrıla bilmir"

Atası Elşən Süleymanov oğlu Aydını gələcəkdə ən güclü şahmatçılar arasında görmək istəyir. O, bizimlə söhbətində Aydının şahmata gəlişi barədə danışdı: "Aydının 3-4 yaşı olanda biz hiss elədik ki, o, riyazi hesablamaları bilir. Bu yaşında vurma cədvəlinin bir hissəsini əzbər deyirdi. Hətta üçrəqəmli hesablamaları da bacarırdı. Bağçaya qoymuşduq. Orada bunlara şahmat dərsləri keçirdilər. Bağça müəllimləri bizə deyirdi ki, Aydının şahmata marağı var. Onu şahmat məktəbinə qoysanız, şahmatla məşğul olsa yaxşı olar. Mən də şahmatı çox sevirəm və oynayıram. İlk vaxtlar oğlumla evdə özüm məşğul olmağa başladım. Sonralar gördük ki, o, şahmatı yaxşı mənimsəyir. Bağçada keçirilən şahmat yarışlarında da həmişə yaşıdlarından fəqlənirdi, dəfələrlə birinci olurdu. Ondan sonra bizə dedi ki, mənə şahmat taxtası alın. Mən ona şahmat taxtası aldım. Bir müddət keçdi, anası Aydının yatdığı yerdə yastığının altında həmin şahmat qutusunu mənə göstərdi. Biz onda bir daha əmin olduq ki, bu uşaq şahmatdan ayrıla bilmir. Gecələr də onunla yatır...".

### "Bu şahmatçıya ümidlərimiz böyükdür"

Balaca vaxtı dəcəl olan Aydın şahmatla məşğul olmağa başladıqdan sonra dəcəlliyini və uşaqlığını qurban edib bu işə: "Aydın demək olar ki, uşaqlıq yaşamayıb. O, başqa uşaqlar kimi həyətdə futbol oynamayıb. Ancaq fikrini şahmata verib. İndi dəcəl uşaqdan heç bir əsər-əlamət qalmayıb. O indi özünü elə bil ağsaqqal kişi kimi aparır".

Aydın Süleymanlı haqqında söz açan Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin direktoru Cəmil Fətullayev yetirmələrinin belə uğurlarının olmasından qürur hissi keçirdiyini bildirdi. C.Fətullayev məktəbin uğurlarının davamlı olacağından və gələcəkdə yeni-yeni nailiyyətlər əldə edəcəklərindən ümidvar olduğunu nəzərə çatdırıb. Qeyd edib ki, təhsil ocağı həm respublika səviyyəsində, həm də beynəlxalq yarışlarda uğurla təmsil olunur. Düzgün qurulmuş iş və gərgin əmək sayəsində məktəb Təhsil Nazirliyinin bir çox diplom və mükafatları ilə təltif olunub. O, idmana dövlət tərəfindən göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək Prezident İlham Əliyevə minnətdarlığını bildirdi: "Bu qayğı, bu diqqət bizə həddən artıq sevinc, qürur və fəxr hissi bəxş edir".

Aydın Süleymanlının məşqçi-müəllimi Xalid Atababayev söhbətimizə qoşularaq onun haqqında fikirlərini bizimlə bölüşdü. O, Aydının böyük potensiala malik olduğunu və öz üzərində ciddi çalışdığını qeyd etdi. Bildirdi ki, Aydını başqalarından fərqləndirən əsas cəhət onun daim axtarışda olmasıdır. Qeyd etdi ki, şahmatda uğur qazanmağın əsas səbəbi çox çalışmaqdır. Təbii ki, istedad olmasa, çalışmağın da bir o qədər faydası olmaz. Aydın həm istedadıyla, həm də çalışmaqla uğur qazanır. Onunla uzun müddət işləmək mənə xüsusi zövq verir : "Aydının şahmatda reytinqi hazırda 2390 səviyyəsindədir. Bu isə o deməkdir ki, 10 əmsal reytinqini artırsa, beynəlxalq usta normasını yerinə yetirmiş olar. Tezliklə Aydının beynəlxalq qrossmeyster olmasını gözləyirik. Bu şahmatçıya bizim ümidlərimiz böyükdür".

# Bilik yarışının qalibi mükafatlandırılıb

**Şakir CƏFƏROV**

Bakıdakı 19 nömrəli tam orta məktəbdə mükafatlandırma mərasimi keçirilib. Qeyd olunub ki, məktəbin 7"ç" sinif şagirdi Məhərrəmli Anar Vüqar oğlu www.e-test.edu.az portalı vasitəsilə keçirilən bilik yarışının qalibi olub. O, 2015-2016-cı illərdə portaldan istifadə edərək suallara cavab vermiş və ən yüksək bal toplayıb.

Elə bu günlərdə Təhsil Nazirliyi tərəfindən bilik yarışında qazandığı uğura görə Anara sertifikat, simvolik I yer medalı və planşet təqdim edilib. Mükafatlandırma mərasimində müsabiqənin təşkilatçıları, məktəbin direktoru Akif Əliyev, qalibin ibtidai sinif müəllimi Sevda Həsənova və başqaları Anar Məhərrəmlinin məktəbdə nümunəvi bir şagird olmasından söz açıb, ona bundan sonra daha yüksək nailiyyətlər arzulayıblar.

Sonda müsabiqə qalibi tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirib.




## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66
**Baş redaktor müavini** s.ibrahimov@muallim.edu.az
Sarvan İbrahimov 538-21-55
**Məsul katib** e.abdulov@muallim.edu.az
Elman Əbdülov 510-68-73
**Elm və təhsil şöbəsi** y.aliyev@muallim.edu.az
Yusif Əliyev 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** o.mustafayev@muallim.edu.az
Oruc Mustafayev 538-67-41
**İnformasiya şöbəsi** n.rahimov@muallim.edu.az
Niyazi Rəhimov 538-51-41
**Gənclik və yaradıcılıq şöbəsi** s.kerimova@muallim.edu.az
Samirə Kərimova 539-19-74
**Məktublar şöbəsi** sh.cafarov@muallim.edu.az
Şakir Cəfərov 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)
**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə
Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831
**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6174, **Sifariş** 1512
**Məsul növbətçi:** N.Rəhimov


# "Xalq qəhrəmanları ilə tanınır"



**Rəşad ZİYADOV**

Bu günlərdə Bakıdakı 39 nömrəli tam orta məktəbin şagirdlərinin təqdimatında Azərbaycanın Milli Qəhrəmanı Şahlar Əvəz oğlu Şükürovun anadan olmasının 65 illiyinə həsr olunmuş "Xalq qəhrəmanları ilə tanınır" adlı ədəbi-bədii kompozisiya keçirilib.

Milli Azərbaycan Tarixi Muzeyində keçirilən tədbir Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra tədbiri giriş sözü ilə məktəbin direktor müavini Könül Rəhimova açaraq ümummilli lider Heydər Əliyevin Milli Qəhrəmanlar haqqında dediyi fikrini xatırladıb. "Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş Milli Qəhrəmanlarımızın həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir!". K.Rəhimova bildirib ki, Milli Qəhrəmanları tanıdıb təbliğ etmək, gələcək nəsillərə ötürmək hər bir vətəndaşın borcudur.

Sonra söz şagirdlərə verilib. Onlar Milli Qəhrəmanın həyatı, keçdiyi döyüş yolu haqqında geniş məlumat veriblər. Atasının, digər ailə üzvlərinin iştirakı, çıxışları ilə çəkilmiş videoçarxlar, şagirdlərin ifasında şeirlər, kompozisiyalar, səhnələr nümayiş etdirilib. Tədbirdə həmçinin Azərbaycanın sevilən müğənnilərindən Kamil Cəfərov və saz ustaları da çıxış ediblər.

Tədbirdə muzeyin direktoru, akademik Nailə Vəlixanlı çıxış edərək bildirib ki, vətən yolunda canlarını qurban vermiş Vətən oğullarının xatirəsini hər zaman əziz tutmaq bizim borcumuzdur.

Milli Qəhrəmanın oğlu, polis kapitanı Sənan Şükürov çıxış edərək atasının xatirəsini hörmətlə anan hər kəsə öz təşəkkürünü bildirib və Milli Qəhrəmana məxsus "Qızı ulduz" medalını muzeyə bağışlayıb.

Tədbirin sonunda Milli Qəhrəmanın qardaşı, Azərbaycan Tibb Universitetinin II cərrahi xəstəliklər kafedrasının dosenti, tibb elmləri üzrə fəlsəfə doktoru Malik Şükürov çıxış edərək bu cür tədbirlərin şagirdlərdə vətənpərvərlik və qəhrəmanlıq hisslərinin aşılanmasında nə qədər vacib olduğunu vurğulayıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Məktəbdənkənar fəaliyyətin təşkili sektorunun müdiri Afiq Əzizov, BŞTİ-nin Ümumi təhsil sektorunun məsləhətçisi Xalidə İbrahimova, Nazirlər Kabinetinin şöbə müdiri Qurban Sadıqov, Kəlbəcərin sayılıb-seçilən ziyalıları, Milli Qəhrəmanın yaxınları və ailə üzvləri, Milli Azərbaycan Tarixi Muzeyinin nümayəndələri çıxışlarında bildiriblər ki, Vətən uğrunda canından keçən qəhrəmanlar heç vaxt unudulmur. Həmin qəhrəmanların təbliği isə gənclərin vətənpərvərlik ruhunun formalaşmasında müstəsna rol oynayır.

# Məktəblilərin muzeylərə ekskursiyası təşkil edilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri şagirdlərinin paytaxtdakı muzeylərə ekskursiyası təşkil edilib.

18 may - Beynəlxalq Muzey Günü münasibətilə təşkil olunan ekskursiyanın əsas məqsədi Bakı şəhərində fəaliyyət göstərən muzeylərin tarixi, etnoqrafik və mədəni ekspozisiyası barədə məktəblilərin maarifləndirilməsindən ibarətdir.

Ekskursiya zamanı şagirdlərə ölkə əhəmiyyətli memarlıq abidələri və eksponatlar barədə ətraflı məlumat verilib. Şagirdlər xüsusi istifadə olunan məişət, əşya və geyim nümunələri, foto və sənət əsərləri ilə tanış olub, muzeylərin kolleksiya fonduna tamaşa ediblər.

# Etibarsız sayılır

**Azərbaycan Dillər Universitetinin** İxtisasartırma və Yenidənhazırlanma fakültəsi tərəfindən 2006-cı ildə Rüstəmova Ceyhunə Rüstəm qızına verilmiş YB-006278 nömrəli Yedidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2012-ci ildə Babazadə Azadə Əhməd qızına verilmiş AA-020381 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2005-ci ildə Məmmədova Təhminə Fəxrəddin qızına verilmiş B-046864 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Kakalos kənd 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədova Elza Həsənağa qızına verilmiş A-203851 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1973-cü ildə Məmmədov Nemət Xalid oğluna verilmiş Э-223124 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**16 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2011-ci ildə Mirili Nurlan Xəqani oğluna verilmiş BB-063085 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Texnikumu** tərəfindən 1999-cu ildə Həşimova Südabə Tahir qızına verilmiş AB-II-049354 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bağırova (Quliyeva) Elnaz Nizami qızına verilmiş B-254315 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.V.Lomonosov adına Moskva Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Hacıyeva Elnarə Elmurazovnaya verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2015-ci ildə Süleymanov Ülvi Nəriman oğluna verilmiş A-053404 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** tərəfindən 2008-ci ildə Məmmədova Afaq Akif qızına verilmiş BB-067390 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şahbuz qəsəbə** 2 nömrəli orta məktəbi (indiki Şahbuz şəhər 1 nömrəli tam orta məktəb) 2006-cı ildə bitirmiş Quliyeva Xurşud İlqar qızına verilmiş B-244895 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Hüseynova Gülnarə Höccət qızına verilmiş A-659597 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutu** tərəfindən 1981-ci ildə Nağıyeva Məhsəti İsmayıl qızına verilmiş ЖВ-031539 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 299 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Quliyev Kənan Zahir oğluna (Şəkərov Kənan Knyaz) oğluna verilmiş A-114124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Ağamalıyeva Cəmilə Rafiq qızına verilmiş A-220266 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 288 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Ağayev Tərlan Rasim oğluna verilmiş A-335061 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 2003-cü ildə Məmmədova Aynur Vilayət qızına verilmiş AB-II-093424 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Elektrotexnikumu** tərəfindən 1979-cu ildə Eyvazov İskəndər Cəlil oğluna verilmiş БТ-594992 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Mehdiyeva Diana Ənvər qızına verilmiş A-000132 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Babaşov Namiq Cəfər oğluna verilmiş 111 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Qarabucaq kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Mehdiyeva (Abdullayeva) Zərnigar Vadim qızına verilmiş B-718142 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Qarabucaq kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Mehdiyev İman Novruzalı oğluna verilmiş B-434667 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Qurbanova Səbinə Şakir qızına verilmiş BB-I-009076 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli (keçmiş Dəvəçi) tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Hüseynova Rəsmiyyə Mirağa qızına verilmiş 895524 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəmiryolu Texnikumu** tərəfindən 1986-cı ildə Səmədov Səməd Şamil oğluna verilmiş ЗТ-054947 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məlikova Günay Ağasəlim qızına verilmiş B-002214 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**18 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2015-ci ildə Məlikova Günay Ağasəlim qızına verilmiş A-060029 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Xalac-I kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Əliyev Cəmil Ağamirzə oğluna verilmiş A-293342 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Usmanov Zaur Bilal oğluna verilmiş A-188433 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Həsənova (Məmmədova) Lalə Raçıxan qızına verilmiş 202508 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Rzayeva Aytac Talıb qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Ələkbərova Əqilə Ələkbər qızına verilmiş A-685752 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayonu** Şıxmahmud kənd tam orta məktəbini 1990-cı ildə bitirmiş Vəliyev Elxan Aydın oğluna verilmiş AK-651360 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Qasımzadə Hələta Ağahüseyn oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti** tərəfindən 1999-cu ildə Əliyeva Lalə Tofiq qızına verilmiş A-033046 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədova Aygün Elxan qızına verilmiş B-557231 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Tağıyev Nicat Zöhrab oğluna verilmiş A-417266 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Şorəli kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş İbrahimova Vüsalə Kamil qızına verilmiş A-057832 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayonu** Dəliməmmədli şəhər tam orta məktəbini 1996-cı ildə bitirmiş Rəhimova (Musayeva) Lamiyə Aqil qızına verilmiş A-108455 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1978-ci ildə Məmmədov Eynal Yusif oğluna verilmiş Г-I-034861 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Çaxırlı kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Cəfərova Şəfiqə Əyyar qızına verilmiş B-266292 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Atakişiyeva Diana Neymətovnaya verilmiş B-019497 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Məmmədova Xəyalə Oruc qızına verilmiş A-031751 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayonu** Saray kənd tam orta məktəbini 1998-ci ildə bitirmiş Tağıyev Aslan Telman oğluna verilmiş A-149899 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Abbasova Aytəkin Şahlar qızına verilmiş A-493402 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyin IX sinfini 1993-cü ildə bitirmiş Rzayev Anar Rzabala oğluna verilmiş 044514 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2012-ci ildə Hədisova Vəfa Nizami qızına verilmiş A-013708 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədov Ələkbər Rüstəm oğluna verilmiş A-185824 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1992-ci ildə İmanov Elçin Firudin oğluna verilmiş ЦВ-859003 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2012-ci ildə Tağıyev Aslan Telman oğluna verilmiş AA-II-021366 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Qüdrətova Ülviyyə Cahandar qızına verilmiş BB-I-011914 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin ingilis dili müəllimi Gülnarə Məmmədovaya atası

**MƏMMƏD SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – North Africa (Egypt)

by Andy Keedwell

### Activity 1

Match a title (a–e) to a paragraph in the text (1–5).

**a.** A message from a god
**b.** A promise for the future
**c.** Life-giving river
**d.** A time of trouble
**e.** In search of Khnum

### Elephantine Island

1. ..................................................
Although much of Egypt is desert, the land near the River Nile is green and pleasant because each year the river floods the land and helps make the crops grow. People have lived close to the river in Egypt for thousands of years.

2. ..................................................
A story tells how, over five thousand years ago, the river stopped running for seven years. The people soon ran out of the food they had saved and now there was very little water to drink and no food to eat. The people grew hungry and thirsty and asked their king for help but there was very little he could do.

3. ..................................................
One night, the king had a dream. In his dream, a great god approached the king and said 'I am Khnum, the God of the Nile. Every year I order the river to flood and help your crops to grow. But you people have forgotten me. Until you remember me once again, the Nile will not flow.'

4. ..................................................
No one knew who Khnum was or where he lived. At last the king found out that the god lived in the south of the country, on an island from which the river began its journey to the sea. The king set out to find the god.

5. ..................................................
After many weeks' travel, he came to Elephantine Island. He found Khnum had closed the wooden doors of his house to stop the river escaping to the sea. He ordered food and sweet wine to be brought to Khnum's house. He built a new temple for Khnum. Khnum opened the doors of his house to let the river flow again. The god promised that, in future, the waters of the Nile would always flow and each year they would flood the land.

### Activity 2

Use the words and phrases in the table to make questions. Then match each question with an answer (1–5).

| | | | |
|---|---|---|---|
| Why | did | the river | live? |
| Where | | the god of the Nile | tell the river to do? |
| What | | the king | flood the land? |
| When | | the story | stop flowing? |
| How often | | | build the temple? |
| How long | | | take place? |

***Example:** When did the story take place?* ***Over five thousand years ago***

**1.** For seven years
**2.** Once a year
**3.** To make Khnum happy
**4.** In the far south of the country
**5.** To flood the land again and make the crops grow


© Hannah Eaton/British Council

### Activity 3

There are many words in English which are formed with a **verb** followed by a **preposition:**

*Khnum opened the doors of his house to let the river **flow out** towards the sea.*
*The people soon **ran out** of the food they had saved the year before.*

We call these **multi-word verbs.**

Choose a verb from the box to complete each multi-word verb in sentences 1–5.

| check | fill | find | get | set | take |
|---|---|---|---|---|---|

*Example: 'Please **get** out your homework to show me,' said the teacher.*

**1.** He asked everybody but he could not ........... out the answer.
**2.** Peter could not wait to ........... his girlfriend out to a lovely restaurant.
**3.** Please ........... out the application form and send it to us.
**4.** You must ........... out of the hotel by 11am or pay for a new room.
**5.** He ........... out to ride his bicycle to the nearest city.

### Activity 4

There are many stories around the world about floods. Why do you think this is? What other stories about floods do you know?

### Answers

**Activity 1**
1. c; 2. d; 3. a; 4. e; 5. b

**Activity 2**
1. How long did the river stop flowing?
2. How often did the river flood the land?
3. Why did the king build the temple?
4. Where did the god of the Nile live?
5. What did the god of the Nile tell the river to do?

**Activity 3**
1. find
2. take
3. fill
4. check
5. set

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017